

MİLLİ MƏCLİSƏ SEÇKİLƏRƏ 9 GÜN QALIR




Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 230 (7084) CÜMƏ AXŞAMI, 22 oktyabr 2015-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik




# Prezident İlham Əliyev Sabunçu Məhkəmə Kompleksinin yeni binasının açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Sabunçu Məhkəmə Kompleksinin yeni binasının açılışında iştirak edib.

Dövlət başçısı əvvəlcə Sabunçu Rayon Məhkəməsinin köhnə binasının, eləcə də Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində hazırlanan müasir məhkəmə bina və komplekslərinin layihələrini əks etdirən stendlərə baxdı.

Ədliyyə naziri Fikrət Məmmədov yeni binanın inşası və burada yaradılan yüksək şərait barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, kompleksin ümumi sahəsi 9 min kvadratmetr olan yeddimərtəbəli binasının inşasına 2012-ci ilin oktyabrında başlanılıb. Tikinti işləri ən müasir standartlara uyğun aparılıb. "Əlillərin hüquqlarının qorunması haqqında" Konvensiyanın tələblərinə müvafiq olaraq binada onlar üçün bütün zəruri şərait yaradılıb. Əlillərin binaya daxil olması üçün xüsusi qurğu quraşdırılıb.

Prezident İlham Əliyev Sabunçu Məhkəmə Kompleksinin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, bina Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində inşa olunub.

Binanın foyesində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılıb.

Sabunçu Məhkəmə Kompleksi təxminən 1,3 milyon əhaliyə xidmət göstərəcək. Kompleksdə 150 nəfər, o cümlədən 21 hakim, 100 məhkəmə aparatı əməkdaşı və 30-dək ədliyyə işçisi çalışacaq. Müasir informasiya-kommunikasiya texnologiyalarının quraşdırıldığı bina inzibati və ictimai zonalara bölünür. Hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulub. Ədliyyə Nazirliyinin icra şöbəsinin əməkdaşları, dövlət ittihamçıları və vəkillər ictimai zonadan istifadə edəcəklər. Bununla da hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər.

Binada Sabunçu Rayon Məhkəməsi, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi və Ədliyyə Nazirliyinin rayon icra şöbəsi yerləşir. Burada gözdən əlil vətəndaşların sərbəst hərəkəti üçün hər mərtəbənin döşəməsinə xüsusi örtük salınıb. İctimai zonada bütün otaqların adlarını əks etdirən lövhələrdə gözdən əlil insanlar üçün də xüsusi yazılar var. Müasir elektron məlumat daşıyıcıları vətəndaşlara məhkəmə prosesləri və onların keçiriləcəyi tarix, vaxt, məhkəmə zalı, hakim və digər məsələlərlə bağlı informasiyanı maneəsiz əldə etməyə imkan yaradır.













Prezident İlham Əliyev məhkəmə zallarında yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, kompleksdə 14 məhkəmə iclas zalı - cinayət işlərinin baxıldığı 4 və mülki işlərin baxıldığı 10 zal fəaliyyət göstərir. Zallarda vəkillər, dövlət ittihamçıları, şahidlər və icra məmurları üçün otaqlar ayrılıb.

Diqqətə çatdırıldı ki, kompleksdə "Elektron məhkəmə"nin tətbiqi üçün bütün zəruri infrastruktur yaradılıb. Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən və audio-video yazılışları aparan "Femida" sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılıb. Təqsirləndirilən şəxslər zalda beynəlxalq standartlara uyğun xüsusi ayrılan şüşə otaqda saxlanılırlar. Burada onların vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğu da var. Məhkəmə zalında əcnəbi şəxslərin iştirakı ilə işlərə baxılan zaman tərcümə xidmətlərinin göstərilməsi üçün xüsusi yer ayrılıb.

İnzibati zonada da hakimlər və məhkəmə aparatı işçiləri üçün lazımi şərait yaradılıb.

Prezident İlham Əliyev burada dünyada və Azərbaycanda məhkəmə və ədalət mühakiməsi ilə bağlı tarixi sənədlərə, rəmzlər, poçt markaları və nişanlara baxdı.

Bu mərtəbədə yerləşən konfrans zalı ilə tanışlıq zamanı dövlət başçısının diqqətinə çatdırıldı ki, müasir avadanlıqla təchiz edilən zalda hakimlərə və məhkəmə işçilərinə Ədliyyə Nazirliyinin iclaslarına, müşavirə və toplantılarına, həmçinin Ali Məhkəmənin Plenumuna birbaşa qoşulmaq imkanı yaradılıb.

Sonra "Elektron məhkəmə" informasiya sisteminin təqdimatı oldu. Bildirildi ki, ədalət mühakiməsinin həyata keçirilməsində şəffaflığın, insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi məqsədilə Azərbaycan Prezidentinin 2014-cü il 13 fevral tarixli sərəncamına əsasən "Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə işlər görülür, məhkəmə fəaliyyətinin elektronlaşdırılması və müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi məqsədilə zəruri infrastruktur yaradılır. Yeni inşa olunan müasir məhkəmə binalarında artıq "Elektron məhkəmə" informasiya sisteminin komponentlərinin sınaq rejimində tətbiqinə başlanılıb.

Təqdimatda vətəndaşların, habelə hakimlərin rahatlığına xidmət edən bəzi komponentlərin - ərizə və şikayətlərin elektron formada qəbulu, məhkəmə prosesi iştirakçılarının "elektron şəxsi kabineti", onların avtomatik məlumatlandırılması, məhkəmədə işlərə baxılmasına dair cədvəllər və digər məsələlər barədə ətraflı məlumat verildi.

Kompleksin böyük iclas zalında həm beynəlxalq, həm də ölkə səviyyəsində tədbirlər keçirmək mümkündür. Yeməkxana və kitabxana da ən yüksək səviyyədədir. Binanın alt qatında təqsirləndirilən şəxslərin müvəqqəti saxlanması üçün kameralar, onların vəkillərlə görüş otağı və konvoy maşını üçün yeraltı dayanacaq mövcuddur.

Kompleksdə yaradılan şərait göstərir ki, son illərdə ölkədə bütün sahələrə olduğu kimi, ədalət mühakiməsinin səmərəsinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq məhkəmə sisteminin daha da müasirləşdirilərək beynəlxalq standartlara tam uyğunlaşdırılması işləri uğurla aparılır.

Qeyd edildi ki, hazırda paytaxtın Binəqədi, eləcə də Zaqatala, İmişli və Qəbələ rayonlarında yeni müasir məhkəmə binaları inşa olunur. Azərbaycan ilə Dünya Bankının əməkdaşlığı çərçivəsində 33 məhkəməni və 18 icra qurumunu əhatə edən məhkəmə komplekslərinin və binalarının layihələri hazırlanıb. Artıq paytaxtın Yasamal, Gəncə şəhərinin Nizami, eləcə də Gədəbəy, Oğuz və Quba Rayon məhkəmələrinin yeni inzibati binaları istifadəyə verilib. Eyni zamanda, ölkəmizdə konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən Şəki və Bakının Sabunçu Məhkəmə komplekslərinin tikintisi başa çatdırılıb. Sumqayıt Məhkəmə Kompleksi, həmçinin paytaxtın Nərimanov və Suraxanı Rayon məhkəmələri üçün yeni binaların inşası isə davam etdirilir.

Dövlət başçısı Sabunçu Məhkəmə Kompleksində yaradılan şəraitdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Bakıda yeni salınan yolların, parkların, yenidən qurulan küçə və prospektlərin açılışında iştirak edib





Oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Nəriman Nərimanovun heykəli, Hüseyn Cavid və Parlament prospektləri ətrafında yeni çəkilən yolların, bu ərazidə yenidən qurulan küçə və prospektlərin, yeni salınan parkların açılışında iştirak edib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Azərbaycan Prezidentinə görülən işlər barədə məlumat verdi. Bildirildi ki, paytaxtın Həsən Seyidbəyli, Nəriman Nərimanov, Mikayıl Müşfiq, İsmayıl bəy Qutqaşınlı, Mehdi Hüseyn, Kazım Kazımzadə, Məmməd Rahim küçələrində ən yüksək səviyyədə əsaslı təmir və yenidənqurma işləri aparılıb, yeni küçə - Qurban Xəlilov küçəsi və ərazidə yeni parklar salınıb. Əsaslı təmir və yenidənqurma işləri zamanı 100 min kvadratmetrdən artıq asfalt örtüyü döşənib, qranit səki daşı düzülüb, müasir işıq dirəkləri quraşdırılıb. Yeni salınan Qurban Xəlilov küçəsində uzunluğu 610 metr, eni 17 metr olmaqla ümumi sahəsi 10 min 370 kvadratmetr olan əraziyə asfalt-beton örtüyü döşənib. Mikayıl Müşfiq küçəsində yolun hərəkət hissəsi genişləndirilərək yenidən inşa edilib. Yolun Nəriman Nərimanovun heykəlindən Parlament prospektinə qədər, Həsən Seyidbəyli küçəsindən Süleyman Tağızadə küçəsinədək olan hissələrində 35 min kvadratmetr asfalt-beton örtüyü əsaslı təmir edilib. Görülən işlər bu ərazidə nəqliyyatın sıxlığının aradan qaldırılması baxımından olduqca əhəmiyyətlidir.




Yeni salınan parklarda isə sakinlərin istirahətini mənalı təşkil etmək üçün hərtərəfli şərait yaradılıb. Burada geniş abadlıq və yaşıllıq işləri görülüb. Bu layihənin uğurla reallaşması bir daha sübut edir ki, ölkədə mövcud yolnəqliyyat infrastrukturunun yenidən qurulması, yeni yolların salınması ilə bağlı tədbirlər uğurla davam etdirilir.

Prezident İlham Əliyev yeni salınan Qurban Xəlilov küçəsinin rəmzi açılışını bildirən lenti kəsdi.

Hazırda beynəlxalq və respublika əhəmiyyətli magistral yolların salınması ilə yanaşı, paytaxt Bakının yol infrastrukturunun daha da müasirləşdirilməsi məsələsinə xüsusi diqqət yetirilir. Dövlət başçısının tapşırıqlarına əsasən Bakının mövcud avtomobil yollarının əsaslı təmiri və ya yenidən qurulması, yeni yol qovşaqlarının yaradılması ümumilikdə ölkəmizin sosial-iqtisadi inkişafına mühüm töhfələr verir. Bütün bunlar ilk növbədə vətəndaşların sosial vəziyyətinin daha da yüksəldilməsi işinə xidmət edən layihələrdir. Beləliklə, bu ərazidə yeni salınan yolların istifadəyə verilməsi, mövcud yol infrastrukturunun yenidən qurulması avtomobillərin, piyadaların hərəkətini rahat və təhlükəsiz edəcək.

***AZƏRTAC***

## "Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1081-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 noyabr tarixli 344 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması Qaydası" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2015-ci il*

## Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1081-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısı" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Müəyyən edilsin ki, hüquqi şəxs statusuna malik olan, Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən qurumlar (fondlar, mərkəzlər və digər qurumlar) "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 4-cü hissəsinə əsasən fəaliyyət sahələrinə uyğun olaraq qrant verə bilərlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2015-ci il*

## "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 720 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1081-IVQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 720 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 381; 2003, № 9, maddə 478; 2014, № 7, maddə 823) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Qrant haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin 2-ci hissəsinin birinci cümləsində və 3-cü maddəsinin 2-1-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin qanunun 2-ci maddəsinin 2-ci hissəsinin ikinci cümləsində və 5-1-ci hissəsində, 3-cü maddəsinin 2-ci hissəsinin ikinci abzasında və 4-cü maddəsinin 4-2-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin qanunun 4-cü maddəsinin 4-cü hissəsinin birinci və ikinci cümlələrində və 5-ci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini kommersiya qurumlarına münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, digər qeyri-kommersiya qurumlarına və fiziki şəxslərə münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.4. həmin qanunun 2-ci maddəsinin 5-ci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;

2.5. həmin qanunun 3-cü maddəsinin 2-ci hissəsinin üçüncü abzasında "müvafiq icra hakimiyyəti orqanları" dedikdə, mərkəzi və digər icra hakimiyyəti orqanları nəzərdə tutulur.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2015-ci il*

# Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Son illərdə Azərbaycan Respublikasının tranzit potensialının artırılması istiqamətində bir sıra irimiqyaslı layihələr həyata keçirilmişdir. Belə ki, Xəzər hövzəsində ən böyük liman olan yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı Gəmiqayırma Zavodu fəaliyyətə başlamış, Bakı-Böyük Kəsik dəmir yolunun yenidən qurulması və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası reallaşmaqdadır.

Azərbaycanda bir neçə beynəlxalq hava limanının tikintisi, yeni təyyarə və gəmilərin alınması, müasir avtomobil yolları şəbəkəsinin yaradılması ölkəmizin nəqliyyat infrastrukturunun güclənməsində mühüm rol oynamış və tranzit daşımalarda iştirak imkanlarını genişləndirmişdir.

Ölkənin nəqliyyat sektorunda icra edilən layihələrlə yanaşı, Azərbaycan Respublikasının ərazisindən keçən tranzit dəhlizlərin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, həmin dəhlizlərə əlavə tranzit yük axınlarını cəlb etmək istiqamətində bir sıra tədbirlərin görülməsi, o cümlədən yükdaşımaların keyfiyyətinin yüksəldilməsi, yüklərin çatdırılma müddətinin və nəqliyyat xərclərinin azaldılması da vacibdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasında dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması sahəsində vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi, sərhədkeçmə prosedurlarının və daşıma proseslərinin asanlaşdırılması, habelə bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında əlaqələndirmə işlərinin təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılsın.

2. "Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. "Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının tərkibi" təsdiq edilsin (əlavə olunur).

4. Azərbaycan Respublikasının ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipi tətbiq olunsun.

5. Azərbaycan Respublikasının ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiqi üzrə vahid dövlət orqanının səlahiyyətlərinin həyata keçirilməsi Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasına həvalə edilsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi:

7.1. dəmir yolları və dəniz nəqliyyatı ilə tranzit yükdaşıma xidmətlərinin, habelə tranzit yüklərlə bağlı liman qurğularının istismarı, yükaşırma və dəniz limanında göstərilən digər xidmətlərin tariflərinin və həmin tariflər üzrə güzəştlərin müəyyən edilməsi qaydasını iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası ilə birlikdə ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yükdaşımalarla bağlı özündə yükdaşımaların vahid tariflərini, sərhədkeçmə prosedurlarını, yükdaşımalar üzrə daşıma qaydalarını və şərtlərini, o cümlədən müqavilələrin şərtlərini və bağlanma qaydasını, Azərbaycan Respublikasının dövlət sərhədindən keçmə zamanı inzibati prosedurlara dair elektron müraciətlərin qəbulu və yüklərin daşınması sahəsində müqavilələrin elektron üsullarla bağlanması imkanlarını, yüklərin izlənməsi və daşıma prosesləri ilə əlaqədar digər məsələləri əks etdirən elektron portalın yaradılmasını təmin etsin.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

9. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının cari fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyi tərəfindən həyata keçirilir.

10. Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası Azərbaycan Respublikasında dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması sahəsində görülən işlər barədə Azərbaycan Respublikasının Prezidentinə ildə iki dəfə məlumat təqdim olunmasını təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2015-ci il*

# Azərbaycan Respublikası Hökuməti ilə Kanada Hökuməti arasında diplomatik missiyalar və konsulluq nümayəndəlikləri əməkdaşlarının ailə üzvlərinin əmək fəaliyyəti haqqında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Kanadanın Xarici İşlər və Beynəlxalq Ticarət Departamenti arasında notalar mübadiləsi formasında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Hökuməti ilə Kanada Hökuməti arasında diplomatik missiyalar və konsulluq nümayəndəlikləri əməkdaşlarının ailə üzvlərinin əmək fəaliyyəti haqqında Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Kanadanın Xarici İşlər və Beynəlxalq Ticarət Departamenti arasında 2013-cü il yanvarın 7-də və 2015-ci il aprelin 9-da həyata keçirilmiş notalar mübadiləsi formasında Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2015-ci i*

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda həmkarlar hərəkatının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Allahverdiyev Səməd Oysar oğlu
Bağırov Fəzail Ağamməd oğlu
Əliyev Cahangir Kərim oğlu
Əliyev İlyas Alxas oğlu
Quliyev Tofiq Rəhman oğlu
Nağıyev Hümbət Həsən oğlu
Osmanov Hikmət Saleh oğlu
Yusifov Bəkir Aslan oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasova Leyla Rüstəm qızı
Ağasiyev Əbil Riza Qulu oğlu
Ağayev İslam Aslan oğlu
Alıyev Elxan Azad oğlu
Alıyev İsa Hüseyn oğlu
Allahverdova Səadət Yusif qızı
Babayev Nazim Ağasəlim oğlu
Babayeva Rahilə Xudaverdi qızı
Bağırov Arif Cavad oğlu
Bağırova Bəyimxanım Paşa qızı
Bayramov Fazil Qurban oğlu
Cabarova Elmira Bəhlul qızı
Cəbiyev Həsənağa Mürsəl oğlu
Cəfərov Həsən Şahhüseyn oğlu
Cəfərova Asudə Həsən qızı
Cəfərzadə Mirzə Həkiməli oğlu
Çıraqmuğani Rəhman Mehtiqulu oğlu
Dadaşova Fərqanə Salam qızı
Dadaşova Rəna Cəfər qızı
Əfəndiyeva Həlimə Seyfulla qızı
Əhmədov Şirməmməd Gülməmməd oğlu
Ələkbərov Əbuzər İbrahim oğlu
Əliyev Ehtibar Əli oğlu
Əliyev Ənvər Əsgər oğlu
Əliyev Fəxrəddin Məhəmməd oğlu
Əliyev Nadir Lətif oğlu
Əliyev Təhmasif Qaçay oğlu
Əliyeva Esmira Frunze qızı
Əsədov Səxavət Əsgər oğlu
Əskərova Fatma Ağagül qızı
Əzimov Telman Gözəl oğlu
Fərmanov Cavid Əliheydər oğlu
Hümbətov Əli İmran oğlu
Hüseynov Aydın Çingiz oğlu
Hüseynov Əli Ənvər oğlu
Hüseynov İlqar Böyükağa oğlu
Hüseynov Oktay Həsrət oğlu
Hüseynov Teymur Savalan oğlu
Hüseynova Sevda Müfti qızı
Hüseynova Sevinc Yusif qızı
Xalıqov Həşim Xalıq oğlu
İbadova Tamilla Bəhrəm qızı
İldarov Rafiq Əli Bağır oğlu
İsmayılov Calal Bəxtiyar oğlu
İsmayılov İsmayıl Bayram oğlu
İsmayılov Mehman Heydər oğlu
Kazımov Hidayət Əzim oğlu
Qafarov Əkbər İldırım oğlu
Qasımov Tərlan Kamil oğlu
Qasımova Elza Allahverdiyevna
Qəribov Qalib Ataş oğlu
Lətifov Məzahir Şamil oğlu
Mehbaliyeva Şəhla Mirzə qızı
Mehrabov Mürvət Alı oğlu
Məhərrəmov Etibar Ramazan oğlu
Məlikov Rəfail Feyruz oğlu
Məlikova Turac Bəkir qızı
Məmmədov Fərmail Rəsul oğlu
Məmmədov Vüsal Ramiz oğlu
Məmmədova Məhsəti Rafiq qızı
Məmmədova Rəna Bədir qızı
Mərdanov Arif Fərman oğlu
Müfid-zadə Röfət Həmid oğlu
Nəsibov Xəyyam Davud oğlu
Nəsirov Tofiq Ağa oğlu
Orucov Nurəddin Möhyəddin oğlu
Orucova Zöhrə Xanəhməd qızı
Ömərov Vaqif Xıdır oğlu
Rəhimov Səməndər Hacıbaba oğlu
Rüstəmov Emil Əli oğlu
Rüstəmov Şahmərdan Səhralı oğlu
Sədrəddinov Ramiz Niyazi oğlu
Səfərova Svetlana Abdulxeyir qızı
Səlimova Adilə İslam qızı
Səttarova Cəmilə Məmmədağa qızı
Sultanov Eldar Məmməd oğlu
Şamilova Əzizə Ağaəli qızı
Şirinov Əlimirzə İsrəfil oğlu
Teymurlu Kazım Vəli oğlu
Yusifova Nəzakət Əjdər qızı
Zakirov Elxan İsbəndiyar oğlu
Zamanov Zaman Məhərrəm oğlu
Zeynalov Nizami Hüseyn oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2015-ci il*

# M.Q.Quliyevə general-leytenant ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin birinci müavini Mədət Qəzənfər oğlu Quliyevə general-leytenant ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2015-ci il*

# Birləşmiş Millətlər Təşkilatının əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Birləşmiş Millətlər Təşkilatının yaradılmasının 70 illik yubileyi münasibətilə, BMT-nin Azərbaycanda müxtəlif sahələrdə layihələrinin həyata keçirilməsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Antonius Broek
Əfəndiyev Məzahir Cavid oğlu
Əliyev Mahir Kamal oğlu
İbrahimova Cəmilə Aydın qızı

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2015-ci il*

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası əməkdaşlarına fəxri adların verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının sosial-ictimai və mədəni həyatında göstərdikləri xidmətlərə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar həkim"**

Ağarzayeva Rima Mehdi qızı
Əliyev Xanlar Əsgər oğlu

**"Əməkdar müəllim"**

Əhmədov Natiq Əhməd oğlu
Hüseynov Səbuhi Şulan oğlu
Qaraşov Hüseyn Tapdıq oğlu

**"Əməkdar jurnalist"**

Dadaşov Aqil İsax oğlu

**"Əməkdar bədən tərbiyəsi və idman xadimi"**

Əliyev Rasim Həmid oğlu
İbrahimov Ceyhun Əliqulu oğlu

**"Əməkdar mədəniyyət işçisi"**

Alxasov Cavanşir Ağasəlim oğlu
Eyvazov Vaqif İliç oğlu
Əliyev Əlverdi Kərəmət oğlu
Mehtiyev Əbülfəz Balaxan oğlu
Məmmədov Akif Musa oğlu
Məmmədov Rəhman Nazim oğlu
Muradov Cahangir Əlisahib oğlu
Rzayev İmran Sədulla oğlu
Şirəliyev Mahir Kərim oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2015-ci il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 324** **QƏRAR** **Bakı şəhəri, 13 oktyabr 2015-ci il**

### "Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi barədə

"Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 13 fevral tarixli 1196-IVQD nömrəli qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 aprel tarixli 500 nömrəli fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərara edilmiş əlavənin tam mətni ilə www.azerbaijan-news.az və cabmin.gov.az saytlarında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 326** **QƏRAR** **Bakı şəhəri, 13 oktyabr 2015-ci il**

### "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən tikinti işlərinin dayandırılması haqqında Qaydalar"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 4 oktyabr tarixli 154 nömrəli qərarının ləğv edilməsi haqqında

"Tikinti işlərinin dayandırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 533 nömrəli fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən tikinti işlərinin dayandırılması haqqında Qaydalar"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 4 oktyabr tarixli 154 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 1014; 2008, № 1, maddə 39) ləğv edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 327** **QƏRAR** **Bakı şəhəri, 13 oktyabr 2015-ci il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 2 oktyabr tarixli 285 nömrəli qərarı ilə təsdiq edilmiş "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun xüsusi rejimi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

"Tikinti işlərinin dayandırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 533 nömrəli fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 2 oktyabr tarixli 285 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1206) ilə təsdiq edilmiş "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun xüsusi rejimi haqqında Əsasnamə"nin 2.16-cı bəndində aşağıdakı dəyişikliklər edilsin:

1. Birinci cümlədə "və Azərbaycan Milli Elmlər Akademiyasına" sözləri ", Azərbaycan Milli Elmlər Akademiyasına və yerli icra hakimiyyəti orqanına" sözləri ilə əvəz edilsin.

2. İkinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Bu zaman tikinti işlərinin davam etdirilməsi barədə qərar Azərbaycan Milli Elmlər Akademiyasının və mütəxəssislərin rəyi əsasında, idarənin razılığı ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən qəbul edilir.".

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 328** **QƏRAR** **Bakı şəhəri, 13 oktyabr 2015-ci il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 22 sentyabr tarixli 150 nömrəli qərarı ilə təsdiq edilmiş "İçərişəhər"Dövlət Tarix Memarlıq Qoruğunun mühafizə (bufer) zonasının xüsusi hüquqi rejimi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

"Tikinti işlərinin dayandırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 533 nömrəli fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 22 sentyabr tarixli 150 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 860) ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğunun mühafizə (bufer) zonasının xüsusi hüquqi rejimi haqqında Əsasnamə"nin 4.9-cu bəndinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu zaman tikinti işlərinin davam etdirilməsi barədə qərar Azərbaycan Milli Elmlər Akademiyasının və mütəxəssislərin rəyi əsasında, Nazirliyin razılığı ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən qəbul edilir.".

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 329 **QƏRAR** Bakı şəhəri, 14 oktyabr 2015-ci il

# "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması Qaydaları"nın təsdiq edilməsi və "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 mart tarixli 58 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 1160 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın 1.3-cü bəndinin icrası ilə əlaqədar "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılması, istifadəçilərin kənd təsərrüfatı texnikalarına və texnoloji avadanlıqlara olan tələbatının vaxtında ödənilməsi, habelə dövriyyə vəsaitlərinin hərəkətini sürətləndirməklə yeni texnikaların və texnoloji avadanlıqların alınması üçün cəmiyyətin daxili imkanlarının artırılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 mart tarixli 58 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 263; 2007, № 2, maddə 192; 2010, № 3, maddə 257, № 8, maddə 755, № 12, maddə 1128) ilə təsdiq edilmiş "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissənin ikinci abzasının birinci cümləsindən "dəyərinin ən geci 10 ilə ödənilməsi şərtilə" sözləri çıxarılsın.

2. 3-cü hissənin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"İstifadəçi "Aqrolizinq" ASC-yə məxsus texnikanı və texnoloji avadanlıqları sığorta haqqı da daxil olmaqla, lizinq yolu ilə satın aldıqda onların dəyərinin 10 faizdən az olmayan hissəsini əvvəlcədən, qalan hissəsini isə 10 ildən gec olmayaraq ödəyir.".

3. 6-cı hissədə "Texnika" sözü "Aqrolizinq" ASC-nin xətti ilə alınan texnika" sözləri ilə və "Aqrolizinq" ASC" sözləri "həmin Cəmiyyət" sözləri ilə əvəz edilsin.

4. Aşağıdakı məzmunda 9-cu və 10-cu hissələr əlavə edilsin:

"9. Ləğv edilmiş lizinq müqaviləsi üzrə istifadə edilmiş texnika və texnoloji avadanlıqlar yenidən lizinqə verilərkən və ya lizinq yolu ilə satılarkən, əvvəlki istifadəçi ilə bağlanılmış lizinq müqaviləsinin şərtlərinə əsasən həyata keçirilən ödənişlər nəzərə alınmaqla, həmin texnika və texnoloji avadanlıqların yeni istifadəçisinin ödəyəcəyi ilkin ödənişin məbləği və lizinqin müddəti Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırılmaqla, "Aqrolizinq" ASC-nin nəzdində bu məqsədlə daimi fəaliyyət göstərən komissiya tərəfindən müəyyən edilir.

10. Əvvəllər lizinqə verilməmiş və "Aqrolizinq" ASC-nin aqroservis filialları tərəfindən istifadə edilmiş texnika və texnoloji avadanlıqlar lizinqə verilərkən və ya lizinq yolu ilə satılarkən, amortizasiya normaları nəzərə alınmaqla ilkin ödənişin məbləği və lizinqin müddəti Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən müəyyən edilir.".

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 330 **QƏRAR** Bakı şəhəri, 14 oktyabr 2015-ci il

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 20 may tarixli 81 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"da dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 667 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının 13.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 20 may tarixli 81 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 453; 2014, № 6, maddə 747) ilə təsdiq edilmiş "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"ın "4. Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planı" bölməsində aşağıdakı dəyişikliklər edilsin:

1.4.1-ci bəndə aşağıdakı məzmunda 4.1.7-ci və 4.1.8-ci yarımbəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4.1.7. | İnsan alverinə məruz qalmaq ehtimalı olan əməkçi miqrantların sosial müdafiə tədbirləri ilə əhatə olunma imkanlarının asanlaşdırılması və genişləndirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Miqrasiya Xidməti | mütəmadi |
| 4.1.8. | Qanunsuz miqrantlar arasında insan alveri qurbanlarının aşkarlanması prosesinin təkmilləşdirilməsi məqsədi ilə miqrasiya, sərhəd, gömrük orqanları tərəfindən əməkdaşları üçün insan alverinə qarşı mübarizəyə və qurbanların hüquqlarına dair təlimlərin keçirilməsi | Dövlət Miqrasiya Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi | mütəmadi |

2. 4.1.2-ci yarımbənddə "2011-2013" rəqəmləri və 4.2.3-cü yarımbənddə "2011-2012" rəqəmləri "2015-2018" rəqəmləri ilə, 4.1.4-cü yarımbənddə "2011-2012" rəqəmləri "2016" rəqəmi ilə, 4.1.5-ci yarımbənddə "2011" rəqəmi "2016-2017" rəqəmləri ilə, 4.1.4-cü yarımbənddə isə "İcraçı orqanlar" sütununda "İnformasiya Texnologiyaları" sözləri "Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin.

3. 4.1.6-cı yarımbəndə "problemlərin" sözündən sonra "müəyyən edilməsi və" sözləri əlavə edilsin.

4. 4.2.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4.2.2. | İnsan alverinə şərait yaradan sosial problemlərin təhlil edilməsi və aradan qaldırılmasına dair təkliflərin hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2015-2018 |

5. 4.2.4-cü yarımbəndə "verilməsi" sözündən sonra ", günərzi qayğı mərkəzlərinə" sözləri əlavə edilsin.

6. 4.2.6-cı yarımbəndə "üçün" sözündən sonra "qabaqcıl beynəlxalq təcrübəyə əsasən" sözləri əlavə edilsin.

7. 4.3.1-ci yarımbəndə "istəyən" sözündən sonra ", eləcə də ilk dəfə işaxtaran" sözləri əlavə edilsin və həmin yarımbənddə "2011-2013" rəqəmləri "2015-2018" rəqəmləri ilə əvəz edilsin.

8. 4.4.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4.4.5. | Əmək miqrasiyası sahəsində Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyətinə xüsusi razılıq (lisenziya) almış hüquqi şəxslərin siyahısının dərc edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Miqrasiya Xidməti | mütəmadi |

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 331 **QƏRAR** Bakı şəhəri, 20 oktyabr 2015-ci il

# "Dövlət sirri təşkil edən məlumatlarla işləməyi istisna edən xəstəliklərin Siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 161 nömrəli qərarında dəyişiklik edilməsi barədə

"Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 984-IVQD nömrəli qanununun tətbiqi və "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 139 nömrəli fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 217 nömrəli fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət sirri təşkil edən məlumatlarla işləməyi istisna edən xəstəliklərin Siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 161 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 644; 2005, № 2, maddə 122) preambulasında "23.1.2-ci maddəsinə" sözləri "23.1.4-cü maddəsinə" sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 333 **QƏRAR** Bakı şəhəri, 20 oktyabr 2015-ci il

# "Azərbaycan Respublikasının Silahlı Qüvvələri və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələr üçün vətəndaşların xüsusi hərbi ixtisaslar üzrə hazırlığının təşkil edilməsi və keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli fərmanının 4.1-1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Silahlı Qüvvələri və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələr üçün vətəndaşların xüsusi hərbi ixtisaslar üzrə hazırlığının təşkil edilməsi və keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərara edilmiş əlavənin tam mətni ilə www.azerbaijan-news.az və cabmin.gov.az saytlarında tanış ola bilərsiniz.*

# Hərbi Hava Qüvvələrinin aviabazasında yeni yaşayış binasının açılışı olub





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi qulluqçuların mənzil və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması ilə əlaqədar müvafiq göstərişinə əsasən, oktyabrın 21-də Hərbi Hava Qüvvələrinin aviabazasında yeni inşa edilən yaşayış binasının açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, xidməti mənzillərin açarlarının təqdimetmə mərasimində hərbi qulluqçular və onların ailə üzvləri ilə görüşən nazir general-polkovnik Zakir Həsənov nazirliyin rəhbərliyi adından tədbir iştirakçılarını təbrik edərək deyib: "İlin sonunadək yalnız Bakı qarnizonunda 500-dən artıq yeni xidməti mənzilin istifadəyə verilməsini planlaşdırırıq. Hərbi Hava Qüvvələrinin digər aviabazalarında hazırda 3 yaşayış binasının tikintisi davam etdirilir. Bu ilin sonunadək biz 10-dək yeni hərbi hissənin açılışında iştirak edəcəyik. Görülən işlərin hamısı Prezident İlham Əliyevin Silahlı Qüvvələrə göstərdiyi qayğının bariz nümunəsidir.

Ali Baş Komandan Silahlı Qüvvələrin bütün infrastrukturunun yenilənməsi ilə bağlı qarşımıza tapşırıq qoyub. Bu müddətdə biz xeyli işlər görüb, problemlərin əksər hissəsini həll etmişik. Ərazidə qərargah, əsgər yataqxanaları, yeməkxanalar, bu gün isə yeni yaşayış binası sizin istifadənizə verilir. Hərbi qulluqçular üçün ailəsinin rahatlığı onun xidmətinə çox müsbət təsir göstərir.

Hazırda dünyada baş verən maliyyə böhranına baxmayaraq, Azərbaycan gələn il üçün hərbi xərclərini yenə də artırdı. Silahlı Qüvvələrin möhkəmləndirilməsi Ali Baş Komandan, Azərbaycan dövləti və xalqı tərəfindən önəm verilən məsələlərdən ən əsasıdır. Bu, hərbi xidmətinizin yüksək səviyyədə təşkil olunması üçün sizə yaradılan şəraitdir.

Orduya göstərilən bu diqqət ölkədəki sabitlikdən, iqtisadi inkişafdan və Ali Baş Komandanın qayğısından irəli gəlir. Əsas problemimiz torpaqlarımızın işğal altında qalmasıdır. Bu problem Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələr tərəfindən həll olunacaq.

Qısa müddətdə Ermənistan tərəfinə güclü zərbə vurmuşuq və qarşı tərəf panikadadır. Torpaqlarımızın azadlığı uğrunda düşmənə vurulacaq zərbədə əsas rolu, o cümlədən Hərbi Hava Qüvvələri yerinə yetirəcək və siz Azərbaycan xalqının, Prezidentin etimadını doğruldacaqsınız.

Tikintidə əməyi keçən hər kəsə öz adımdan və bütün zabitlər adından minnətdarlığımı bildirirəm. Bir daha Sizi təbrik edir, bu mənzillərdə ailənizlə bir yerdə xoşbəxt həyat və yeni nailiyyətlər arzulayıram".

Yaşayış binası ilə tanışlıq zamanı məlumat verilib ki, beşmərtəbəli, 50 mənzilli bina üçotaqlı mənzillərdən ibarətdir. Burada su, qaz, elektrik, telefon, rəqəmsal televiziya xətləri çəkilib və mərkəzləşdirilmiş istilik sistemi quraşdırılıb. Müasir standartlara cavab verən tam təmirli mənzillər yataq, qonaq, mətbəx mebelləri və digər lazımi avadanlıqla təchiz olunub.

Binanın həyətində abadlıq və yaşıllaşdırma işləri görülüb, böyüklərin və uşaqların səmərəli istirahəti üçün lazımi şərait yaradılıb. Ərazidə yarımstansiya, hər birinin tutumu 150 kubmetr olan iki su anbarı tikilib. Yaşayış binasının ətrafı asfaltlanıb, kanalizasiya sistemi quraşdırılıb və ərazi hasarlanıb.

Mərasim iştirakçıları yaradılan şəraitdən məmnunluqlarını bildirərək göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlıq ediblər.

Yeni mənzillərin açarları hərbi qulluqçulara təqdim edildikdən sonra müdafiə naziri general-polkovnik Z.Həsənov yaradılan şəraitlə tanış olub, ailələrin qayğıları ilə maraqlanıb və çay süfrəsi arxasında onlarla söhbət edib.

# *MTN-nin ictimai əlaqələr idarəsi:*
# Yalan, böhtan və təhqir xarakterli informasiyaların yayılması yolverilməzdir

Milli Təhlükəsizlik Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə və yol verilmiş digər qanun pozuntuları faktları üzrə Baş Prokurorluqda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, Milli Təhlükəsizlik Nazirliyinin 7 vəzifəli şəxsi Cinayət Məcəlləsinin 308.2-ci, 309.1-ci və 302.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunublar.

Milli Təhlükəsizlik Nazirliyinin ictimai əlaqələr idarəsindən AZƏRTAC-a bildiriblər ki, lakin son vaxtlar bir sıra dövri mətbuat və elektron informasiya vasitələrində intensiv surətdə yoxlanılmamış və həqiqətə uyğun olmayan, şayiə xarakterli məlumatlar verilir. Həmin şayiələrdə guya, Milli Təhlükəsizlik Nazirliyinin yüksək rütbəli və vəzifəli əməkdaşlarının "həbs olunması", habelə onların xidmətlə bağlı olmayan fəaliyyətləri barədə məlumatlar yayılır. Qeyd olunmalıdır ki, bu cür yalan, böhtan və təhqir xarakterli informasiyaların yayılması yolverilməzdir.

Milli Təhlükəsizlik Nazirliyi ölkədə sabitliyin və təhlükəsizliyin etibarlı təmin olunması üzrə fəaliyyətini əzmlə davam etdirir, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bütün əmr və göstərişləri dərhal və vicdanla yerinə yetirilir.

# Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda kiçik və orta sahibkarlığı dəstəkləyəcək

Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) arasında əlaqələr iqtisadiyyat və sənaye naziri Şahin Mustafayevin Azərbaycanda səfərdə olan AYİB-in birinci vitse-prezidenti Fil Bennett ilə görüşündə müzakirə olunub.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Şahin Mustafayev Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, ölkəmizdə həyata keçirilməkdə olan iri layihələr, sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması sahəsində görülən işlər barədə məlumat verib. Azərbaycanın beynəlxalq maliyyə institutları ilə uğurla əməkdaşlıq etdiyini qeyd edən Şahin Mustafayev ölkəmizlə AYİB arasındakı səmərəli əməkdaşlığın çoxşaxəli olduğunu, infrastruktur, enerji, banklara kredit xəttinin açılması və s. kimi sahələri əhatə etdiyini vurğulayıb. AYİB-lə əməkdaşlığın genişləndirilməsi istiqamətlərinə toxunan nazir Şahin Mustafayev korporativ idarəetmə, kənd təsərrüfatı üzrə kiçik və orta sahibkarlığa dəstək, göllərin təmizlənməsi və s. sahələrdə əməkdaşlığa dair fikirlərini bölüşüb. Qeyd olunub ki, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafı iqtisadiyyatın prioritet istiqamətlərindəndir. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq çərçivəsində bu sahədə bir sıra işlər görülür. Dövlət başçısının sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasına, lisenziyaların sayının kəskin azaldılması və prosedurların sadələşdirilməsinə dair qərarları bu sahənin inkişafına öz müsbət töhfəsini verəcəkdir. AYİB-in kiçik və orta sahibkarlığın inkişafına maliyyə dəstəyi göstərməsi məqsədəuyğundur.

Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Fil Bennett AYİB ilə Azərbaycan arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini, ölkə iqtisadiyyatının müxtəlif sahələrində bir sıra layihələrin icrasına maliyyə dəstəyi göstərildiyini qeyd edib. F.Bennett korporativ idarəetmənin genişləndirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi, ətraf mühitin mühafizəsi və s. sahələri əməkdaşlıq üçün əsas sahələr kimi diqqətə çatdırıb.

Görüşdə həmçinin, Azərbaycan və AYİB arasında əlaqələrin genişləndirilməsi perspektivlərinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Ümummilli etimad ünvanı

## *Fransanın "OpinionWay" araşdırma şirkətinin Azərbaycanda keçirdiyi ictimai rəy sorğusunun nəticələri vətəndaşların Prezident İlham Əliyevə yüksək inamını bir daha nümayiş etdirdi*

Hər ötən ili müsbət makroiqtisadi göstəricilərlə başa vuran Azərbaycan son illər özünün liberal prinsiplərə əsaslanmış inkişaf modelini formalaşdırmaqla yanaşı, həm də beynəlxalq imicini, geoiqtisadi və geosiyasi rolunu artıraraq regionun lider dövlətinə və qlobal miqyasda söz sahibinə çevrilib. Bütün bu uğurlar dünya ictimaiyyətinin qəbul etdiyi gerçəklikdir. Bu gerçəkliyin əsası isə vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən qoyulub, istiqamətləri müəyyən edilib. Ümummilli liderin müəyyən etdiyi inkişaf strategiyasının Prezident İlham Əliyevin əzmkarlığı, qətiyyəti, xarizması, yüksək siyasi və liderlik kefiyyətləri ilə həyata vəsiqə alması bugünkü nailiyyətlərimizi təmin etməkdədir.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş, təmkinli, lakin olduqca çevik və qətiyyətli, uzaqgörən siyasət nəticəsində ölkəmiz mühüm siyasi-iqtisadi və sosial uğurlara nail olub. Azərbaycan hələ 2009-cu ildə keçid dövrünü uğurla başa vurub və hazırda yeni dövrün tələblərinə cavab verən inkişafın keyfiyyətcə yeni mərhələsindədir. Bu gün respublikamız siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınır.

Diqqəti çəkən mühüm məqamlardan biri də ondan ibarətdir ki, bir çox ölkələr siyasi-iqtisadi böhran problemləri ilə üzləşdiyi bir vaxtda, Azərbaycan dayanıqlı inkişafa yönəlmiş yeni strateji vəzifələrini uğurla həyata keçirir. Bu mənada xüsusilə qeyd etməliyik ki, bir neçə il öncə yüksək inkişaf sürəti götürmüş iqtisadiyyatımız son illər yaşanan qlobal iqtisadi və maliyyə böhranı şəraitində də inkişaf edib. Digər bir mühüm məsələ isə ondan ibarətdir ki, neft qiymətlərinin aşağı düşməsinə, gəlirlərin azalmasına baxmayaraq həyata keçirilən inkişaf strategiyası və düşünülmüş sosial-iqtisadi siyasət nəticəsində iqtisadi artımın sosial rifaha transformasiyası əvvəlki templə baş verməkdədir.

Prezident İlham Əliyev ölkəmizin inkişafına və təhlükəsizliyinə nail olmaqla yanaşı, dünya birliyində onun mövqelərini davamlı şəkildə gücləndirib. Dövlət başçısının düşünülmüş, məqsədyönlü fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxarıb. Bu siyasət həm də Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini, kosmik klubun üzvünə və beynəlxalq tədbirlərin məkanına çevrilməsini təmin edib. Odur ki, fəaliyyəti ilə ölkə cəmiyyətindən daim dəstək alan, müasir qloballaşma dövründə istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev ulu öndərin layiqli davamçısı olaraq beynəlxalq miqyasda da ölkəmizin yeganə və alternativsiz lideri kimi qəbul edilir.

Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev deyib: *"Bu il Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Bu, özlüyündə böyük göstəricidir. Çünki dünyada və bölgədə gedən proseslər göz qabağındadır. Həm bölgədə, həm Avropada böhran yaşanır, iqtisadi, hərbi, siyasi böhran. Belə şəraitdə iqtisadi inkişafa nail olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Bunun bir səbəbi var. O da ondan ibarətdir ki, Azərbaycanda düşünülmüş, müstəqil siyasət aparılır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq. Azərbaycanda sabitlik təmin edilir. Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün xalq bir amal uğrunda birləşib - Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək"*.

Ölkəmizdə əldə edilən hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını daha da artırıb, milli həmrəyliyi sıx edib. Təsadüfi deyil ki, ötən hər prezident seçkisi seçicilərin mütləq əksəriyyətinin səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Bu dəstək Azərbaycan cəmiyyətinin mövcud siyasi kursa inam və rəğbətinin əyani təcəssümü olmaqla mütləq əksəriyyətin istək və arzusunu özündə əks etdirib. Bütün parlament seçkilərində isə Yeni Azərbaycan Partiyasının namizədləri üstünlük qazanıb.

Respublikamızda əldə olunan uğurlar beynəlxalq təşkilatların hesabatlarında, o cümlədən yerli və xarici sosioloji mərkəzlər tərəfindən vaxtaşırı keçirilən rəy sorğularında da öz əksini tapıb. Hər bir sorğunun nəticəsi vətəndaşların Prezident İlham Əliyevə olan etimadının növbəti təsdiqi olub. Fransanın "Opinionway" araşdırma şirkətinin Milli Məclisə seçkilər ərəfəsində Azərbaycanda keçirdiyi ictimai rəy sorğusunun nəticələri də deyilənləri sübut edir. Belə ki, "Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti Sizi nə dərəcədə qane edir" sualını respondentlərin 78,8 faizi "çox qane edir" - deyə cavablandırıb. "Milli Məclisə keçiriləcək seçkilərdə hansı siyasi qüvvənin namizədini dəstəkləmək fikrindəsiniz" sualına isə rəyi soruşulanların 71,7 faizi iqtidar partiyasının və iqtidaryönümlü partiyaların namizədlərini, 16,4 faizi bitərəf namizədləri dəstəkləyəciyini deyib, 5,9 faizi isə cavab verməkdə çətinlik çəkib.

Respondentlərin 63 faizi noyabrın 1-də keçiriləcək parlament seçkilərində mütləq iştirak edəcəyini, 12 faizi ola bilsin iştirak edəcəyini, 7,7 faizi ola bilsin iştirak etməyəcəyini, 9 faizi iştirak etməyəcəyini bildirib, 8,3 faizi isə bu barədə hələ qərar vermədiyini deyib. Sorğunun nəticələrinə görə, ölkədə seçkilərə hazırlıq kampaniyası respondentlərin 76,5 faizi üçün maraqlıdır. Rəyi soruşulanların 66,5 faizi isə hazırda Azərbaycanın ən vacib probleminin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olduğunu bildirib.

Ölkənin səsvermə hüququ olan 1200 vətəndaş arasında aparılan sorğunun nəticələrinə görə, respondentlərin 71,4 faizi Azərbaycanda milli təhlükəsizliyin təmin olunmasından, 71,2 faizi korrupsiya ilə, 68,4 faizi cinayətkarlıqla mübarizədən, 69,8 faizi insan hüquqlarının vəziyyətindən çox razı qaldığını deyib.

Xatırladaq ki, Amerikanın nüfuzlu "Arthur J. Finkelstein & Associates" ictimai rəyin öyrənilməsi beynəlxalq mərkəzinin Azərbaycan əhalisi arasında qarşıdan gələn parlament seçkiləri ilə bağlı sentyabrın 28-dən oktyabrın 9-dək 1000 respondent arasında keçirdiyi sorğunun nəticələri də Prezident İlham Əliyevin fəaliyyətinin ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirildiyini təsdiq etmişdi. Həmin sorğunun nəticələrinə əsasən, seçicilərin 80 faizi hesab edib ki, Azərbaycan hazırkı hakimiyyət orqanlarının rəhbərliyi altında düzgün istiqamətdə irəliləyir. Sorğu iştirakçılarının 82,1 faizi Prezident İlham Əliyevin indiki işini necə dəyərləndirdikləri barədə suala "yaxşı" və "əla" cavablarını veriblər. Həmçinin sorğunun nəticəsinə görə, seçicilərin 74,4 faizi öz seçimini müəyyən edərək Yeni Azərbaycan Partiyasının namizədlərini üstün tuturlar.

Sorğuda geosiyasi məsələlərlə bağlı suallar da olub. Bununla bağlı respondentlərin 81,7 faizi qeyd edib ki, Azərbaycan regionda "sabitlik adasıdır", bir çox ölkələr bu regionda qeyri-sabit durumdadır. Respondentlərin 71 faizi Avropada baş verən hadisələri nəzərə alaraq, ölkəmizin rəhbərliyinin Azərbaycanda immiqrasiya böhranının yayılmasının qarşısını almağa hazır və iqtidarı olduğunu vurğulayıb. Rəyi soruşulan vətəndaşların 80 faizindən çoxu, həmçinin qeyd edib ki, Qərb tərəfdaşları ilə təhlükəsizlik sahəsində əməkdaşlıq edən Azərbaycan rəhbərliyi ölkəmizi terrorizmdən uğurla müdafiə edir.

İndiyədək keçirilmiş bütün yerli və xarici rəy sorğularının nəticələri Prezident İlham Əliyevin yüksək reytinqini dəfələrlə sübuta yetirib. Bunun da əsas səbəbi cənab Prezidentin fəaliyyəti və bu fəaliyyətin xalq tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanmasıdır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Sahibkarlara növbəti dövlət dəstəyi tezliklə öz bəhrəsini verəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirmişdir ki, sahibkarlar qarşısında əsassız tələblər qoyulmamalıdır. Yəni, onlardan heç bir haqq tələb edilməməlidir. Belə olan halda dövlət büdcəsi daha da böyüyəcək, qeyri-neft sektorunun hesabına təmin ediləcək. Dövlət başçısı vurğulamışdır ki, mövcud vergidən azadolmalar və güzəştlər sisteminə yenidən baxılmalıdır. Bu proses lisenziyaların sayının minimuma endirilməsini, lisenziya verilməsi qaydalarının sadələşdirilməsini və şəffaflığın təmin edilməsini də əhatə etməlidir.

Oktyabrın 19-da isə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsi göndərilib. Milli Məclisin son iclasında "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb. Qanun layihəsi barədə məlumat verən parlamentin İqtisadi siyasət komitəsinin sədri **Ziyad Səmədzadə** bildirib ki, dövlət başçısı tərəfindən Milli Məclisə göndərilən sənəd ölkə iqtisadiyyatının inkişafını sürətləndirmək, qlobal miqyasda daha böyük uğurlar əldə etmək üçün böyük əhəmiyyət kəsb edir. Qanun layihəsinə əsasən 2015-ci il noyabrın 1-dən etibarən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılır. Qanun layihəsi səsə qoyularaq qəbul edilmişdir.

Azərbaycan Prezidentinin bu addımı ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib və bu gün də müzakirə mövzusudur. Məsələyə münasibət bildirən ekspertlər, iqtisadçılar bildirirlər ki, dövlət başçısının növbəti humanist addımı sahibkarlığın daha da inkişafına zəmin yaradacaqdır.

Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü **Vahid Əhmədov** dövlət başçısının sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan fərmanını "inqilabi fərman" adlandırır. Onun fikrincə, bu qərar ölkə iqtisadiyyatının inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir.

Deputat deyir ki, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar çox ciddi məsələlər Milli Məclisdə də müzakirə edilib: "Dövlət başçısı hökumətin 9 ayın yekunlarına həsr olunmuş iclasında da bu məsələlərə toxunub və bir sıra iradlarını bildirib. Ona görə də biz belə bir fərmanın verilməsini gözləyirdik. Milli Məclisdə sahibkarlıq fəaliyyətinin yoxlanması ilə əlaqədar qanun layihəsi qəbul edilmişdi. Amma qanuna müdaxilə həddən artıq çox idi. Artıq Prezident İlham Əliyevin imzaladığı fərman və parlamentdə qəbul olunan qanun layihəsi bu sahədəki boşluqları, müdaxilələri aradan qaldıracaq".

Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, deputat **Əli Məsimli** qəzetimizə açıqlamasında bildirdi ki, Azərbaycan Prezidentinin bu fərmanı hazırkı dövrün nəbzini tam tutmaqla irəliyə doğru atılan inqilabi addım kimi qiymətləndirilir: "Diqqətlə araşdırsaq görərik ki, postsovet məkanında belə cəsarətli addım atılmayıb. Bu, bilavasitə Azərbaycan Prezidentinin sahibkarlığı sözdə yox, həm də işdə də dəstəkləməsinin bariz nümunəsidir. Digər tərəfdən isə bu, praqmatik bir yanaşmadır".

Deputat deyir ki, dünya bazarında neftin qiymətinin aşağı düşdüyü bir zamanda Azərbaycanın dövlət büdcəsinin cari xərclərini qarşılama tapşırığının yerinə yetirilməsi ağırlığını məhz kiçik və orta sahibkarlığın inkişafı və onun motifikativ effektinin nəticələri təşkil edə bilər. Burada böyük bir potensial var: "Əgər uğurla inkişaf edən ölkələrin tarixinə nəzər salsaq görərik ki, həmin ölkələr məhz iqtisadiyyatın ümumi daxili məhsulunun yarısından çoxunu kiçik və orta sahibkarlıq hesabına əldə edir və böhranlı dövrlərdə həmin hissə lokomotiv rolunu oynayır. Bu səbəbdən də onlar böhrandan az itki ilə çıxırlar. Ona görə də Azərbaycan Prezidenti ölkə iqtisadiyyatının bundan sonrakı inkişaf modelini sahibkarlığın inkişafına dair imzaladığı cəsarətli sənədlərin timsalında açıq formada göstərir".

Əli Məsimlinin sözlərinə görə, bunların reallaşdırılması Azərbaycan iqtisadiyyatının neftdən kənar sahələrinin inkişafına böyük töhfə verəcək, sahibkarlara özünəinamı qaytaracaq, onlara qarşı olan haqsız müdaxilələrin aradan qaldırılmasında mühüm rol oynayacaq və elə bir stimul yaradacaq ki, sahibkarlar Azərbaycan iqtisadiyyatının daha da yüksəlişi üçün çox etibarlı motifikasiyanı özündə daşıyan vergi verəcəklər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Dünya və Azərbaycanın xarici siyasəti mükəmməl elmi-politoloji tədqiqat prizmasında




Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədovun müəllifi olduğu "Dış Politika: Gerçekler ve Geleceğe Bakış" adlı kitab Türkiyənin "Berikan" nəşriyyatında (Ankara) nəşr edilib.

Kitab tələbələr, aspirantlar, ali məktəb müəllimləri, beynəlxalq münasibətlər sahəsində ixtisaslaşan mütəxəssislər, habelə geniş oxucu auditoriyası üçün nəzərdə tutulub. Türkiyənin siyasi, ictimai və elmi dairələrinin mühakiməsinə təqdim olunan bu kitab müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin nəzəri və praktiki aspektlərini bütün tərəfləri ilə tədqiq edən dəyərli mənbədir.

Dörd fəsildən ibarət bu kitabı əhatə etdiyi mövzu dairəsinə görə ümumilikdə iki ayrı-ayrı hissəyə bölmək olar. Birinci hissədə XX əsrin əsas geosiyasi konsepsiyalarının ideya təkamülü nəzərdən keçirilir və Qərbin Samuel Hantinqton, Alvin Toffler, Zbiqnev Bjezinski, Henri Kissincer, Sol Kohen, Pyer-Mari Qallua, Frensis Fukuyama, Cozef Nay və başqa bu kimi nəhəng geosiyasi konsepsiyalar yaradan siyasətşünaslarının əsərlərində təqdim olunan beynəlxalq münasibətlər sistemi araşdırılır.

İkinci hissə isə əsas etibarilə Azərbaycanın xarici siyasətinin müstəqillik dövrünə həsr olunub. Bu hissədə ümummilli lider Heydər Əliyevin formalaşdırdığı və Prezident İlham Əliyevin yaradıcılıqla davam etdirdiyi xarici siyasət kursu qlobal və regional dəyişikliklər kontekstində təhlil edilir. "Sərt güc" anlayışından "yumşaq güc" anlayışına keçidin siyasi və geosiyasi xüsusiyyətləri dəqiqləşdirilir. Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri və prioritetləri yeni dünya nizamına keçid aspektində araşdırılır. Balanslaşdırılmış siyasətin mahiyyəti güclü dövlət quruculuğu və regional lider statusu arasındakı sıx əlaqə müstəvisində təqdim olunur. Xarici siyasətin transformasiyası Azərbaycanın modernləşməsi kursunun mərhələləri ilə əlaqəli şəkildə verilir. Müasir tarixi mərhələdə "yumşaq güc" siyasətinin formalaşmasının müxtəlif aspektlərinə diqqət yetirilir. Bu prosesin fonunda xarici siyasətdə müdafiə mövqeyindən hücum strategiyasına keçid mexanizmi tədqiq olunur.

Kitabın birinci fəsli geosiyasi nəzəriyyələrin XX əsrdəki transformasiyasına həsr edilib. Həmin ideya təkamülü prizmasından müasir geosiyasi konsepsiyalar nəzərdən keçirilib.

İkinci fəsildə Azərbaycanın xarici siyasətinə qlobal və regional geosiyasi meyillərin qarşılıqlı əlaqəsi müstəvisində baxılıb. Burada ölkənin xarici siyasət kursunun prioritetlərinin bir-biri ilə sıx bağlı olan konkret vəzifələri reallaşdırmaq imkanları əsaslandırılıb. Güclü dövlət konsepti ilə regional liderliyin uzlaşması məsələsi həmin aspektdə təhlil olunub.

Üçüncü fəsildə güclü dövlət konsepti və regional liderlik arasındakı əlaqəyə bölgə səviyyəsində geosiyasi oyunçu kimi formalaşma imkanları müstəvisində baxılıb. Problem yeni dünya nizamının təşəkkül tapdığı bir dövrdə bu prosesə geosiyasi təsiri olan çoxlu sayda ölkələrin meydana çıxmasından ibarətdir. Müəllif üçüncü fəsildə Azərbaycanın bu proses qarşısındakı mövqeyi, həmin istiqamətdə müxtəlif meyillərə qarşı hazırlığı ilə bağlı məsələləri və bir sıra mülahizələrini türkiyəli oxucularla bölüşür. Təhlillər nəticəsində Azərbaycanın bu aspektdən imkanlarının geniş olduğu ortaya çıxır.

Nəhayət, sonuncu fəsildə xarici siyasətin prioritetləri bir-biri ilə qarşılıqlı əlaqədə və qlobal miqyasda geosiyasi dəyişmələr işığında nəzərdən keçirilib. Burada Azərbaycan rəhbərliyinin ardıcıl olaraq həyata keçirdiyi modernləşmə kursu ilə xarici siyasətin transformasiyası arasındakı daxili bağlılıq araşdırılıb. Həmin əsasda proqnoz xarakterli müddəalar irəli sürülüb. Müasir diplomatiyanın bir sıra xüsusiyyətlərinin təhlili nəticəsində onun gələcəkdə oynaya biləcəyi rol haqqında tezislər təqdim edilib.

Kitabın yekun hissəsində qənaətlər ümumiləşdirilib və bu mövzu ilə bağlı aktual hesab edilən gələcək tədqiqat istiqamətləri müəyyənləşdirilib.

Kitabın özünəməxsus iki fərqli cəhəti var. Mövzuya yanaşmanın qısa səciyyəsini ayrıca vermək məqsədilə "Metodoloji qeydlər" bölməsində hansı metodoloji yanaşmaya üstünlük verildiyi şərh edilib. Müəllif hər bir tədqiqatda aydın metodoloji yanaşmanın mövcud olmasını zəruri hesab edir. İkincisi, müəllif hər bir fəslin sonunda nəzəri ümumiləşdirmələrin aparılmasını təklif edir. Müəllifə görə, bu cür ümumiləşdirmələr irəli sürülən fikirlərin daha konkret və dəqiq başa düşülməsinə, oxucunun əsərin ideya inkişafını aydın görməsinə xidmət edir.

Əminliklə deyə bilərik ki, beynəlxalq münasibətlər sahəsində öz metodologiyası, mövzuya yanaşma tərzi və məzmun dərinliyi ilə seçilən, müstəqil Azərbaycanın xarici siyasətinin kompleks şəkildə və incəliklə təhlil olunduğu "Dış Politika: Gerçekler ve Geleceğe Bakış" kitabı Türkiyədə geniş oxucu kütləsi qazanacaq. Kitabı Ankara şəhərinin kitab satışı mağazalarından və "Berikan" nəşriyyatından əldə etmək mümkündür *(http://www.berikanyayinevi.com.tr/yayinlar/kitap-580-DIS POLITIKA GERCEKLIKLER VE GELECEGE BAKIS.html)*.

***AZƏRTAC***

# Azərbaycan və Kosta-Rika diplomatların təlimi üzrə əməkdaşlıq edəcək



Azərbaycan və Kosta-Rika diplomatların təlimi üzrə əməkdaşlıq edəcək.

Azərbaycan Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən ADA Universiteti və Kosta-Rika Respublikasının Xarici İşlər və Etiqad Nazirliyi arasında bununla bağlı memorandum imzalanıb. Memorandumu xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayev və Kosta-Rikanın xarici işlər və etiqad naziri Manuel Qonzales Sanz imzalayıblar.

ADA Universitetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə rektor Hafiz Paşayev Kosta-Rika və Azərbaycanın iki inkişaf edən bölgənin tərkib hissəsi olduğunu söyləyib. Qeyd edib ki, ölkələrimiz infrastruktur, təhsil, səhiyyə və digər sahələrə sərmayə yatırdıqlarını nəzərə alaraq bir çox sahələrdə təcrübə mübadiləsindən yararlana bilərlər.

Hafiz Paşayev ADA Universitetində əcnəbi tələbələr üçün xüsusi təqaüd proqramı barədə məlumat verib. Bildirib ki, ADA-da 40 ölkəni təmsil edən tələbə heyəti arasında bugünə kimi Latın Amerikası bölgəsindən də tələbələr təhsil alıblar. Burada, həmçinin Kosta-Rikada fəaliyyət göstərən BMT-nin Sülh Universitetindən müəllimlər akademik mübadilədə iştirak ediblər. Rektor universitetin təhsil proqramları, eləcə də ənənəvi olaraq təşkil edilən Bakı Yay Enerji Məktəbi və Xəzər Hövzəsi Araşdırmaları təlim proqramına Kosta-Rikadan da müraciət olunmasını təklif edib.

Görüşdən sonra Manuel Qonzales Sanz ADA Universitetinin tələbələri qarşısında mühazirə ilə çıxış edib. Nazir ölkəsinin xarici siyasət prioritetləri, qlobal səhnədə baş verən hadisələrlə bağlı mövqeyi və Azərbaycana səfəri ilə bağlı fikirlərini bölüşüb. O, universitetin tələbə və müəllim heyətinin suallarını cavablandırıb.

# ADA Universitetində Kənd Təsərrüfatı sahəsində Beynəlxalq Magistr proqramına start verilib




Oktyabrın 21-də ADA Universitetində Kənd Təsərrüfatı sahəsində Biznes idarəçiliyi üzrə Beynəlxalq Magistr proqramına start verilib.

Proqramın əsas məqsədi aqrar sahədə yüksək ixtisaslı kadrların hazırlanması və təminatı sisteminin yaxşılaşdırılması üçün Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə ADA Universitetində müvafiq ixtisasın tədrisini səmərəli şəkildə təşkil edib həyata keçirməkdir.

Xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayev Kənd Təsərrüfatı Nazirliyi tərəfindən irəli sürülən bu proqramı yüksək qiymətləndirib, aqrar sahənin vacibliyini vurğulayaraq tələbələrin bu proqrama marağının çox olacağını söyləyib.

O, həmçinin bu proqrama yalnız Kənd Təsərrüfatı Nazirliyinin təklif etdiyi tələbələrin yox, başqa tələblərin də qoşulacağına ümid etdiyini bildirib.

Kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov proqrama daxil olan bəzi tələbələrin təhsil haqqının və məzunlar üçün iş və karyera imkanlarının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təmin ediləcəyini deyib.

ADA Universitetinin biznes məktəbinin dekanı N.J Delener proqramın təqdimatı barədə ətraflı məlumat verib.

17 ay davam edəcək tədris proqramını müvəffəqiyyətlə bitirənlər ADA Universitetinin magistrantı dərəcəsini qazanacaqlar. ADA Universiteti Azərbaycan Dövlət Aqrar Universiteti ilə zəruri əlaqələndirmə və əməkdaşlığı həyata keçirəcək. İlk qəbul 2016-2017-ci tədris ilində nəzərdə tutulub.

Qəbul olunan tələbələr MBA tədris proqramı çərçivəsində kənd təsərrüfatı sənayesinin əsasları, maliyyələşməsi, marketinqi, idarə edilməsi üzrə nəzəri fənlər və praktiki seminarlar keçəcəklər.

Magistrantlar beynəlxalq təcrübədən yararlanmaq məqsədilə xarici ölkələrə təhsil mübadiləsi səfəri də edəcəklər. Qeyd edək ki, ADA Universitetində Kənd Təsərrüfatı sahəsində Biznes idarəçiliyi üzrə Beynəlxalq Magistr proqramının həyata keçirilməsinə dair Anlaşma Memorandumu 2015-ci ilin iyul ayının 16-da kənd təsərrüfatı naziri Heydər Əsədov və xarici işlər nazirinin müavini Hafiz Paşayevin iştirakı ilə imzalanıb.

***AZƏRTAC***

Seçkilərdən seçkilərə

Son illər böyük inkişaf yolu keçən Azərbaycan bir çox sahələrdə mühüm uğurlara imza atmışdır. Bu fakt daim dünya ictimaiyyətinin diqqətini cəlb etmişdir. Beynəlxalq təşkilatlar da öz tədbirlərini keçirərkən bu məqamı nəzərə alır. İndiyədək Azərbaycanda beynəlxalq təşkilatların çoxlu sayda siyasi, iqtisadi tədbirləri keçirilmişdir. Bu, dünya miqyaslı idman turnirlərinə də aiddir.



# Azərbaycan idmançılarının uğurları ölkəmizə nüfuz qazandırır

Azərbaycanda keçirilən Avropa, dünya çempionatları silsilə xarakteri daşıyır. Müxtəlif beynəlxalq turnirlərin - bədii gimnastika, taekvondo, güləş, boks, karate və olimpiya növlərinə daxil olan digər idman yarışlarının təşkili ölkəmizə böyük imic qazandırmışdır. Son beş il ərzində Azərbaycanın evsahibliyi etdiyi beynəlxalq yarışlara və idmançılarımızın qazandıqları nəticələrə nəzər salaq:

2010-cu ildə idmançılarımız müxtəlif beynəlxalq yarışlarda 675 medal əldə etmişlər. Onlardan 206-sı olimpiya idman növləri üzrə qazanılmışdır. Bu o deməkdir ki, atletlərimiz olimpiya və qeyri-olimpiya idman növləri üzrə yarışlarda ölkəmizi şərəflə təmsil etmişlər. 2010-cu ildə ölkəmizdə təşkil olunmuş mötəbər turnirlərdən biri qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı idi. Heydər Əliyev adına İdman Sarayında keçirilmiş çempionatda dünyanın 87 ölkəsindən 1565 idmançı iştirak etmişdir. Həmin il keçirilmiş daha bir çempionat bodibildinq üzrə olmuşdur. 64-cü dünya çempionatında 63 ölkənin idmançıları birincilik uğrunda mübarizə aparmışdır. Başqa bir mötəbər turnir gənclər arasında boks üzrə dünya çempionatı idi. Çempionatda 96 ölkədən 500 idmançı iştirak etmişdir.

Sərbəst, yunan-Roma və qadın güləşi üzrə Avropa çempionatı da 2010-cu ildə Bakıda təşkil olunmuşdur. 36 ölkədən 383 pəhləvanın qatıldığı yarışda sərbəst, yunan-Roma və qadın güləçiləri mübarizə aparmışlar.

2011-ci il Azərbaycan idmanı üçün böyük nailiyyətlərlə əlamətdar olmuşdur. Ölkəmizdə 42 beynəlxalq idman tədbiri, o cümlədən dünya və Avropa çempionatları keçirilmişdir. Ötən illərdə olduğu kimi, həmin ildə də yarışlara yüksək səviyyədə evsahibliyi etməyimiz xarici mütəxəssislərin və beynəlxalq idman təşkilatlarının diqqətini cəlb etmiş, onlar çıxışlarında bunu dönə-dönə vurğulamışlar. Azərbaycan idmançılarının nailiyyətləri bütün dünyaya səs salmışdır. Belə ki, 2011-ci ildə təmsilçilərimizin qazandıqları medalların sayı artıq 705 (əldə edilən medalların 246-sı olimpiya idman növləri üzrədir) idi. Həmin il cüdo üzrə "World Masters" beynəlxalq turniri Bakıda keçirilmişdir. Reytinq xalları verən seriyada 42 ölkəni təmsil edən 300-dən çox idmançı mübarizə aparmışdır. Bakıda keçirilmiş cüdo üzrə dünya kuboku həm də 2012-ci il London Yay Olimpiadasına lisenziya xarakteri daşıyırdı. Boks üzrə XVI dünya çempionatı da 2011-ci ilin sentyabrın 26-dan oktyabrın 8-dək Bakıda keçirilmişdir. Mundialda 113 ölkədən 570 boksçu mübarizə aparmışdır ki, bu, ölkələrin və idmançıların sayına görə rekord göstəricidir.

2012-ci il də ölkənin idman həyatı üçün uğurlu olmuşdur. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, həmin il Azərbaycan idmançıları iştirak etdikləri beynəlxalq turnirlərdə rekord sayda - 700-dən çox medal qazanmışlar. Əsasən olimpiya idman növləri üzrə qazanılmış bu medalların 255-i qızıl əyarlıdır. Bununla idmançılarımız Prezident İlham Əliyevin sərəncamı ilə elan olunmuş "İdman ili"nə layiqli töhfə vermişlər.

Britaniya paytaxtının evsahibliyi etdiyi XXX Yay Olimpiya Oyunlarında atletlərimiz böyük uğura imza ataraq 10 medal qazandılar. Azərbaycan Londonda 204 ölkə arasında 30-cu yeri tutdu. Güləşçilərimiz sözün həqiqi mənasında tarix yazdılar. Hər iki qızıl medalı onlar qazandılar. Toğrul Əsgərov və Şərif Şərifov olimpiya çempionu ünvanına sahib oldular. Olimpiya yığmamızın aktivinə 2 gümüş medalı da pəhləvanlar (Rövşən Bayramov və Mariya Stadnik) əlavə etdilər. Digər üç güləşçimiz Emin Əhmədov, Yuliya Ratkeviç və Xetaq Qazyumov isə çıxışlarını bürünc medalla başa vurdular. Ağır atletlərdən isə yalnız Valentin Xristov bürünc medal qazandı. Boksçularımız Teymur Məmmədov və Məhəmmədrəsul Məcidov bürünc medal əldə etdilər.

2012-ci il ölkəmizdə güləş, boks, avarçəkmə, cüdo və digər idman növləri üzrə çoxsaylı beynəlxalq turnirlər də keçirilmişdir. Həmin il bizim üçün ənənəvi olmayan idman növlərinin inkişafı baxımından da əlamətdar olmuşdur. Məsələn, Velosiped İdmanı Federasiyası Azərbaycan idmanının tarixində ilk dəfə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş beynəlxalq velotur keçirmişdir.

2012-ci ildə isə ən böyük turnir, futbol üzrə 17 yaşlı qadınlar arasında təşkil olunmuş sayca 3-cü dünya çempionatı idi. 16 ölkənin - Azərbaycan, Yaponiya, Koreya Xalq Demokratik Respublikası, Çin, Nigeriya, Qana, Qambiya, ABŞ, Kanada, Meksika, Braziliya, Uruqvay, Kolumbiya, Yeni Zelandiya, Fransa və Almaniya milli komandalarının qatıldığı dünya çempionatı bir çox cəhətdən yadda qaldı. Əvvəlki iki dünya birinciliyi Yeni Zelandiyada (2008), Trinidad və Tobaqoda (2010) keçirilmişdir. İlk iki çempionatın qalibləri Asiya təmsilçiləri (Koreya Respublikası və KXDR) olmuşdular. Bu dəfə isə çempion adını Avropa təmsilçisi - Fransa komandası qazandı. son dünya çempionu - KXDR millisi finala çıxsa da, titulu qoruyub saxlaya bilmədi.

Turnirin matçları 5-i Bakıda, biri isə Lənkəranda olmaqla 6 stadionda keçirilmişdir. Bu stadionlardan 3-ü U-17 dünya çempionatına hazırlıq prosesi çərçivəsində inşa olunmuşdu.





Dünya çempionatında iştirak edən futbolçu qızlar tamaşaçılar qarşısında zaman-zaman maraqlı idman mübarizəsi nümayiş etdirdilər. Xüsusilə final matçı gərginliyi ilə seçildi: dünya çempionunun adı penaltilər seriyasından sonra məlum oldu.

Mundiala ev sahibliyi etməyin özü isə ölkəmiz üçün əlamətdar hadisə idi. Bu, FİFA bayrağı altında Azərbaycanda keçirilən ilk böyük turnir və Avropada təşkil olunan ilk U-17 qadınlararası dünya çempionatı idi.

2012-ci ildə yeniyetmələr arasında sərbəst, yunan-Roma, qadın və çimərlik güləşi üzrə dünya çempionatı ölkəmizdə keçirilmişdir. Turnirdə 41 ölkədən 850 idmançı iştirak etmişdir.

Həmin il Bakıda ilk dəfə keçirilən turnirlərdən biri də "GT3 və klassik Formula 1" yarışı idi. Oktyabrın 26-28-də Bakıda ilk dəfə keçirilən yarışların "City Challenge" Bakı avtoparadı keçirilib. Yarışda 10 komanda (hər birində 2 sürücü olmaqla) iştirak edib və 2,1 kilometrlik yarış zolağını qət ediblər. Yarış 300 milyon izləyicini əhatə etmiş, 120 ölkədə televiziya kanalları vasitəsilə yayımlanmışdır.

2013-cü il də ölkənin idman həyatında bir çox əlamətdar hadisələrlə yadda qaldı. İdmançılarımız dünya və qitə miqyaslı yarışlarda uğurlu çıxışlarını davam etdirdilər. Ümumiyyətlə, idmançılarımız həmin il 780-dən çox medal qazanmışlar ki, onlardan 280-ni qızıldır.

Böyük idman tədbirlərindən biri 2013-cü ilin iyul ayına təsadüf etdi. Həmin ayın 6-17-də Rusiyanın Tatarıstan Respublikasının paytaxtı Kazanda XXVII Ümumdünya Yay Universiadası keçirildi. Kazana 162 ölkədən 11758 idmançı, o cümlədən 27 olimpiya çempionu və 11 olimpiya mükafatçısı gəlmişdi. Universiadalar tarixində ilk dəfə olaraq proqrama rekord sayda - 27 idman növü daxil edilmişdi. Tələbə idmançılar beş idman növündə ilk dəfə mübarizə aparırdılar. İştirakçıların və medal dəstlərinin sayı (351 dəst) rekord səviyyədə idi. 4,5 milyad dollara başa gəlmiş Kazan Universiadası çərçivəsində keçirilmiş yarışları dünyanın 105 ölkəsinin televiziya kanalları işıqlandırmışdı. Tələbə oyunlarını 3 milyard nəfərdən çox televiziya tamaşaçısı izləmişdi.

Yığma komandamız Kazan Universiadasına 81 idmançı ilə qatılmış, 10 idman növündə mübarizə aparmışdır. Tələbə idmançılarımız gərgin mübarizə şəraitində keçən yarışlarda 16 medal (4 qızıl, 5 gümüş, 7 bürünc) qazandılar. Təmsilçilərimiz komanda hesabında 15-ci yerə çıxdılar. Avropada 9-cu, müsəlman ölkələri arasında isə 1-ci yeri tutduq. Bu isə əvvəlki illərlə müqayisədə rekord göstəricidir.

Həmin il idman sahəsində yaddaqalan hadisələrdən biri də İndoneziyanın Palembanq şəhərində keçirilmiş III İslam Həmrəyliyi Oyunlarında idmançılarımızın uğurlu çıxışı idi. Sentyabrın 23-dən oktyabrın 2-dək davam etmiş oyunlara 43 ölkənin idmançıları, o cümlədən Azərbaycan təmisilçiləri qatılmışdılar. Sevindirici haldır ki, İslam Həmrəyliyi Oyunlarında iştirak edən Azərbaycan idmançıları onlara bəslənən ümidləri tamamilə doğrultdular. Təmsilçilərimiz 24 medalla (7 qızıl, 8 gümüş, 9 bürünc) iştirakçı ölkələr arasında 7-ci yeri tutdular.

2013-cü ildə boksçularımız da qazandıqları uğurlu nəticələrlə xalqımızı sevindirdilər. Belə ki, həmin ilin oktyabr ayında Qazaxıstanın Almatı şəhərində boks üzrə dünya çempionatı keçirilmişdir. Mundialın son günündə Azərbaycanın iki idmançısı çempionluq üçün rinqə çıxmışdı. Cavid Çələbiyev (56 kq) və Məhəmmədrəsul Məcidov (+91 kq) ölkəmizə qızıl medal qazandırdılar. Çələbiyev və Məcidovdan fərqli olaraq, Teymur Məmmədov (91 kq) yarımfinal səddini keçə bilmədi. Boksçumuz Olimpiadada uduzduğu italiyalı Klemente Russoya yenə də məğlub oldu və bürünc medalla kifayətləndi.

2013-cü il güləşçilərimiz üçün də növbəti uğurlu illərdən biri oldu. Onlar iştirak etdikləri beynəlxalq turnirlərdə yüksək nailiyyətlər əldə etdilər. Pəhləvanlarımız beynəlxalq yarışlarda 17 qızıl, 15 gümüş, 38 bürünc olmaqla cəmi 70 medal qazandılar. Bunların 27-si yeniyetmə güləşçilərin payına düşür. Onlar Avropa və dünya çempionatlarında 10 qızıl, 4 gümüş, 13 bürünc medal qazanaraq güləşimizin gələcəyinin etibarlı əllərdə olduğunu nümayiş etdirdilər.

Həmin ilin ən əlamətdar idman hadisələrindən biri də şahmatçılarımızın Avropa çempionluğudur. Belə ki, noyabrın 8-18-də seçmə komandamız Polşanın paytaxtı Varşavada keçirilmiş kişi şahmatçılar arasında qitə komanda çempionatında birinci yeri tutdu. Bununla şahmatçılarımız həm ölkə, həm də Avropa şahmat tarixinə yeni qızıl səhifə yazdılar.

2014-cü il də ölkənin idman həyatında bir çox uğurlarla diqqəti cəlb etdi. İdmançılarımız ötən il 805 medal qazanmışlar ki, onlardan 275-i qızıl, 255-i gümüş, 275-i isə bürüncdür. 278 medal (89 qızıl, 80 gümüş, 109 bürünc) olimpiya, 527 medal (186 qızıl, 175 gümüş, 166 bürünc) qeyri-olimpiya idman növlərindən olmuşdur.

Ötən ilin iyul ayının 14-28-də Çin Xalq Respublikasının Nanjinq şəhərində Yeniyetmələrin II Olimpiya Oyunları keçirilmişdir. 29 idman növünün təmsil olunduğu yarışlarda 204 ölkədən 3888 idmançı iştirak edirdi. Ölkəmiz oyunlarda 9 idman növündə 21 idmançı ilə təmsil olunmuşdu. Azərbaycan beş qızıl, altı gümüş və bir bürünc medalla 204 iştirakçı ölkə arasında və medal qazana bilmiş 86 ölkə arasında 10-cu yeri, qazanılmış medalların sayına (12 medal) görə isə 14-cü yeri tutmuşdur.

Azərbaycan gimnastları da ötən ili uğurla başa vurmuşlar. Onlar 42-si qızıl, 30-u gümüş və 42-si bürünc olmaqla 114 medal əldə etdilər. Bu medalların böyük hissəsi (68 medal) bədii gimnastikanın payına düşür. Ötən il ölkəmizin bayrağı daha çox Jalə Piriyeva və Marina Durundanın şərəfinə qalxdı. Hesabında ən çox qızıl olan Marina Durunda Avropa Oyunlarının səfiri seçildi. Azərbaycan Gimnastika Federasiyasının reytinqində 1-ci olan böyüklərdən ibarət yığma komandamız həmçinin Beynəlxalq Gimnastika Federasiyasının qrup komandalarının reytinqində (çoxnövçülük) 3-cü oldu.

Keçən ilin yaddaqalan idman hadisələrindən biri də Özbəkistanın paytaxtı Daşkənddə güləş üzrə dünya çempionatında pəhləvanlarımızın uğurlu çıxışı oldu. Turnirdə pəhləvanlarımız sərbəst güləş üzrə bir qızıl, bir gümüş, yunan-Roma güləşi üzrə bir gümüş, iki bürünc, qadın güləşçilərimiz bir gümüş, bir bürünc medala sahib oldular. Ümumilikdə komandamız 7 medalla 104 ölkə arasında 4-cü yeri tutdu.

Güləşçilərimiz aprelin 1-8-də Finlandiyanın Vantaa şəhərində keçirilmiş Avropa çempionatında yeni bir uğura imza atdılar. Mariya Stadnik, Hacı Əliyev və Ruslan Dibirqadjiyev qitə birinciliyinin qalibi oldular.

Mayın 1-4-də paytaxtımız daha bir mötəbər idman yarışına ev sahibliyi etdi. Bakıda taekvondo üzrə Avropa çempionatı keçirildi.

Ötən ilin idman sahəsində əlamətdar hadisələrdən biri İspaniyanın Bilbao şəhərində şahmatçılarımızın uğurlu çıxışıdır. Sentyabrın 13-21-də klublararası Avropa çempionatında Azərbaycanın kişilərdən ibarət "SOCAR Azərbaycan" komandası ikinci dəfə qitə çempionu adını qazandı.

2014-cü ildə Bakı başqa bir möhtəşəm turnirə ev sahibliyi etdi. Paytaxtda "Blancpain Sprint" seriyasından "Baku World Challenge" avtomobil yarışı keçirildi. Turnirin qalibi Belçikanın "Audi Club Team WRT" komandası oldu. Komandaya bu uğuru pilotlar Sezar Ramos və Laurens Vanthur qazandırdılar. Böyük Britaniyanın "Beechdean AMR" komandası (pilotlar Conni Adam, Endi Soucek) ikinci, Almaniyanın "Phoenix Racing" kollektivi isə (Niki Mayr-Melnhof və Markus Vinkelhick) üçüncü yerə çıxdılar.

Bu il dünyanın diqqəti növbəti dəfə Azərbaycana yönəlmişdi. Ölkəmiz tarixdə ilk dəfə təşkil olunan "Bakı-2015" Avropa Oyunlarını layiqincə təşkil etməklə tək özünün deyil, köhnə qitənin idman tarixinə möhürünü vurdu. Nümunəvi təşkilatçılığı, qeyri-adi açılış və bağlanış mərasimləri ilə yadda qalan I Avropa Oyunları dünyanın əsas idman hadisəsi idi. Avropa Oyunları Azərbaycanın istənilən beynəlxalq tədbiri ən yüksək səviyyədə təşkil etmək imkanlarının növbəti təsdiqi olmaqla yanaşı, həm də ölkəmizdə idmanın inkişafda olduğunu, Olimpiya hərəkatının geniş vüsət aldığını bütün dünyaya nümayiş etdirdi. İdmançılarımızın 21-i qızıl, 15-i gümüş və 20-si bürünc olmaqla qazandıqları 56 medalla Azərbaycan I Avropa Oyunlarının ikincisi oldu. Bu, bir daha göstərdi ki, ölkəmizdə həyata keçirilən idman siyasəti öz bəhrəsini verir.

Bu, hələ son deyil. Qarşıda daha böyük yarışlar və qazanılacaq medallar var. Paytaxtımız növbəti beş ildə bir daha böyük idman bayramlarının təşkilatçısı olacaq. UEFA İcraiyyə Komitəsinin 19 sentyabr 2014-cü il tarixli qərarı ilə Bakının 2020-ci ildə futbol üzrə Avropa çempionatının oyunlarının keçiriləcəyi 13 şəhər arasına düşməsi son dərəcə sevindirici hadisədir. Qərara əsasən, qitə çempionatının dörd matçı (qrup mərhələsinin üç oyunu və bir dörddəbir final oyunu) paytaxtımızda keçiriləcək. Bundan başqa, Azərbaycan 2016-cı ildə dünya Şahmat Olimpiadasını və "Formula-1" yarışını, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarını keçirəcək.





*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Seçkilərdən seçkilərə

# Nərimanov rayonu dinamik inkişaf və möhtəşəm quruculuq məkanıdır

*Son illərdə həyata keçirilən sürətli inkişaf, hərtərəfli yenilənmə və modernləşmə prosesi Azərbaycanı dünyaya yeni formada təqdim etməyə imkan yaradıb. Bu müsbət dəyişikliklər ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla gerçəkliyə çevrildiyini göstərməklə yanaşı, Azərbaycanın hər bir sahədə qazandığı nailiyyətlərin çoxşaxəli və möhtəşəm olmasından xəbər verir. Danılmaz həqiqətdir ki, bu gün respublikanın başdan-başa tikinti-quruculuq meydanına çevrilməsi, paytaxtın dünyanın sayılı şəhərləri cərgəsində mövqelərini möhkəmlətməsi məhz dövlət rəhbərinin iradə və səylərinin bəhrəsidir.*

*Həyata keçirilən sosial-iqtisadi inkişaf kursu 2015-ci ildə də ölkəmizin iqtisadiyyatının bütün sahələrinin davamlı inkişafını təmin edərək müsbət nəticələrin əldə edilməsini şərtləndirib. Sosial-iqtisadi inkişaf, aparılan quruculuq və abadlıq işləri ölkənin hər yerində olduğu kimi, Bakının Nərimanov rayonunda da ötən dövrdə yüksək templə davam edib.*



## İqtisadi göstəricilər yüksəkdir

Oktyabrın 21-də Nərimanov Rayon İcra Hakimiyyətində sosial-iqtisadi inkişafın cari ilin 9 ayında yekunları və qarşıda duran vəzifələr müzakirə olunmuşdur.

İclası giriş sözü ilə açan Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev respublikamızda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində Bakının aparıcı rayonlarından olan Nərimanov rayonunda da hərtərəfli inkişaf üçün böyük işlər görüldüyünü və bu işlərin hazırda da uğurla davam etdirildiyini söylədi.

Bildirildi ki, qısa zaman kəsiyində Nərimanov rayonunun geniş quruculuq məkanına çevrilməsinin ən ümdə səbəblərindən biri ölkəmizin bütün bölgələri kimi, bu rayona da Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət və qayğının göstərilməsidir. Dövlət başçısının təsdiqlədiyi proqramlar, imzaladığı sərəncamlar, verdiyi tapşırıqlar Nərimanov rayonunun tərəqqisinin kompleks xarakter daşımasına, infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, sosial-mədəni obyektlərin yaradılmasına, bununla da əhalinin layiqli həyat tərzinin təmin olunmasına müstəsna töhfələr verməkdədir.

Ötən dövrün yekunlarına görə rayon iqtisadiyyatının əsasını təşkil edən sənayenin dinamik inkişafı davam etdirilmiş və bu müddət ərzində xidmətlər də daxil olmaqla 1 milyard 792 milyon manatlıq məhsul istehsal olunmuş, 2014-cü ilin doqquz ayına nisbətən 100 faiz artım sürəti əldə edilmişdir. 2015-ci ilin doqquz ayı ərzində istehlakçılara 1 milyard 938 milyon manatlıq və ya bütün sənaye məhsulunun 108,1 faizi qədər sənaye məhsulu göndərilmişdir. İstehsal olunmuş sənaye məhsulunun həcmində dövlət sektorunun xüsusi çəkisi 88,6 faiz təşkil etmişdir. Ötən dövr ərzində sənaye kompleksində işləyənlərin sayı 12478 nəfər təşkil etmiş, onların orta nominal əmək haqqı 5,3 faiz artaraq 535,8 manata çatmışdır.

Yeni müəssisələrin yaradılması, mövcud müəssisələrin fəaliyyətinin bərpa edilməsi nəticəsində ötən 9 ay ərzində 2982 daimi iş yerləri açılmışdır. Nəqliyyat sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən 52 milyon 29 min manatlıq xidmət göstərilmişdir ki, əvvəlki ilin müvafiq dövrünə nisbətən 83 faiz artım surəti qeydə alınmışdır. Ötən dövr ərzində bütün mənbələr hesabına əsas kapitala 230 milyon 57 min manatlıq investisiya qoyulmuşdur ki, bunun da əsas hissəsi iqtisadi və sosial sahənin inkişafına yönəlmişdir.

Ticarət dövriyyəsinin və pullu xidmətlərin də həcmi xeyli artmışdır. Bu müddətdə ticarət şəbəkələri tərəfindən əhaliyə 920 milyon 159 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 20 faiz çox istehlak malları satılmışdır. Ötən dövr ərzində xidmət müəssisələri tərəfindən əhaliyə 211 milyon 694 min manatlıq pullu xidmətlər göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 112 faiz təşkil etmişdir.

## Quruculuq və abadlıq işləri davamlı hal alıb

Azərbaycanda geniş vüsət alan sosial-iqtisadi inkişaf, aparılan quruculuq və abadlıq işləri ölkənin hər yerində olduğu kimi, Bakının Nərimanov rayonunda da ötən 9 ayda yüksək templə davam edib. Ölkə Prezidentinin birbaşa təşəbbüsü və himayəsi sayəsində son illər Nərimanov rayonunda mühüm infrasturktur obyektlərinin inşası vaxtında və uğurla başa çatdırılıb.

2015-ci ilin ötən dövrü ərzində dövlət başçısı Bakı Olimpiya Stadionunun açılışında, eləcə də ilk Avropa Oyunlarına hazırlıqla bağlı dəfələrlə arenanın ətrafında inşası davam etdirilən yol-nəqliyyat infrastrukturunun, Həsən Əliyev küçəsi-Ziya Bünyadov prospekti-Olimpiya Stadionu avtomobil yolunun tikintisinin, həmçinin mərkəzi küçə və prospektlərdə həyata keçirilən abadlıq və quruculuq işlərinin gedişi ilə tanış olmuşdur. Eləcə də aprelin 16-da Bakı Metropoliteninin Nəriman Nərimanov adına elektrik deposunda metropolitenin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə tanış olmuş, aprelin 29-da Bakı Konqres Mərkəzinin, mayın 7-də isə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasının açılışlarında iştirak etmiş, iyunun 4-də "Bakı-2015" ilk Avropa Oyunları çərçivəsində Tofiq Bəhramov adına Respublika Stadionunda yaradılan şəraitlə tanış olmuş, dəyərli təklif və tövsiyələrini vermişdir.





Ötən dövr ərzində geniş abadlıq və quruculuq işləri nəticəsində "Gənclik" metrostansiyasının ətrafında yerləşən binaların milli memarlıq üslubunda yenidən qurulması və yeni yeraltı piyada keçidlərinin inşa olunması, Ziya Bünyadov prospektinin yenidən qurulması, Olimpiya Stadionunun tikintisi ilə əlaqədar yeni yol qovşaqlarının və yeraltı yol ötürücülərinin salınması, şəhərin baş planına uyğun olaraq digər infrastruktur layihələrin həyata keçirilməsi işləri uğurla yerinə yetirilmişdir.

İlk Avropa Oyunlarının keçirilməsinə hazırlıqla əlaqədar ölkə başçısı tərəfindən qarşıya qoyulan vəzifələrin icrası təmin olunmuşdur. Yeni inşa olunan Olimpiya Stadionunun Nərimanov rayonu ərazisinə düşən hissəsində geniş abadlıq və quruculuq işləri yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilmişdir. İlk növbədə Ziya Bünyadov prospektinin uzunluğu 15 km olan hissəsində yaşayış və qeyri-yaşayış binalarının fasadları və dam örtükləri yenidən qurulmuş, digər hissələrdə isə hasarlar tikilərək müasir üzlük tavanlarla bəzədilmişdir. Artıq Ziya Bünyadov prospekti şəhərimizin ən gözəl prospektlərindən birinə çevrilmişdir. Rayonun Heydər Əliyev prospekti ilə İ.Həsənoğlu küçəsinin kəsişməsində yeni park yaradılmışdır.





Rayon sakinlərinin mənzil-kommunal şəraitinin yaxşılaşdırılması istiqamətində bir neçə il bundan əvvəl başlamış layihələrin icrası 2015-ci ilin 9 ayında da uğurla davam etdirilmişdir. Heydər Əliyev prospekti 64 və K.Rəhimov küçəsi 3a ünvanlarda müasir memarlıq üslubunda inşa edilmiş yeni yaşayış binaları istismara tam hazır vəziyyətə gətirilmiş və sakinlərin istifadəsinə verilmişdir. Paytaxtımızın giriş qapısı sayılan Heydər Əliyev prospektinin yenidən qurulması layihəsinə uyğun olaraq istismar müddətini keçmiş və sökülmüş 8 ədəd yaşayış binasının yerində müasir milli memarlıq üslubunda 4 yaşayış binasının tikintisi sürətlə və yüksək keyfiyyətlə davam etdirilmişdir.

Ötən 9 ay ərzində təhsil və səhiyyə sahəsində də işlər davam etdirilmişdir. 2015-ci ildə ali məktəblərə qəbul imtahanlarının nəticələrinə görə 90 nəfər 600-dən yuxarı bal toplamış, bunlardan 30 nəfəri isə 650 baldan yuxarı nəticə əldə etmişdir. Ötən il ilə müqayisədə bu rəqəmin 25 nəfər artması təhsilin keyfiyyətinin yaxşılaşmasının göstəricisidir. Dövlət başçısının 2 oktyabr 2015-ci il tarixli sərəncamı ilə rayonun 5 müəllimi "Tərəqqi" medalına, 4 nəfər "əməkdar müəllim" fəxri adına layiq görülmişlər.

Prezident İlham Əliyevin tapşırığı ilə cari ilin fevral ayının 1-dən mayın 1-dək respublika əhalisinin ümumi profilaktik müayinələrə cəlb olunması aksiyası çərçivəsində rayon əhalisinin tibbi müayinəsi təşkil olunmuş, 80 min 855 nəfər sakin tibbi müayinədən keçirilmiş, bunlardan 20 min 522 nəfəri ambulator müalicəyə, 256 nəfəri isə stasionar müalicəyə cəlb edilmişdir.





## Həştərxan vilayəti ilə əlaqələr daha da möhkəmlənib

Nərimanov rayonu ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında iqtisadi-siyasi və mədəni sahədə sıx dostluq və əməkdaşlıq əlaqələri daha da dərinləşir. Sevindirici haldır ki, iki dövlətin dostluq əlaqələrindən irəli gələrək uzun illərdən bəri qardaşlaşmış Bakının Nərimanov rayonu ilə Həştərxan vilayətinin Nərimanov şəhəri arasında da iqtisadi-siyasi və mədəni sahədə əlaqələr daha da inkişaf edir.

2010-cu ildən başlayaraq Prezident İlham Əliyevin göstəriş və tapşırığı əsasında Həştərxan vilayətində Heydər Əliyev Fondunun təşəbbüsü və maliyyə dəstəyi ilə genişmiqyaslı layihələr həyata keçirilmişdir. Bu cür dinamik inkişafın göstəricisi və iki dövlətin dostluq əlaqələrinin bariz nümunəsi kimi, Həştərxan vilayətinin mərkəzində yerləşən 3,5 hektar ərazisi olan parkda nümunəvi abadlıq işləri aparılaraq ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi ucaldılmış, Bakı küçəsində yerləşən 11 nömrəli orta məktəbə ulu öndər Heydər Əliyevin adı verilmiş, Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə həmin məktəbin əsas korpusu genişmiqyaslı rekonstruksiya olunmuş, müasir standartlara uyğun iki yeni korpus inşa edilmiş və şagirdlərin təhsilinin lazımi səviyyədə təşkil edilməsi üçün bütün şərait yaradılmış, mebel və texniki avadanlıqlarla təchiz edilmişdir. Həyata keçirilən layihələrin davamı olaraq Həştərxan şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş Azərbaycan və Rusiya Dostluq körpüsünün və Heydər Əliyev parkında yaradılmış "Meçta" uşaq əyləncə şəhərciyinin və eyni adlı uşaq kafesinin, Müqəddəs Vladimir məbədinin önündəki meydanda Knyaz Vladimirin abidəsinin və abidənin yerləşdiyi ərazidə salınmış parkın təntənəli açılış mərasimləri, həmçinin Həştərxan şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə Voljskiy küçəsində "Dostluq" uşaq bağçasının Prezident İlham Əliyevin iştirakı ilə təntənəli açılış mərasimi keçirilmişdir.

Cari ilin 9 ayı ərzində dəfələrlə Rusiya Federasiyasının Həştərxan vilayətinin nümayəndə heyətinin ölkəmizə, eyni zamanda Azərbaycan nümayəndə heyətinin Həştərxan vilayətinə rəsmi və işgüzar səfərləri baş tutmuşdur. Belə ki, yanvar ayında Həştərxan şəhərindəki Heydər Əliyev adına 11 nömrəli ümumtəhsil məktəbinin bir qrup şagirdi Bakı şəhərinə gəlmiş, respublikamızın, o cümlədən paytaxtımızın görməli yerləri, tarixi abidələri ilə tanış olmuşlar. Mart ayında Həştərxan vilayətinin beynəlxalq və xarici iqtisadi əlaqələr naziri D.Afanasyevin, aprel ayında vilayətin vitse-qubernatoru, hökumətin sədri K.Markelovun başçılıq etdiyi rəsmi nümayəndə heyətinin və "Bakı - 2015" ilk Avropa Oyunlarının açılış mərasimində iştirak üçün vilayətin qubernatoru A.Jilkinin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana rəsmi və işgüzar səfərləri baş tutmuş, bu çərçivədə Həştərxan vilayəti rəhbərliyi və nümayəndə heyəti ilə Nərimanov Rayon İcra Hakimiyyətində keçirilən görüşlərdə oktyabr ayında Həştərxan şəhərində keçiriləcək Azərbaycan mədəniyyəti günləri ilə əlaqədar təşkilati məsələlər müzakirə olunmuş, gələcəkdə həyata keçiriləcək layihələr barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Sentyabrın 17-18-də Həştərxanda keçirilmiş I Xəzər Media Forumunda Azərbaycan nümayəndə heyətinin tərkibində Nərimanov rayonunun nümayəndələri də iştirak etmişlər. Həmçinin sentyabrın 30-da Yekaterinburqda keçirilmiş VI Rusiya-Azərbaycan Regionlararası Forumuna Azərbaycan nümayəndə heyətinin tərkibində Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev də qatılmış və sözügedən forumda çıxış etmişdir.







## Seçkiyə mütəşəkkil hazırlıq davam edir

Nərimanov rayonu həm də siyasi fəallığı, ölkə miqyaslı siyasi proseslərdə mütəşəkkil iştirakı ilə diqqəti cəlb edir. Bütün seçkilər bu rayonda yüksək səviyyədə baş tutub.

Rayonda 18 saylı Nərimanov - Nizami, 19 saylı Nərimanov birinci, 20 saylı Nərimanov ikinci dairə seçki komissiyaları fəaliyyət göstərir. 3 seçki dairəsi üzrə 84 seçki məntəqəsi mövcuddur. Onlardan 16 məntəqə 18 saylı Nərimanov-Nizami seçki dairəsi üzrə, 35 məntəqə 19 saylı Nərimanov birinci seçki dairəsi üzrə, 33 məntəqə isə 20 saylı Nərimanov ikinci seçki dairəsi üzrə fəaliyyət göstərir. Nərimanov rayonu üzrə seçicilərin sayı 110789 nəfər təşkil edir.

Seçki prosesinin təkmilləşdirilməsi, şəffaflığın təmin edilməsi məqsədi ilə rayonda fəaliyyət göstərən 3 seçki dairəsi üzrə 25 seçki məntəqəsində veb-kameralar quraşdırılması nəzərdə tutulur. Həmin məntəqələrin vəziyyəti araşdırılmış, ehtiyac olan məntəqələrdə təmir işləri həyata keçirilmiş və lazımi texniki avadanlıqlarla tam təmin olunmuşdur. Seçkilərə çağırışla əlaqədar seçki məntəqələrinin yaxınlığında, əhalinin sıxlıq təşkil etdiyi yerlərdə təşviqat lövhələri yerləşdirilmişdir. Namizədlərin və onların vəkillərinin seçkiqabağı təşviqat işlərinin təşkili məqsədi ilə rayon ərazisində açıq və qapalı yerlər müəyyənləşdirilmiş, onlara hər cür şərait yaradılmışdır.

Seçkilərin şəffaflığını, demokratikliyini və mütəşəkkilliyini təmin etmək məqsədi ilə Nərimanov Rayon İcra Hakimiyyəti mütəmadi olaraq seçki dairələri və məntəqələrinin texniki cəhətdən təminatı və təchizatı, lazımi şərait yaradılması ilə bağlı məsələlərin icrasını həyata keçirir. Bütün seçki dairə və məntəqələrinə baxış keçirilmiş, onların şəraiti və texniki vəziyyəti araşdırılmış, darısqal və ya seçki keçirilməsi üçün uyğun binalarda yerləşməyən məntəqələrin yerlərinin dəyişdirilməsi istiqamətində müvafiq işlər görülmüşdür. Hər 3 seçki dairəsində təmir işləri həyata keçirilmişdir. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərə hazırlıqla əlaqədar məhəllədaxili ərazilərdə, o cümlədən məntəqələrə gedən yollarda, küçə və məhəllələrdə abadlıq, asfaltlanma və işıqlandırma işləri həyata keçirilir.

Son illər rayon ərazisində irimiqyaslı abadlıq və quruculuq işlərinin aparılması, habelə rayon rəhbərliyinin yerlərdə keçirdiyi səyyar görüşlərdə və qəbullarda rayon sakinlərinin problem və qayğılarının öyrənilməsi və həlli onlarda ruh yüksəkliyi yaradır.







***İxtiyar HÜSEYNLİ,***
***"Azərbaycan"***

# 1 noyabr Milli Məclisə seçkilər günüdür

## Mərkəzi Seçki Komissiyasında veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirilib

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar nəzərdə tutulmuş genişmiqyaslı layihələrin həyata keçirilməsi istiqamətində işlər davam edir.

Oktyabrın 21-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov və rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov MSK-nın inzibati binasında yerləşən veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirib, veb-kameralarla bağlı son hazırlıq işləri ilə tanış olublar. Bu barədə MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a məlumat verilib.





Tədbirdə MSK sədri ölkəmizin mühüm ictimai-siyasi hadisə ərəfəsində olduğunu bildirərək qeyd edib ki, seçkilərin hazırlanıb keçirilməsində şəffaflıq ən mühüm prinsiplərdən biridir. Azərbaycan aşkarlıq institutlarının, xüsusilə yerli və beynəlxalq müşahidəçilərin, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələrinin normal fəaliyyəti üçün yaradılan hərtərəfli və geniş imkanlar baxımından dünyanın bir çox ölkələrinə nümunədir. Ölkəmizdə keçirilən seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunması üçün bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunmuş nailiyyətlərdən geniş istifadə olunur ki, bu da seçki prosesini əvvəldən axıradək izləməyə, geniş və hərtərəfli müşahidə aparmağa və beləliklə, aşkarlığın daha dolğun təminatına şərait yaradır. Azərbaycanda keçirilən seçkilərdə 2008-ci ildən başlayaraq tətbiq olunan və internet vasitəsilə səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralardan istifadə təcrübəsi bu il Milli Məclisə keçiriləcək seçkilərdə də davam etdirilir. Səsvermə günü seçki məntəqələrində proseslərin əvvəldən axıradək izlənilməsi məqsədilə bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində (təqribən 20 faiz) veb-kamera quraşdırılıb. Veb-kameralar vasitəsilə keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi üçün proses daim diqqət mərkəzində saxlanılır. Seçki günü internet istifadəçiləri istər ölkə daxilindən, istərsə də ölkə xaricindən MSK-nın internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesini, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini arasıkəsilmədən canlı müşahidə etmək imkanına malik olacaqlar.




MSK sədri Məzahir Pənahov veb-kameralardan istifadə sahəsində qarşılıqlı səmərəli əməkdaşlığa görə rabitə və yüksək texnologiyalar naziri Əli Abbasova təşəkkürünü bildirib.

Nazir Əli Abbasov Azərbaycanın seçkilərdə veb-kameralardan istifadə sahəsində uzunmüddətli təcrübəyə malik olduğunu vurğulayaraq bildirib ki, ölkəmizdə keçirilən seçkilərdə rabitə və informasiya-kommunikasiya texnologiyalarından istifadə olunması seçki sisteminin təkmilləşdirilməsinə, onun informasiya təminatının müasir tələblər səviyyəsində qurulmasına, eləcə də seçki prosesində aşkarlığın və şəffaflığın daha yüksək səviyyədə təmin olunmasına xidmət göstərir. Əvvəlki illərdə keçirilmiş seçkilərdə olduğu kimi, bu il Milli Məclisə keçiriləcək seçkilərlə bağlı bütün seçki məntəqələri tam telefonlaşdırılıb və dayanıqlı rabitə əlaqəsi ilə təmin edilib. Veb-kameralardan istifadə prosesində informasiya təhlükəsizliyinin qorunması əsas məqsədlərdən biridir və kibertəhlükəsizliyin təmin edilməsi sahəsində Azərbaycan rabitəsi böyük təcrübə qazanıb. Seçkilər zamanı müdaxilə hallarının qarşısının alınması məqsədilə müvafiq tədbirlər gücləndirilib, üçqat ehtiyatlılıq sistemi qurulub, eyni zamanda, bu istiqamətdə xarici tərəfdaşlarımızla yaxından əməkdaşlıq edilir ki, bu da ehtiyac yarandığı təqdirdə həmin partnyorlara avtomatik müraciət imkanlarını mümkün edəcək və bu istiqamətdə kömək göstərilməsinə şərait yaradacaq. Seçkilər dövründə teleradio yayımının yüksək səviyyədə təşkili və etibarlılığının təmin olunması məqsədilə ilk telekommunikasiya peykimiz olan "Azerspace-1"in yaratdığı bütün imkanlardan istifadə olunacaq.

Tədbirdə rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini İltimas Məmmədov 1 noyabr 2015-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərin müasir telekommunikasiya xidmətləri ilə təminatı istiqamətində görülmüş işlərlə bağlı geniş təqdimatla çıxış edib.

Mərkəzi Seçki Komissiyası və Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən birgə təşkil edilmiş tədbir çərçivəsində, həmçinin Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun və rabitə və yüksək texnologiyalar naziri Əli Abbasovun kütləvi informasiya vasitələrinin nümayəndələri üçün birgə brifinq keçirilib və media mənsubları tərəfindən ünvanlanmış suallar cavablandırılıb.

Qeyd edək ki, veb-kameralarla bağlı texniki hazırlıq işləri tamamilə yekunlaşmaq üzrədir. Veb-kameralar quraşdırılan seçki məntəqələrinin siyahısı MSK-nın qərarı ilə təsdiq olunduqdan sonra mətbuatda dərc olunacaq, eləcə də komissiyanın rəsmi internet səhifəsində yerləşdirilməklə ictimailəşdiriləcək.

## *MDB Müşahidə Missiyasının rəhbəri:* Azərbaycandakı seçki prosesi yüksək səviyyədədir

Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov MDB İcraiyyə Komitəsinin sədr müavini, MDB Müşahidə Missiyasının rəhbəri Vladimir Qorkun və missiyanın qərargahının başçısı Yevqeniy Sloboda ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Xələf Xələfov qarşıdan gələn parlament seçkilərinin demokratik və şəffaf mühitdə keçirilməsi üçün bütün zəruri tədbirlərin görüldüyünü deyib. O, seçkilərin müşahidə edilməsi üçün beynəlxalq tərəfdaşlara dəvətlərin göndərildiyini qeyd edib. Nazir müavini seçki prosesində müşahidə missiyalarının öz vəzifələrini maneəsiz yerinə yetirməsi üçün lazımi şəraitin yaradıldığını nəzərə çatdıraraq, MDB müşahidə missiyasının seçki prosesində fəal iştirak edəcəyinə əminliyini bildirib. O, xarici müşahidəçilərlə bərabər, seçkilərin çoxsaylı yerli müşahidəçilər tərəfindən də yaxından izlənəcəyi barədə məlumat verib.

MDB Müşahidə Missiyasının rəhbəri müşahidəçilər üçün yaradılmış şəraiti və seçki prosesini yüksək qiymətləndirdiklərini vurğulayıb. O, rəhbərlik etdiyi missiyanın seçkilərin müşahidəsini həyata keçirərkən obyektivlik, tərəfsizlik, siyasi qruplara dəstək verməmək və ölkənin daxili işlərinə qarışmamaq kimi prinsipləri əsas tutduğunu bildirib.

Vladimir Qorkun qarşıdan gələn seçkilərdə ölkəmizə uğurlar arzulayıb.

**AZƏRTAC**

## Zərdab regionun abad rayonlarından birinə çevrilib

Mərkəzi Aran zonasında Zərdabın özünəməxsus özəllikləri var. Kür, Göyçay və Türyançay çaylarının rayonun ərazisindən keçməsi burada əkinçiliyin inkişafı baxımından müsbət əhəmiyyətə malikdir. Qış və yay otlaqlarının mövcudluğu isə rayonda il boyu heyvandarlığın inkişafı üçün əlverişli şərait yaradır.



Ölkənin bütün bölgələrində gedən inkişaf, tikinti-quruculuq, abadlıq işləri Zərdabda da müşahidə olunur. Faktlar da bunu sübut edir. Təkcə cari ilin 9 ayı ərzində rayonda 63,4 milyon manatlıq məhsul istehsal edilib ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 1,5 milyon manat çoxdur.

2015-ci ilin "Kənd təsərrüfatı ili" elan olunması da bu sahənin inkişafına təkan verib. Rəqəmlərə nəzər salaq: 2015-ci ilin taxıl məhsulu üçün əkilmiş 16 min 730 hektar sahədən 49 min 850 ton məhsul götürülüb, məhsuldarlıq 29,8 sentnerə çatıb. Ötən ilin müvafiq dövrünə nisbətən məhsul istehsalı 118 ton, məhsuldarlıq 2,2 sentner artıb.





Hazırda rayonda taxılçılıq üzrə 4 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Bu təsərrüfatlarda son mövsüm 221 hektar sahədə toxumluq arpa və buğda əkilmişdi. Həmin sahələrdən məhsuldarlıq 32,7 sentner olmaqla 722 ton toxumluq taxıl yığılıb. Qarğıdalı və çəltik istehsalında da vəziyyət pis deyil. Yeri gəlmişkən, bu il kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını stimullaşdırmaq məqsədilə istehsalçılara 1,6 milyon manata yaxın subsidiya verilib. Bundan əlavə, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Ucar regional nümayəndəliyinin Zərdab bölməsi tərəfindən ilin əvvəlindən fermerlərə güzəştli şərtlərlə tələbata uyğun həcmdə gübrələr və maşın-texnika satılıb.

Vacib məsələlərdən biri də rayonda sahibkarlığın inkişafına diqqəti daha da artırmaq və özəl sektora dəstək verməkdir. Bu məqsədlə ilin əvvəlindən indiyədək Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına Zərdabda 19 layihə üzrə 234,2 min manat kredit verilib. Bu hesaba rayonda xeyli yeni iş yerləri açılıb. Ümumiyyətlə, Zərdabda işsizliyin aradan qaldırılması məsələsinə ciddi diqqət yetirilir. Təkcə cari ilin sentyabr ayında keçirilən "Əmək yarmarkası"nda 48 nəfər işlə təmin olunub. Ümumilikdə isə ilin əvvəlindən 190-ı daimi olmaqla 300-dən çox yeni iş yeri açılıb.

Qışa az qalıb. Belə bir vaxtda yaşayış məntəqələrinin qazlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Zərdabda da bu məsələ neçə vaxtdır ən çox diqqət yetirilən sahədir. Bunun nəticəsidir ki, ilin əvvəlindən Pərvanlı, Əlibəyli, Allahqulubağı, Gödəkqobu və Məmmədqasımlı kəndlərinə qaz çəkilib və beləliklə, 19 yaşayış məntəqəsinin qazlaşması başa çatdırılıb. Hazırda Qoruqbağı, Sarıqaya, Şəftəhal, Burunlu, Məlikli, Çallı, Körpükənd, Şahhüseynli, Birinci Alıcanlı, İkinci Alıcanlı kəndlərinə qaz çəkilir.

Əhalinin içməli suya olan tələbatının ödənilməsi istiqamətində də müəyyən işlər görülür. Bu məqsədlə əvvəlki illərdə modul tipli 17 sutəmizləyici qurğu, 194 bulaq istifadəyə verilib. Hazırda 4 kənddə modul tipli sutəmizləyici qurğular tikilir.

Bir sözlə, Zərdab həyata keçirilən layihələr, görülən işlər sayəsində inkişaf edən rayona çevrilib.

***Əli SƏLİMOV, "Azərbaycan"***

## Naxçıvanda seçkilərin şəffaf və demokratik şəraitdə keçirilməsi üçün hərtərəfli şərait yaradılıb

Seçkilərin yüksək səviyyədə təşkili üçün Naxçıvan Muxtar Respublikasında artıq zəngin təcrübə qazanılıb. Son illərdə keçirilən prezident, parlament və bələdiyyə seçkiləri də bir daha göstərib ki, ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikada vətəndaşların öz seçki hüquqlarından istifadəsi diqqət mərkəzində saxlanılıb. Bu, seçkilərdə iştirak edən xarici müşahidəçilər tərəfindən də təsdiq edilib.

Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə noyabr ayının 1-də keçiriləcək seçkilərə hazırlıqla bağlı görüləcək işlərlə tanış olmaq üçün Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasına müraciət etdik. Öyrəndik ki, seçki prosesinə start veriləndən bu günədək Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa əsasən, nəzərdə tutulan tədbirlər ardıcıllıqla həyata keçirilib.

Azərbaycan Respublikası Milli Məclisinə seçkilər üçün 7 seçki dairəsi üzrə 316, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üçün 45 seçki dairəsi üzrə də 316 məntəqə yaradılıb. Ümumilikdə, seçkilərdə 268 min 463 seçici iştirak edəcək. Onların 4 min 799 nəfəri ilk dəfə səs verənlərdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 135 nəfərin namizədliyi qeydə alınıb.

Azərbaycan Respublikası Milli Məclisinə seçkilər üzrə 4 saylı Naxçıvan şəhər dairə seçki komissiyasının tərkibində 37 məntəqə yaradılıb. Bu məntəqələrdə 43 min 955 seçici öz namizədinə səs verəcək. Onlardan ən yaşlısı 103 yaşlı Səriyyə Sadiqovadır. 674 nəfər isə ilk dəfə olaraq seçici hüququndan istifadə edəcək.

Dairə seçki komissiyasının sədri Cahangir Seyidovun sözlərinə görə, deputatlığa namizədlərin təşviqatı üçün açıq və qapalı yerlər ayrılıb, müəyyən olunmuş yerlərdə təşviqat lövhələri quraşdırılıb. Dairə üzrə 120 müşahidəçi qeydə alınıb. Seçkilərə 5 gün qalana kimi müşahidəçi olmaq istəyənlər müraciət edərlərsə, onların müraciətinə baxılacaq. 4 saylı Naxçıvan şəhər dairə seçki komissiyasının 10, 12, 15, 17 və 28 nömrəli məntəqələrində veb-kameralar quraşdırılıb. Bu da seçki prosesinin internet üzərindən izlənməsinə imkan verəcək.

Qeyd edək ki, bu dairə üzrə dairə seçki komissiyası qanunvericiliyə uyğun qaydada onun ərazisində fəaliyyət göstərən məntəqələrin seçkiyə hazırlığını tam təmin edib. Məntəqə üzvləri gündəlik olaraq Seçki Məcəlləsinə uyğun şəkildə hazırlıq işlərini aparırlar.

4-36 saylı seçki məntəqəsində də seçkilərə hazırlıq qənaətbəxşdir. Burada hazırlanmış məlumat lövhəsi vasitəsilə məntəqənin tərkibi, iş planı, vəzifə bölgüsü, deputatlığa qeydə alınmış namizədlərlə tanış olmaq mümkündür. Məntəqədə səs verəcək 1474 nəfər seçicinin siyahısı dəqiqləşdirilib. Onlardan 35 nəfəri ilk dəfə səs verəcək seçicilərdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə 25-5 nömrəli məntəqə seçki komissiyası Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki 16 nömrəli tam orta məktəbin binasında yerləşir. Məntəqə seçki komissiyasının sədri Məlahət Rüstəmova bildirdi ki, bu məntəqədə 1359 seçici səs verəcək. Onların 33 nəfəri ilk dəfə səs verənlərdir. M.Rüstəmova onu da diqqətə çatdırdı ki, məntəqə seçki komissiyası üzvlərinin maarifləndirilməsi məqsədilə müntəzəm olaraq treninqlər keçirilir və bu tədbir seçki gününə qədər davam etdiriləcək. İlk dəfə səs verənlərlə də maarifləndirici tədbir keçiriləcək. Seçkilərin şəffaf və demokratik şəkildə keçirilməsi üçün hərtərəfli şərait yaradılıb, məntəqələr lazım olan bütün avadanlıqlarla təchiz edilib. Artıq seçki gününü və yerini göstərən bildirişlər paylanılıb.

Qətiyyətlə demək olar ki, seçkilərin yüksək səviyyədə təşkili üçün muxtar respublikamızda artıq zəngin təcrübə qazanılıb. Son illərdə keçirilən prezident, parlament və bələdiyyə seçkiləri də bir daha göstərib ki, ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikada vətəndaşların öz seçki hüquqlarından istifadəsi üçün hər cür şərait yaradılıb. Bu, seçkilərdə iştirak edən xarici müşahidəçilər tərəfindən də dəfələrlə təsdiq edilib.

**AZƏRTAC**

## Xaçmaz şəhər seçki dairəsində ən yaşlı seçicinin 101 yaşı var

O, doğulanda Şərqdə qadının səs vermək hüququ yox idi. İlk dəfə Azərbaycan qadınlarının səs vermək hüququ əldə etdiyi Xalq Cümhuriyyəti dövründə isə cəmi 4-5 yaşı vardı. Söhbət noyabrın 1-də keçiriləcək Milli Məclisə seçkilərdə Xaçmaz rayonundan qeydə alınan ən yaşlı seçici Bibixanım Məmmədovadan gedir.

Ömrünün 101-ci payızını yaşayan Bibixanım Məmmədova 1914-cü ildə Xaçmaz rayonunun Ağyazı Buduq kəndində doğulub. İkinci Dünya müharibəsi illərində arxa cəbhədə iştirakına görə medallarla təltif olunan Bibixanım Məmmədova həm də "Qəhrəman ana"dır. Onun 8 övladı, 18 nəvəsi və 10 nəticəsi var.

Bu vaxtadək Azərbaycanda keçirilən seçkilərdə fəal iştirak edən Bibixanım Məmmədovanın indi yaşı ilə əlaqədar səhhətində problemlər yaranıb. Elə bu səbəbdən də son illərdə keçirilən seçkilərdə onun yaşadığı ünvana daşınan seçki qutusu gətirilib.

Noyabrın 1-də keçiriləcək Milli Məclisə seçkilərdə Bibixanım Məmmədova 55 saylı Xaçmaz şəhər seçki dairəsinin 27 saylı məntəqəsində səs verəcək. O, bu dairə üzrə yaşı 100-dən keçən yeganə seçicidir. Dairə üzrə yaşı 90-dan çox olan seçicilərin sayı 47, yaşı 80-dən yuxarı olan seçicilərin sayı isə 554 nəfərdir.

Ümumilikdə isə 55 saylı Xaçmaz şəhər seçki dairəsi üzrə 43 min 743 nəfər seçici qeydiyyatdadır.

**AZƏRTAC**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası haqqında Əsasnamə

**1.Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası (bundan sonra - Koordinasiya Şurası) tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunmasını və yüksək keyfiyyətlə daşınmasını təmin etmək məqsədi ilə yaradılmış kollegial icra hakimiyyəti orqanıdır.

1.2. Koordinasiya Şurası mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi və fiziki şəxslər tərəfindən dəmir yolları və dəniz nəqliyyatı ilə tranzit yükdaşıma, tranzit yüklərlə bağlı liman və nəqliyyat-ekspedisiya xidmətləri göstərilməsinə görə tariflərin dövlət tənzimlənməsini həyata keçirir, bu sahədə daşıma prosesinin bütün iştirakçılarının, o cümlədən sərhədkeçmə prosedurlarını həyata keçirən dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini təmin edir.

1.3. Koordinasiya Şurası öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.4. Koordinasiya Şurası öz fəaliyyətini mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, habelə hüquqi və fiziki şəxslərlə əlaqəli həyata keçirir.

**2. Koordinasiya Şurasının vəzifələri**

2.0. Koordinasiya Şurasının vəzifələri bunlardır:

2.0.1. tranzit yüklərlə bağlı vahid tarif siyasətinin həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə aşağıdakı sahələrdə tariflər müəyyən etmək:

1. dəmir yolu ilə tranzit yüklərin daşınması;

2. dəniz nəqliyyatı ilə tranzit yüklərin daşınması;

3. tranzit yüklərlə bağlı liman qurğularının istismarı, dəniz terminalları tərəfindən yükaşırma və dəniz limanında göstərilən digər xidmətlər;

4. bu Əsasnamənin 2.0.1-ci yarımbəndinin 1-ci - 3-cü abzaslarında göstərilən xidmətlər üzrə nəqliyyat-ekspedisiya xidmətləri.

2.0.2. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımaların bütün iştirakçılarının qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsini təmin etmək;

2.0.3. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımaların ahəngdarlığının, səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsinin təmin edilməsi üçün tədbirlər görmək;

2.0.4. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşıma müddətlərinin azaldılması, yükdaşımalar üzrə daşıma qaydalarının, şərtlərinin və prosedurlarının şəffaflaşdırılması, asanlaşdırılması və sadələşdirilməsi üzrə təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.5. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşıma müqavilələrinin bağlanması prosedurlarının şəffaflaşdırılması, asanlaşdırılması, elektronlaşdırılması və bu sahədə "bir pəncərə" prinsipinin tətbiqi məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsini təmin etmək:

1. tranzit yükün daşınması ilə əlaqədar müqavilənin bağlanması üçün daşıyıcılar və ya müştərilərdən birbaşa və ya ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları xidmətləri göstərən nəqliyyat müəssisələri vasitəsilə daxil olmuş müraciətlərin (o cümlədən elektron müraciətlərin) qəbulunu;

2. ölkə ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması şərtləri (vahid tariflər, müddətlər və s.) barədə məlumatın daşıyıcı şirkət və ya müştərilərə verilməsini;

3. daxil olmuş müraciətlərin koordinasiyası (razılaşdırılması) məqsədi ilə onların dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları, dəniz terminalları və nəqliyyat-ekspedisiya xidmətləri göstərən nəqliyyat müəssisələrinə göndərilməsini;

4. dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları, dəniz terminalları və nəqliyyat-ekspedisiya xidmətləri göstərən nəqliyyat müəssisələri ilə daşıyıcılar və ya müştərilər arasında tranzit yüklərin daşınması ilə bağlı razılaşdırılmış müqavilələrin bağlanması üçün şərait yaradılmasını;

5. dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində bağlanmış bütün müqavilələrin qeydiyyatının aparılmasını və tranzit yüklərin dövlət sərhədindən keçirilməsi üçün qeydiyyata alınmış belə müqavilələr haqqında məlumatların, habelə tranzit yükdaşımalarla bağlı daşıma sənədlərinin sərhəd xidməti və gömrük orqanlarına göndərilməsini;

6.tranzit yüklərin daşınması ilə bağlı bağlanmış müqavilələrin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları, dəniz terminalları və nəqliyyat-ekspedisiya xidmətləri göstərən nəqliyyat müəssisələri tərəfindən keyfiyyətli icrasının əlaqələndirilməsini;

7. dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiqinin prosedur qaydalarının müəyyən edilməsini.

2.0.6. dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə daşınan tranzit yüklərin Azərbaycan Respublikasının dövlət sərhədindən (sərhəd və gömrük nəzarətindən) keçməsi prosedurlarının asanlaşdırılması, şəffaflaşdırılması və elektronlaşdırılması məqsədi ilə bu sahədə tranzit yükdaşıma fəaliyyətini müvafiq dövlət orqanları ilə əlaqələndirmək;

2.0.7. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində nəqliyyat müəssisələrinin, daşıyıcıların, ekspeditorların və operatorların qarşılıqlı fəaliyyəti üçün vahid prinsiplərin və şərtlərin müəyyən olunması ilə bağlı təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.8. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində nəqliyyat infrastrukturunun inkişafı, daşıma proseslərini idarəetmə sistemlərinin təkmilləşdirilməsi və səmərəliliyin artırılması istiqamətində təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.9. tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması və yeni tranzit imkanlarının yaradılması məqsədi ilə təhlillər aparmaq, proqramlar hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.10. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımaların inkişafına maneələrin aradan qaldırılması ilə bağlı təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.11. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrinə uyğun istiqamətlərdə hüquqi aktların layihələrini hazırlamaq və aidiyyəti üzrə təqdim etmək, digər orqanlar tərəfindən hazırlanmış belə layihələrə dair rəy və təkliflər vermək;

2.0.12. ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində mövcud infrastruktur obyektlərinin potensialından maksimum istifadə edilməsi ilə bağlı təkliflər hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

2.0.13. tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması, yeni tranzit imkanlarının yaradılması və tranzit yükdaşımaların inkişafına maneələrin aradan qaldırılması məqsədi ilə dövlət orqan və təşkilatları, hüquqi və fiziki şəxslər, habelə xarici dövlətlərin müvafiq qurumları və tranzit təşkilatlar ilə əməkdaşlıq etmək;

2.0.14. Koordinasiya Şurasının qəbul etdiyi qərarların tətbiqinə dövlət nəzarətini həyata keçirmək, yol verilən nöqsanlarla bağlı qanunla müəyyən edilmiş məsuliyyət tədbirlərinin görülməsi üçün aidiyyəti üzrə müraciət etmək;

2.0.15. Koordinasiya Şurasının qəbul etdiyi qərarlarla bağlı şərh vermək;

2.0.16. haqsız rəqabətə şərait yaratmadan ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə həyata keçirilən tranzit yükdaşımalar sahəsində tariflər (qiymətlər) üzrə güzəştlər vermək;

2.0.17. dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yükdaşıma iştirakçılarının müraciətlərinə baxmaq, onların hüquqlarının müdafiəsi məqsədi ilə tədbirlər görmək, mübahisəli məsələlərin həlli ilə bağlı qərarlar qəbul etmək;

2.0.18. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet saytının yaradılmasını, siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan informasiyanın həmin saytda yerləşdirilməsini və informasiyanın daim yenilənməsini təmin etmək;

2.0.19. ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərini təşviq etmək.

**3. Koordinasiya Şurasının hüquqları**

3.0. Koordinasiya Şurası öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

3.0.1. bu Əsasnamə ilə müəyyən edilən vəzifələrinə uyğun olaraq görülən işlərə nəqliyyat bazarının iştirakçılarını cəlb etmək;

3.0.2. dövlət orqanlarından, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi, habelə fiziki şəxslərdən Koordinasiya Şurasının səlahiyyətlərinə aid olan məsələlərlə bağlı zəruri sənədlər və məlumatlar almaq;

3.0.3. Koordinasiya Şurasının fəaliyyətinə ekspert və məsləhətçilər cəlb etmək;

3.0.4. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrinin icrası ilə bağlı qərarlar qəbul etmək;

3.0.5. Koordinasiya Şurasının qərarlarının yerinə yetirilməsinin monitorinqini aparmaq və nöqsanların aradan qaldırılması üzrə tədbirlər görmək.

**4. Koordinasiya Şurasının fəaliyyətinin təşkili**

4.1. Koordinasiya Şurasının tərkibi (sədri və üzvləri) mərkəzi icra hakimiyyəti orqanlarının, digər dövlət idarə və təşkilatlarının nümayəndələrindən ibarət olmaqla, Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

4.2. Koordinasiya Şurasının sədri aşağıdakı vəzifələri yerinə yetirir:

4.2.1. Koordinasiya Şurasının fəaliyyətinin cari və perspektiv istiqamətlərini müəyyənləşdirir, onun fəaliyyət proqramını təsdiq edir və həyata keçirir;

4.2.2. Koordinasiya Şurasının fəaliyyəti ilə bağlı zəruri olan metodiki sənədləri, aktları, əmrləri, göstərişləri, məktubları və digər sənədləri imzalayır;

4.2.3. Koordinasiya Şurasının fəaliyyətinin təşkili ilə bağlı digər işləri həyata keçirir.

4.3. Koordinasiya Şurası üzvlərinin hüquq və vəzifələri aşağıdakılardır:

4.3.1. Koordinasiya Şurasının iclaslarında və fəaliyyətində iştirak etmək;

4.3.2. Koordinasiya Şurasının iclaslarının gündəliyi, eləcə də gündəliyə daxil edilmiş məsələlər barədə təkliflər vermək;

4.3.3. Koordinasiya Şurasının fəaliyyəti ilə bağlı digər işləri həyata keçirmək.

4.4.Koordinasiya Şurasının cari fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının Katibliyi (bundan sonra - Katiblik) tərəfindən həyata keçirilir.

4.5. Koordinasiya Şurasının gündəliyinə daxil edilmiş sənədlər adi hallarda 5 gün, təcili olduqda isə 2 gün müddətində Koordinasiya Şurasının üzvlərinə təqdim edilir və onlara Koordinasiya Şurasının iclasında baxılır.

4.6. Koordinasiya Şurasının iclasları aşağıdakı qaydada keçirilir:

4.6.1. Koordinasiya Şurasının iclasları onun üzvlərinin azı dörddə üçü iştirak etdikdə ixtiyarlı sayılır;

4.6.2. Koordinasiya Şurasının iclasları rübdə bir dəfədən az olmayaraq və ya Koordinasiya Şurası sədrinin və ya üzvlərinin müraciətinə əsasən keçirilir;

4.6.3. Koordinasiya Şurasının iclaslarında səsvermə açıq keçirilir və qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, Koordinasiya Şurası sədrinin səsi həlledicidir;

4.6.4. Koordinasiya Şurasının iclaslarında qəbul edilmiş qərarlar protokolla rəsmiləşdirilir, Koordinasiya Şurasının sədri və üzvləri tərəfindən imzalanır. Koordinasiya Şurasının iclaslarında bu Əsasnaməyə uyğun olaraq qəbul edilmiş qərarlar bütün dövlət və yerli özünüidarə orqanları, həmçinin fiziki və hüquqi şəxslər üçün məcburidir;

4.6.5. Koordinasiya Şurasının gündəliyinə daxil edilən məsələlər Koordinasiya Şurasının təsdiq etdiyi iş planı əsasında formalaşır;

4.6.6. Koordinasiya Şurasının gündəliyinə daxil edilmiş məsələlər barədə Koordinasiya Şurasının sədri və ya üzvlərindən biri məlumat verir;

4.6.7. Koordinasiya Şurasının hər bir iclasının reqlamentini, müzakirə olunacaq məsələlərdən asılı olaraq, Koordinasiya Şurasının sədri üzvlərin rəyini nəzərə alınmaqla müəyyənləşdirir.

4.7. Koordinasiya Şurasının iclaslarına dəvət olunan ekspert və məsləhətçilərin yalnız təkliflər vermək və müvafiq məsələlərə rəy bildirmək hüququ vardır.

4.8. Koordinasiya Şurasının iclaslarında baxılan məsələlər barədə məlumat Koordinasiya Şurasının sədri və ya onun razılığı ilə Katiblik tərəfindən kütləvi informasiya vasitələri və Koordinasiya Şurasının rəsmi internet saytı vasitəsilə yayılır.

4.9. Koordinasiya Şurasının yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının tərkibi

**Koordinasiya Şurasının sədri**

Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye naziri

**Koordinasiya Şurasının üzvləri:**

Aydın Əliyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Elçin Quliyev - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi
Qüdrət Qurbanov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi
Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini
Toğrul Musayev - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Cavid Qurbanov - "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri
Rauf Vəliyev - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri
Elşad Nəsirov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti
Taleh Ziyadov - "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Baş direktoru

# Azərbaycanda erkən nikah halları digər dövlətlərlə müqayisədə azdır



Oktyabrın 21-də Bakıdakı "Four Seasons" mehmanxanasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "dəyirmi masa" keçirilib.

"Dəyirmi masa"da BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Komitəsinin (CEDAW) Azərbaycan ilə bağlı son tövsiyələrinin icrası məsələləri müzakirə olunub. Eyni zamanda, CEDAW-ın tövsiyələrinin icrası istiqamətində ölkəmizdə görülən işlər haqqında məlumat verilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək erkən nikah, qadın zorakılığı, qadın hüquqlarının pozulması kimi aktual problemlərdən danışıb. Onun sözlərinə görə, Azərbaycanda erkən nikah halları digər dövlətlərlə müqayisədə azdır. Komitə sədri vurğulayıb ki, vətəndaşlar özləri erkən nikah hallarına qarşı çıxmayınca, rəsmi qurumların apardığı işlərin faydası olmayacaq.

H.Hüseynova son illərdə Azərbaycan qadınlarının əldə etdiyi nailiyyətlərdən də söhbət açıb. Diqqətə çatdırıb ki, Azərbaycanda diplomat qadınların sayı artaraq 181-ə çatıb. Ölkədə rayon icra hakimiyyəti başçılarının qadın müavinlərinin sayı artaraq 78-ə, qadın hakimlərin sayı isə 65-ə yüksəlib. Ədliyyə orqanlarında işləyənlərin 1153 nəfəri, rəhbər vəzifələrdə çalışanların 84 nəfəri, notarial orqanlarında çalışanların isə 40 nəfəri qadındır. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28, sahibkarlar arasında 19 faizdir. Bədən tərbiyəsi və idmanla məşğul olanların 39,8 faizi qadınlardır.

"Dəyirmi masada" BMT-nin Əhali Fondunun (UNFPA) Türkiyədəki nümayəndəsi, Azərbaycan, Gürcüstan və Ermənistan üzrə yeni təyin olunmuş regional direktoru Karl Kulessa qeyd edib ki, Azərbaycanda məişət zorakılığı ilə mübarizə üzrə qanun qəbul edilməsi təqdirəlayiqdir və mühüm bir addımdır. Həmçinin diqqətə çatdırıb ki, qanunun tam icra olunması da çox vacibdir.

O bildirib ki, qadınlara və qızlara qarşı zorakılıq insanlığın ən utancverici halıdır. İllər ərzində bir sıra ölkələr ya yeni qanunlar qəbul ediblər, ya da mövcud qanunları təkmilləşdiriblər. Lakin qanunların icrası ilə bağlı müəyyən problemlər var. Bir sıra ölkələr bu istiqamətdə öhdəliklərini yerinə yetirə bilmirlər. Bu istiqamətdə geniş tədbirlər həyata keçirilməli, qadınların səlahiyyətləri artırılmalıdır.

K.Kulessa vurğulayıb ki, dünyada qadınların 30 faizi fiziki və cinsi zorakılığa məruz qalır. Bu, ən çox Afrikada və Yaxın Şərqdə müşahidə olunur. Bu məsələlər siyasi müstəvidə həllini tapmalıdır. Siyasi iradənin olması və səhiyyə sahəsində qadınlara imkanların yaradılması olduqca vacib məsələlərdəndir. Onu da qeyd edib ki, qadınlara qarşı zorakılıq cəmiyyətdə qadınlara və kişilərə fərqli yanaşmadan irəli gəlir.

Tədbirdə UNFPA ilə Azərbaycan arasında əməkdaşlığın yaxşı səviyyədə olduğu və gələcəkdə bu əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb.

"Dəyirmi masa"da müxtəlif dövlət qurumlarının təmsilçiləri, QHT rəhbərləri və ictimai xadimlər iştirak ediblər.

***AZƏRTAC***

# Ümumtəhsil müəssisələrində yekun qiymətləndirmə üzrə təqvim planı təsdiq edilib

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə "2015/2016-cı tədris ilində ümumtəhsil müəssisələrinin şagirdləri haqqında məlumatların "Şagird-məzun" sisteminə daxil edilməsi və yekun qiymətləndirmənin aparılması ilə əlaqədar şəhər (rayon) təhsil şöbələri (təhsil idarələri) və təhsil müəssisələri tərəfindən yerinə yetiriləcək işlərin təqvim planını təsdiq edib. TQDK-dan AZƏRTAC-a bildirilib ki, şəhər (rayon) təhsil şöbələri, təhsil müəssisələrinin rəhbərləri və əlaqələndiriciləri yeni tədris ilinin təqvim planı ilə *http://tqdk.gov.az/news/school-leaving/1633/* linkində tanış ola bilərlər.

# Regional "Açıq qapı günü"- vətəndaş forumu keçirilib



Dövlət Sosial Müdafiə Fondu (DSMF) "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq, oktyabrın 21-də Lənkəran şəhərində növbəti regional "Açıq qapı günü" - vətəndaş forumu keçirib.

DSMF-nin ictimaiyyətlə əlaqələr sektorundan AZƏRTAC-a verilən məlumata görə, Lənkəran, Astara, Lerik, Masallı və Yardımlı rayonlarından olan məcburi dövlət sosial sığorta ödəyiciləri və pensiyaçıların qatıldığı "Sosial sığorta müavinətlərinin ödənişinin avtomatlaşdırılması" mövzusuna həsr olunan tədbirdə iştirakçıların sığorta-pensiya sisteminə dair çoxsaylı sualları cavablandırılıb, mövzu ilə bağlı ətraflı müzakirələr aparılıb.

Müzakirələrin gedişində DSMF-nin şöbə müdiri Famil Qədimov bildirib ki, çoxsaylı pensiyaçı və sığortaolunanlar kontingentinə qabaqcıl beynəlxalq təcrübəyə uyğun avtomatlaşdırılmış xidmətin təşkili məsələlərinin həllində fond öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. Müasir informasiya texnologiyalarından istifadə etməklə interaktiv və informativ elektron xidmətlər vasitəsilə əhalini maraqlandıran, sığorta-pensiya sisteminə aid bütün məsələlərə aydınlıq gətirilir. Bu sahədə ardıcıl tədbirlərin həyata keçirilməsi nəticəsində 2015-ci ilin 9 ayı ərzində fondun aparatına vətəndaşlardan daxil olan müraciətlərin sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 27 faiz azalıb.

F.Qədimov ölkəmizin sığorta-pensiya sistemində təqdim olunan elektron xidmətlərin pensiyaçılar, sığortaedənlər və sığortaolunanlar üzrə olmaqla üç istiqamətdə aparıldığını vurğulayıb və qeyd edib ki, hazırda fondun mərkəzi məlumat bazasında 1 milyon 293 minə yaxın pensiyaçı, 3 milyon 136 mindən çox sığortaolunan barədə müvafiq məlumatlar toplanıb. Bu da ölkə əhalisinin 45 faizindən çox hissəsini təşkil edir.

Forumda "Elektron hökumət" portalının statistikasına əsasən, DSMF-nin göstərdiyi elektron xidmətlərin ən çox istifadə olunan xidmətlər sırasında yer aldığı diqqətə çatdırılıb və bildirilib ki, fondun sosial sığorta haqları hesabına ödənilən müavinətlərlə bağlı sığortaedənlərə göstərdiyi elektron xidmətlər hər bir müavinət növü üzrə ayrıca təşkil olunub. Bu xidmətlər 5 növ müavinətlər üçün müraciətlərin elektron qaydada təqdim olunmasını nəzərdə tutur. Bunlar əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət, hamiləliyə və doğuma görə müavinət, uşağın anadan olmasına görə müavinət, uşağa qulluğa görə müavinət və dəfn üçün müavinətdir. Qeyd olunub ki, qüvvədə olan qanunvericiliyə əsasən, müavinətlərin təyin olunması işçinin işlədiyi sığortaedəndə fəaliyyət göstərən müvafiq komissiya tərəfindən yerinə yetirilir. Sonra zəruri sənədlər sığortaedən tərəfindən müraciətlə birgə elektron qaydada təqdim olunur və qeyd edilən sənədlər əsasında müavinətin bilavasitə işçinin plastik kart hesabına dərhal ödənişi həyata keçirilir.

Tədbirdə bildirilib ki, sığorta-pensiya sisteminin yeni inkişaf mərhələsində prioritet hədəflər Azərbaycan Respublikasının Prezidentinin 2014-cü il 4 noyabr tarixli sərəncamı ilə təsdiqlənən "2014-2020-ci illərdə pensiya təminatı islahatı konsepsiyası"nın çərçivəsində müəyyən olunub. Bu konsepsiya ölkəmizdə pensiya təminatı sisteminin formalaşmasında beynəlxalq inkişaf tendensiyalarının nəzərə alınması və pensiya təminatının daim yenilənən müasir tələblərə uyğunlaşdırılması, inkişaf etmiş ölkələrin bu sahədə təcrübəsindən istifadə edilməklə uzunmüddətli dövr üçün pensiyaçıların etibarlı sosial müdafiəsinə nail olunması məqsədi daşıyır.

Təqdimatla çıxış edən DSMF-nin əməkdaşı Azər Məmmədov tədbir iştirakçılarını fondun göstərdiyi elektron xidmətlər, eləcə də məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin təyin edilməsi, hesablanması və ödənilməsi ilə bağlı şərt və qaydalar, müavinətlərin təyin olunması üçün zəruri sənədlər, qanunvericilikdə müəyyən edilmiş tələblər barədə ətraflı məlumatlandırıb.

DSMF-nin digər əməkdaşı Elnur İbrahimovun fondun fəaliyyət istiqamətləri barədə çıxışından sonra diskussiyalarla davam etdirilən "Açıq qapı günü"- regional vətəndaş forumunda iştirakçıların mövzu ilə bağlı əlavə sualları cavablandırılıb, təklifləri müzakirə olunub.

Diskussiya şəraitində davam edən forumda iştirakçıların sosial sığorta müavinətlərinin ödənişinin avtomatlaşdırılmasına dair çoxsaylı sualları cavablandırılıb, mövzu ilə bağlı ətraflı müzakirələr aparılıb.

***AZƏRTAC***

# Maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir

> **“Korrupsiyaya və rüşvətxorluğa qarşı daha ciddi mübarizə aparılmalıdır...”**
> **“Bizim korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparmağa böyük siyasi iradəmiz var.”**
> **İlham ƏLİYEV**

Bu yazının başlığında Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda Prezident cənab İlham Əliyev tərəfindən söylənilmiş fikir öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, ölkə Prezidenti şəffaflığın artırılmasının vacibliyi barədə ilk dəfə deyildir ki, vurğulayır. Əksinə, cənab İlham Əliyevin dövlət quruculuğu və iqtisadi siyasətində şəffaflıq problemi prioritet istiqamətlərdən biridir. Bu, heç də təsadüfi deyil.

Beynəlxalq təcrübə göstərir ki, şəffaflığı yüksək olan maliyyə sisteminin səmərəliliyi şəffaf olmayan sistemdən qat-qat yüksək olur, iqtisadiyyatın idarə olunmasında səmərəli qərarların qəbul edilməsi, təkcə dövlətin deyil, eyni zamanda, sahibkarların və əhalinin mənafelərinin qorunması sahəsində real zəmin yaranır.

Digər tərəfdən, şəffaflığın artırılması və səmərəli nəzarət sisteminin yaradılması hər bir ölkədə sosial-iqtisadi inkişafın təminatının vacib ünsürlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir.

Şəffaflığın az olması bir tərəfdən korrupsiyanın yayılmasına zəmin yaradır, digər tərəfdən isə iqtisadi sərbəstliyin məhdudlaşmasına və əksinə, məmurların lüzumsuz, tələb olunandan da artıq funksiyalarının möhkəmlənməsinə səbəb olur.

Şəffaflıq olmadan nə səmərəli və dayanıqlı dövlət, nə də bazar iqtisadiyyatı mümkün deyil.

Xarici mütəxəssislərin hesablamalarına görə, birbaşa şəffaflığın məhsulu olan təkmil korporativ idarəetmə şirkətlərinin kapitallaşma səviyyəsi 20-40% yüksələ bilər.

Şəffaflıqdan danışarkən, onun dövlət idarəetmə sistemində, iqtisadiyyatda və hüquq-mühafizə orqanlarının fəaliyyətində mövcudluğu vəziyyəti ön plana gəlir. Bu baxımdan qonşu Rusiya mütəxəssisləri tərəfindən hesablanmış bir göstərici - dövlət xidmətində şəffaflıq indeksi maraq doğurur. Hesablamalar göstərmişdir ki, məmurların yalnız 26%-nin fəaliyyətində şəffaflıq müəyyən dərəcədə müşahidə olunursa, 74% məmurun cəmiyyətdən təcrid olunduqları aşkar edilmişdir ki, bu da yolverilməzdir.

İnkişaf etmiş ölkələrdə şəffaflıq (transparency) və hesabatlıq (accountability) dövlət idarəetməsinin mühüm və ayrılmaz alətləri kimi yüksək dəyərləndirilir.

Əgər şəffaflıq nəzərdə tutulmuş vaxtlarda informasiya (məlumatların hazırlanıb açıqlanmasına və ya tələb-sorğu əsasında təqdim edilməsini nəzərdə tutursa, hesabatlıq daha geniş anlama malikdir. Belə ki, hesabatlıq həm dövlət orqanlarının fəaliyyətində şəffaflığı, həm də dövlət orqanlarının strateji planlarının, siyasətinin və ölkədə həyata keçirilən işlərin əsaslandırılmasında iştiraklarını və məsuliyyətlərini özündə ehtiva edir. Hesabatlığı xarakterizə edən mühüm komponentlərdən biri də qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakının olmasıdır.

Möhtərəm Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən cəsarətli iqtisadi islahatlar konsepsiyası reallaşdırılarkən, müasir dünyada baş verən siyasi və iqtisadi-maliyyə çaxnaşmasının hökm sürdüyü indiki şəraitdə idarəetmənin mühüm vəsiləsi olan nəzarətin və korrupsiyaya qarşı mübarizənin rolu ikiqat artır. Heç də təsadüfi deyil ki, cənab Prezidentin imzaladığı fərman və sərəncamlarda maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsinə, təkmil nəzarət mexanizminin tətbiqinə və bütövlükdə maliyyə intizamının möhkəmləndirilməsinə böyük önəm verilir. Xatırlatmaq istərdik ki, hələ 24 noyabr 2003-cü il tarixdə imzaladığı “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” fərmanda cənab İlham Əliyev ölkənin sosial-iqtisadi problemlərinin həlli üçün ayrılan vəsaitin şəffaflığının qorunmasını, müəssisələrdə maliyyə intizamının möhkəmləndirilməsini və bu sahələrdə mövcud olan nöqsanların aradan qaldırılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdu.

Korrupsiya cəmiyyət üçün ciddi iqtisadi, siyasi və sosial təhlükə mənbəyi kimi çox qorxulu neqativ sosial hadisədir. Korrupsiyanın dağıdıcı təsiri hər şeydən əvvəl, hakimiyyətin bütün səviyyələrinin nüfuzunun aşağı düşməsinə və cəmiyyətin mənəvi əsaslarının korroziyasına gətirib çıxarır, “gizli iqtisadiyyatı”nı, ondan törəyən mənfi halların geniş yayılmasına zəmin yaradır.

Bütün bunlar isə son nəticədə beynəlxalq arenada ölkələrin nüfuzuna mənfi təsir göstərir. Ən təhlükəlisi isə son illərdə bir sıra ölkələrdə müşahidə edildiyi kimi, siyasi situasiyanın nəzarətdən çıxmasına və dövlətçiliyin pozulmasına gətirib çıxarır.

Rəqəmlərə müraciət edək. Ötən əsrin 90-cı illərində Amerika iqtisadçısı Paolo Mauro tərəfindən işlənib hazırlanmış model əsasında aparılmış hesablamalar göstərir ki, korrupsiya indeksinin 2,4 bal artması ölkənin iqtisadi inkişaf tempini 0,5 faiz azaldır (aşağı salır). Əksinə, korrupsiyanın 1 bal azaldılması ÜDM-in adambaşına düşən məbləğinin ildə təqribən 4600 ABŞ dolları artması ilə müşahidə olunur. Digər Amerika iqtisadçısı Şan-Çin Vayın hesablamalarına görə, ölkədə korrupsiya indeksinin bir bal kimi yüksəlməsi xarici investisiyaların 0,9 faiz azalması ilə müşahidə olunur.

Korrupsiyadan törəyən haqsız rəqabət amili də real iqtisadiyyatın inkişafına ciddi mane olur. Məhz bunun nəticəsində sahibkarlıq fəaliyyətində əsassız müdaxilə və manеə halları mümkün olur, istehlakçıların hüquqları pozulur.

Rusiyada aparılan hesablamalara görə, “otkat”lar ucbatından bu ölkədə ÜDM-in 20 faizi “itir”.

Korrupsiya dövlət vəsaitlərindən istifadənin səmərəliliyini də nəzərəçarpacaq dərəcədə aşağı salır.

Beynəlxalq qurumların araşdırmaları daha maraqlı asılılığı da üzə çıxarmışdır. 132 ölkənin timsalında korrupsiya səviyyəsi ilə onun rəqabətqabiliyyətliliyi arasında qarşılıqlı əlaqənin olduğu təsdiqlənmişdir. Belə ki, dünyada elə bir ölkə yoxdur ki, eyni zamanda həm yüksək korrupsiya səviyyəsinə, həm də yüksək rəqabətqabiliyyətliliyə malik olsun. Eyni zamanda az korrupsiyaya uğramış və rəqabətqabiliyyətliliyi aşağı olan ölkəyə də rast gəlinməmişdir. Hesablaşmalara görə, korrupsiyanın səviyyəsi ilə rəqabətqabiliyyətlilik arasında qarşılıqlı əlaqə (korrelyasiya) əmsalı 0,87 təşkil edir ki, bu da öz növbəsində, belə əlaqənin çox güclü olduğuna dəlalət edir. Başqa sözlə, korrupsiya rəqabətqabiliyyətliliyi (xüsusən də müəssisələr səviyyəsində) boğur və iqtisadi inkişafı onun səmt küləyindən məhrum edir. Təsadüfi deyil ki, korrupsiya bütün dünyada iqtisadiyyatın effektivliyinə təsir edən əsas amillərdən biri kimi qəbul olunur. Korrupsiyanın azaldılması rəqadətqabiliyyətliliyi artırır, kiçik, orta və iri biznesi inkişaf etdirir, inflyasiya səviyyəsini aşağı salır, yoxsulluğu azaldır, xalqın güzəranını yüksəldir ki, bu da yalnız iqtisadiyyatın səmərəliliyinin yüksək olması şəraitində mümkündür.

Korrupsiyaya qarşı mübarizədən danışarkən dövlət başçısı belə əməllərə yol verənlərə ciddi xəbərdarlıq etmişdir: “Hər bir vətəndaş bilməlidir ki, onun korrupsiya ilə bağlı əməlləri cəzasız qalmayacaqdır”. Bu xəbərdarlıq dövlət proqramlarının icrasına həsr olunmuş konfransda Prezidentin yekun çıxışında daha kəskinliklə ifadə olunmuşdur: “Burada heç kimdə immunitet yoxdur, olmayacaqdır. Dövlət məmuru xalqın xidmətçisidir. Xalqın birinci xidmətçisi mənəm və bütün dövlət məmurları belə işləməlidirlər. Ona görə, mən bir daha bunu demək istəyirəm ki, növbəti illərdə də rüşvətxorluğa bulaşmış insanlar çox ciddi şəkildə cəzalandırılacaqlar. Kimsə nəticə çıxarmayıbsa, nəticə çıxarsın. Növbəti beş il ərzində Azərbaycan korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə də nümunəvi ölkə olmalıdır”. Bir qədər əvvəl isə dövlət başçısı belə bir fikir səsləndirmişdir: “Şəffaflıq, təmizlik, dürüstlik həyat tərzi olmalıdır”.

## Görülmüş işlər və əldə olunan uğurlar

Azərbaycanda iqtisadi inkişaf modelini səciyyələndirən xüsusiyyətlərdən biri idarəetmə sistemində və bütövlükdə iqtisadi-sosial həyatda şəffaflıq amilinə xüsusi önəm verilməsidir.

Sosial-iqtisadi inkişafın unikal Azərbaycan modelinin reallaşması sayəsində Azərbaycan iqtisadiyyatı inkişaf tempinə görə dünya liderlərindən birinə çevrilmişdir. Azərbaycan dünyada çox etibarlı ölkə və etibarlı tərəfdaş kimi tanınmış, onun dünya iqtisadi sisteminə inteqrasiyası güclənmişdir.

Azərbaycan Respublikasının sürətlə inkişaf edərək özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə gəlib çatması və MDB məkanında ilk olaraq bazar iqtisadiyyatına keçid prosesinin başa çatmasını bəyan etməsi də məhz bu inkişaf modelinə əsaslanır.

Mübaliğəsiz demək olar ki, əldə edilən uğurlar ulu öndər Heydər Əliyevin iqtisadi strategiyasını uğurla davam etdirən və təlatümlü dünya iqtisadi məkanında Azərbaycanın milli maraqlarının qorunmasına, ölkəmizin təbii sərvətlərindən xalqın rifahı naminə səmərəli istifadə edilməsinə, regionların tərəqqisinə rəvac verən möhtərəm Prezident İlham Əliyevin cəsarətli və uzaqgörən siyasətinin nəticəsi kimi qiymətləndirilməlidir.

Azərbaycanda daxili təhlükəsizliyin təmin olunması, dövlətin beynəlxalq risk və təhdidlərə cavab vermə qabiliyyətinin gücləndirilməsi, cinayətkarlıq və korrupsiyaya qarşı mübarizə, hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, qanunvericilik və institusional islahatların, milli təhlükəsizlik amilləri nəzərə alınmaqla reallaşdırılmasına xüsusi önəm verilmişdir. Məhz belə bir yanaşmanın nəticəsidir ki, sürətlə artan neft və qaz gəlirlərindən həddən artıq asılılıq baş verməmiş, makroiqtisadi tarazlıq daha da möhkəmlənmiş və beləliklə, ölkənin potensial qlobal və regional iqtisadi böhranların təsirinə qarşı etibarlı müdafiəsi təmin olunmuşdur. Bütün bunlar idarəetmənin gücləndirilməsi, sistemli risklərin iqtisadi həyata mənfi təsirinin azaldığı bir əsasda mümkün olmuşdur.

Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin nəticəsidir ki, iqtisadiyyatın diversifikasiyası istiqamətində son illərdə mühüm nailiyyətlər əldə edilmiş və qeyri-neft sektorunun ümumdaxili məhsulda payı 70 faizə yaxınlaşmaqdadır.

Faktlar göstərir ki, neftçıxaran və ixracında neftin payı daha çox olan bir sıra ölkələrdə şəffaflığın azlığı hökuməti iqtisadiyyatın şaxələnməsi istiqamətinə səmtləndirməmiş, yoxsulluq səviyyəsinin aşağı salınmasına ciddi təsir göstərməmiş, əksinə, onlar əksər hallarda iqtisadi-maliyyə böhranı ilə üzləşmiş, əhalinin rifah halı pisləşmişdir.

Azərbaycanda isə Prezident İlham Əliyevin vurğuladığı kimi: “Bizim vəzifəmiz - bunu biz artıq neçə ildir ki, bəyan etmişik, - ondan ibarətdir ki, yoxsulluq bir fenomen kimi Azərbaycandan tamamilə yığışdırılsın. Biz bu sosial bəlanı aradan götürməliyik. Yoxsulluq Azərbaycanda aşağı səviyyədədir - 5 faiz səviyyəsindədir. Ümumiyyətlə, olmamalıdır və əminəm ki, biz gələcək illərdə buna daha da yaxınlaşacağıq”.

İndiki şəraitdə ümumi nəzarətin mühüm bir qolu olan maliyyə nəzarətinin rolu ikiqat artır.

Məhz mükəmməl maliyyə nəzarətinin mövcudluğu:

1) idarəetmədə optimal qərarların qəbul edilməsi və normal fəaliyyətin təmin olunmasına əsas verən informasiya bazasının formalaşmasına (informasiya funksiyası);

2) mövcud nöqsan və çatışmazlıqların üzə çıxarılması ilə yanaşı, onların gələcəkdə təkrar olunmamasına zəmin yaratmaq (profilaktik funksiya);

3) təsərrüfat subyektlərinə bütün ehtiyat və vəsaitlərdən səmərəli və məqsədyönlü istifadə edilməsi istiqamətində öhdəliklərə əməl edilməsi (səfərbəredici funksiya);

4) məsul şəxslərə qanunvericiliyin tələblərinə ciddi əməl edilməsi və öz öhdəliklərinin dəqiq yerinə yetirilməsi sahəsində tələblər aşılanması (tərbiyəvi funksiya).

Ölkəmizdə mövcud olan maliyyə nəzarəti sistemində hələ də aradan qaldırılmamış təkrarçılıq və paralelizm hallarına qarşı və nəzarət qurumları arasında koordinasiyanın yaxşılaşdırılmasına yönəlmiş bu tədbirin əhəmiyyəti çox böyükdür. Bu problemi həll etmək üçün fikrimizcə, bir tərəfdən nəzarət orqanlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi tələb olunursa, digər tərəfdən də bu qurumlar arasında qarşılıqlı əlaqə və tənzimlənmənin qurulmasına nail olunmalıdır. Bu mənada, hakimiyyətin müxtəlif qollarına aid olan, habelə qeyri-dövlət strukturlarının fəaliyyətində metodoloji, tənzimləyici, etik və informasiya aspektlərini özündə ehtiva edən kollegial bir ictimai orqanın yaradılması aktuallıq kəsb edir. Bu sahədə xarici təcrübədən bəhrələnmək yerinə düşərdi.

Ölkəmizdə maliyyə şəffaflığı probleminin həllinə nail olmaq üçün aşağıdakıların həyata keçirilməsini məqsədəmüvafiq hesab edirik:

- **birincisi**, maliyyə nəzarəti və audit sahəsində qanunvericiliyin təkmilləşdirilməsi;
- **ikincisi**, nəzarətedici orqanların yoxlamalarının birləşdirilməsi yolu ilə onların sayının azaldılması;
- **üçüncüsü**, nəzarət orqanları arasında peşə və texniki informasiya mübadiləsinin gücləndirilməsi;
- **dördüncüsü**, dövlət maliyyə nəzarətinin və auditin aktual problemlərinə həsr olunmuş konqreslərin, konfrans və seminarların keçirilməsi;
- **beşincisi**, ictimaiyyətin və dövlət orqanlarının marağını stimullaşdırmaq məqsədilə yoxlamaların nəticilərinə dair informasiyaların dərc etdirilməsi və yayılması;
- **altıncısı**, nəzarətə və maliyyə hesabatlarına dair beynəlxalq standartların yaradıcılıqla tətbiq edilməsi;
- **yeddincisi**, maliyyə nəzarətinə dair beynəlxalq tədbirlərin materiallarının və standartlarının Azərbaycan dilinə tərcümə edilməsi və yayılması;
- **səkkizincisi**, peşə təhsili məsələlərinə dair informasiya-analitik xarakterli materialların hazırlanması və yayılması;
- **doqquzuncusu**, bütün iri qurumlarda, o cümlədən ayrılmış məqsədli büdcə vəsaitinin təyinatı üzrə istifadə edilməsi üzərində nəzarətin həyata keçirilməsi məqsədilə müvafiq mərkəzi icra hakimiyyəti orqanlarında daxili auditin təşkili;
- **onuncusu**, beynəlxalq tələblər səviyyəsində fəaliyyət göstərmək iqtidarında olan peşəkar auditorların və maliyyə nəzarətçilərinin hazırlanması, onların beynəlxalq sertifikatlaşdırılması və ixtisas səviyyəsinin daim artırılması;
- **on birincisi**, beynəlxalq əlaqələrin gücləndirilməsi, peşəkar maliyyə nəzarətçilərinin etika komissiyasının yaradılması və bu qəbildən olan həlli vacib digər problemlər.

Bir daha “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın “Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması” adlı 6-cı bölməsinin 6.1-ci bəndində layihəsinin hazırlanması nəzərdə tutulan “Maliyyə nəzarəti haqqında” qanun üzərində ilk olaraq dayanmaq istərdik.

Fikrimizcə, hazırlanacaq qanun layihəsində maliyyə nəzarətinin nəticəliliyinin, şəffaflığının və aşkarlığının, obyektivliyinin və səriştəliliyinin, müstəqilliyinin və təsirliliyinin, iqtisadi inkişafa və təhlükəsizliyə təminatının əsas istiqamətləri, maliyyə nəzarətinin hüdudları, forma və metodları, nəzarət qurumlarının hüquqi statusu, maliyyə nəzarəti orqanları ilə digər dövlət idarəetmə orqanlarının əlaqələrinin təkmilləşdirilməsi, maliyyə nəzarəti sahəsində maraqların toqquşmasının qarşısının alınması, habelə nəzarət qurumlarının fəaliyyətinin iqtisadi mexanizmləri müəyyən edilməlidir.

Maliyyə nəzarətinin normativ hüquqi bazası hazırlanarkən nəzarətin əsas məqsədi kimi maliyyə vəsaitlərindən gələcəkdə daha səmərəli və şəffaf istifadə edilməsi əsas götürülməli, bu sahədə analitik prosedurların daha geniş tətbiqinə diqqət yetirilməlidir. Bu məqsədlə maliyyə nəzarətçilərinin investisiya layihələrinin və biznes-planların araşdırılması üzrə səlahiyyətləri təsbit olunmalı, konkret vəzifə və məsuliyyətləri müəyyənləşdirilməlidir.

Maliyyə nəzarətçiləri və auditorların məsuliyyətinin artırılması üzrə müddəaların da qanunvericilikdə daha aşkar təsbit olunması məqsədəuyğun olardı.

Dünya praktikasından məlumdur ki, digər sahələrdə olduğu kimi, nəzarət də yalnız bir qurum tərəfindən yox, nəzarətin müxtəlif növlərə ayrılan dövlət və qeyri-dövlət nəzarəti formaları əsasında həyata keçirilir.

Qeyd etmək lazımdır ki, nəzarətin dövlət və qeyri-dövlət nəzarət formaları arasında və eyni zamanda bu formalara daxil olan nəzarətin növləri arasında qarşılıqlı əlaqə və dəqiq səlahiyyət bölgüsünün bərqərar edilməsi bütövlükdə nəzarət sisteminin səmərəliliyinin gücdəndirilməsi və şəffaflığın artırılması üçün mühüm zəmin yaratmış olur.

Bu zərurət, ilk növbədə, aşağıdakı faktorlarla əlaqədardır:

1) Dövlət maliyyə nəzarəti ilə qeyri-dövlət nəzarəti arasında ciddi fərqlər mövcud olsa da, onların hər ikisinin məqsədi idarəetmənin və bütövlükdə iqtisadiyyatın bütün səviyyələrində maliyyə intizamının səviyyəsinin yüksəldilməsi və idarəetmənin keyfiyyətinin artırılması durur.

2) Mülkiyyət çoxnövlülüyünün mövcudluğu və özəl bölmənin iqtisadiyyatda mövqeyinin artdığı indiki şəraitdə (hazırda ÜDM özəl bölmənin payı Azərbaycanda 84 faiz təşkil edir) dövlət nəzarətinin mövcudluğu ilə yanaşı, qeyri-dövlət nəzarətinin daha geniş tətbiqi tələb olunur.

3) Ölkədə həyata keçirilən inzibati islahatların daha düzgün tənzimlənməsi dövlət və qeyri-dövlət maliyyə nəzarəti arasında düzgün mütənasibliyin və qarşılıqlı əlaqələrin mövcudluğunu tələb edir.

İnkişaf etmiş ölkələrdə nəzarətin bu iki forması arasında səmərəli və təkmil qarşılıqlı əlaqələr bərqərar olmuşdur. Dövlət nəzarəti qeyri-dövlət formasının potensialından getdikcə daha geniş istifadə edir, onları dövlət maliyyə nəzarətinin ayrı-ayrı funksiyalarının həyata keçirilməsinə cəlb edir. Məsələn, ABŞ-da xüsusi təftiş kompaniyaları (ictimai mühasib şirkətləri) dövlətdən ayrı-ayrı təşkilatlarının nəzarət sahəsində böyük rol oynayırlar. Belə ki, ABŞ-ın Baş Büdcə Nəzarət İdarəsi belə ictimai mühasib firmalarını və auditorları öz adından maliyyə sənədlərinin təftişi və araşdırılması üçün işə cəlb edir. bu zaman qeyri-dövlət nəzarətinin nümayəndələri Baş Büdcə Nəzarət İdarəsinə birbaşa hesabat verirlər. Bu idarə isə yoxlamanın nəticələrinə dair bütün məsuliyyəti öz üzərinə götürməklə (həqiqi icraçıların adları göstərilə bilər) hesabat verir .

Fransada da müstəqil auditor təşkilatları dövlət maliyyə nəzarətində müəyyən rol oynayır. Belə ki, bütün dövlət şirkətlərinin hesablarının təsdiqlənməsi özəl auditorlar tərəfindən həyata keçirilir. Onların nəticələri isə ölkənin baş ali maliyyə nəzarəti orqanına (Hesablama Palatasına) təqdim edilir.

Qabaqcıl dünya təcrübəsində dövlət nəzarəti ilə daxili nəzarət sistemi, o cümlədən daxili audit arasında mühüm əlaqələr təşəkkül tapmışdır. Məsələn, Avropa İttifaqının Hesablama Palatası öz fəaliyyətini həyata keçirərkən yoxlanılan təşkilatların daxili nəzarət sistemlərinin məlumatlarından geniş istifadə edir.

Böyük Britaniyanın Milli Nəzarət İdarəsi dövlət maliyyə vəsaitlərindən istifadənin səmərəliliyini yoxlayarkən daxili nəzarət və daxili auditin mövcudluğuna, təşkilatın rəhbərinə idarə etmək üçün zəruri olan informasiyaların hazırlanıb vaxtında təqdim edilməsinə xüsusi önəm verir.

Kanadanın baş təftiş təşkilatı daxili nəzarət və daxili audit sisteminin nə dərəcədə düzgün fəaliyyət göstərməsindən asılı olaraq yoxlanılan təşkilatlarda öz işini seçmə qaydasında qurur.

Qeyd etmək lazımdır ki, “Azərbaycan Respublikasının Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununda, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda, “Azərbaycan Respublikası Silahlı Qüvvələrin Yardım Fondu haqqında” Əsasnamədə, “Milli Televiziya və Radio Şirkəti haqqında” Əsasnamədə, “Azərbaycan Respublikası Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondu haqqında” Əsasnamədə və digər qanunvericilik və normativ sənədlərdə müstəqil auditin dövlət nəzarəti çərçivəsində tətbiqi müddəaları nəzərdə tutulmuşdur. Məsələn, “Hesablama Palatası haqqında” qanunun 17-ci maddəsində göstərilir ki, “Hesablama Palatası öz səlahiyyələrini həyata keçirərkən qarşılıqlı razılıq əsasında dövlət hakimiyyəti orqanlarının nümayəndələrini, habelə müqavilə əsasında müstəqil auditorları, ayrı-ayrı mütəxəssisləri cəlb edə bilər”.

Fikrimizcə, belə redaktə göstərilən tərəflər arasında qarşılıqlı əlaqənin heç də bütün cəhətlərini tam işıqlandırmır və qanunvericilikdə bu əlaqələrin yaradılması qaydası, müstəqil auditorlar cəlb edilən nəzarətin istiqamətləri, məsuliyyət mexanizmi, ödəniş proseduru və digər bir sıra məsələlər öz həllini tapmalıdır. Bu zərurət digər dövlət nəzarət qurumlarının öz aralarında və dövlət nəzarəti orqanları ilə müstəqil auditorların qarşılıqlı əlaqələrinin qaydaya salınması və təkmilləşdirilməsi işini aktuallaşdırır. Bu mənada xüsusi bir əsasnamənin hazırlanıb təsdiq edilməsinə böyük zərurət vardır. Bu sənəddə, ilk növbədə, qeyri-dövlət nəzarətçilərinin (o cümlədən müstəqil auditorların) dövlət nəzarəti orqanları nümayəndələri ilə birgə fəaliyyətdə rəftarlarının prinsipləri, habelə yoxlama materialları üzrə mübahisəli məsələlərin razılaşdırılmış qaydaları və digər məsələlər öz həllini tapmışdır. Nəzarət sisteminin nümayəndələrinin iştirakı ilə “dəyirmi masa”ların, konfrans və digər işgüzar görüşlərin təşkili də nəzarətin şəffaflığının artırılmasında daha önəmli rol oynaması işində, nəzarətin səviyyəsinin yüksəldilməsi sahəsində mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir.

Qeyri-dövlət nəzarətinin mühüm qollarından biri olan ictimai nəzarətin inkişaf etdirilməsi ideyası və zərurəti də Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən ilk olaraq vurğulanmışdır: “... Qəbul olunmuş bütün qərarlar vaxtlı-vaxtında icra edilməli və ciddi ictimai nəzarət olmalıdır. Biz siyasi islahatları aparmaqla yanaşı, güclü ictimai nəzarətə də diqqət göstəririk ki, dövlətin, hökumətin bütün addımları xalq tərəfindən izlənilsin, ona güclü təhlil verilsin. Lazım gələrsə, müəyyən islahatlarda düzəlişlər də edilməlidir. Geniş müzakirələr keçirilmədən biz buna nail ola bilmərik”.



Başqa bir misal: Azərbaycan Prezidenti cənab İlham Əliyev 2008-ci il aprelin 14-də Nazirlər Kabinetinin 2008-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında bir daha vurğulamışdır ki, “Əgər ciddi ictimai nəzarət olmasa, əgər Azərbaycanda ciddi siyasi demokratik təsisatlar yaranmasa, bizim uğurlarımız yarımçıq ola bilər və uzunmüddətli olmayacaqdır”.

Nəzarətsiz hakimiyyət korrupsiyaya uğrayır, səmərəsiz işləyir və zor alətlərindən sui-istifadə edir. İctimai nəzarət mexanizmi ictimaiyyətə imkan verir ki, qərarların qəbul edilməsi mərhələsində olduğu kimi, həyata keçirilməsi və əldə edilmiş nəticələrin qiymətləndirilməsi mərhələsində də hakimiyyətə nəzarət etsin. Məhz buna görə, bu il 28 May - Respublika Günü münasibətilə təşkil edilmiş rəsmi qəbulda Prezident İlham Əliyev bir daha vurğulamışdır ki, “İdarəetmə sahəsində müsbət islahatlar aparılır. Mən burada ictimai nəzarətin əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm... İctimai nəzarət olmasa ölkəmiz uğurla inkişaf edə bilməz”.

Siyasi-hüquqi sistem çərçivəsində mütəşəkkil və məqsədyönlü şəkildə həyata keçirilən ictimai nəzarət vətəndaşlarla dövlət arasında meydana çıxan problemləri tamamilə sivil qaydada, qanunla müəyyən edilmiş qarşılıqlı təsir və qarşılıqlı məsuliyyət kanallarından istifadə etmək yolu ilə həll etməlidir, çünki ictimai nəzarət Konstitusiyada bəyan edilmiş xalq hakimiyyəti prinsipinin həyata keçirilməsinin vacib şərtidir.

Lakin bu da həqiqətdir ki, ictimai nəzarətin baş tutması hər birimizdən də çox asılıdır. Prezidentin qeyd etdiyi kimi: **“Əlbəttə, vətəndaşlardan da çox şey asılıdır. Mən dəfələrlə çıxışlarımda vətəndaşlara müraciət edərək onları daha fəal olmağa çağırmışam”.**

Vətəndaş cəmiyyəti məsləhətləşmələrdə və müzakirələrdə fəal iştirak etmək əzmində olmalı, dövlət orqanları isə belə iştirakın mexanizmini hazırlamaqla, müxtəlif yanaşma və təklifləri nəzərə almalı, bu və ya digər qərarın qəbulunu əsaslandırmalıdır.

## TƏKLİFLƏR

Bir sıra ölkələrdə iqtisadi sahələr və regionlar üzrə şəffaflıq reytinqinin müəyyənləşdirilməsi təcrübəsinin Azərbaycanda tətbiqi də maraqlı olardı. Sahibkarlıq mühitinin yaxşılaşdırılmasına və yersiz müdaxilə və hüqüqpozmaların müəyyənləşdirilməsi baxımından tənzimləyici qurumlar və regionlar aspektindən investisiya mühitinin qiymətləndirilməsi və açıqlanması da mühüm əhəmiyyət kəsb edir.

Müasir şəraitdə Azərbaycan iqtisadiyyatı qarşısında duran və təxirəsalınmaz həllini gözləyən ən mühüm məsələlərdən biri iqtisadi subyektlərdə şəffaflığın təmin olunmasıdır. Bu isə öz növbəsində hesabatlığın vəziyyəti ilə bağlıdır. Buna görə də təsərrüfat subyektlərində hesabatların hazırlanması, qanunvericiliklə müəyyən olunmuş müvafiq orqana təqdim edilməsi, baxılması və zəruri hallarda ictimaiyyətə aşkarlanması, müstəqil auditin aparılması, tam, dəqiq və dolğun etibarlı informasiyanın maraqlı tərəflərə, o cümlədən investorlara çatdırılması istiqamətində beynəlxalq təcrübədən bəhrələnməklə görüləsi işlər canlandırılmalıdır.

Maliyyə resurslarından istifadənin yaxşılaşdırılmasının ən mühüm istiqamətlərindən biri kimi səmərəlilik auditinin genişləndirilməsi böyük əhəmiyyət kəsb edir. Fikrimizcə, bu sahədə iş daha da canlandırılmalı, səmərəlilik auditi ilə ilk növbədə böyük investisiyaların qoyulduğu sahələr əhatə olunmalı, onların nəticələri müvafiq qurumlara dövlət xərclərinin səmərəliliyini yüksəltməyə yardım göstərməlidir.

Auditdən yayınma - bu, korrupsiyaya şərait yaradan halların mövcudluğu, bilavasitə korrupsiya halları, çirkli pulların yuyulması və digər neqativ hallar deməkdir. Bu problemə xüsusi diqqət yetirilməsi birinci dəfə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 noyabr tarixli fərmanında öz əksini tapmışdır. Ötən 10 il ərzində cənab İlham Əliyev bu problemin həlli istiqamətində hüquqi-institusional tədbirlərin həyata keçirilməsini tələb etsə də, müstəqil auditə qarşı qısqanclıq və onun digər əsassız yoxlamalarla bilərəkdən eyniləşdirilməsi dünyada çox mühüm bazar iqtisadiyyatı infrastrukturu və şəffaflığın təminatçısı kimi qiymətləndirilən auditin Azərbaycanda genişlənməsinə imkan vermir. Halbuki möhtərəm Prezident həmişə auditi yüksək dəyərləndirmiş və diqqət yetirmişdir.

Auditorlar Palatasının fəaliyyətinin 10 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hələ 2006-cı ilin aprel ayında Auditorlar Palatasının kollektivinə və üzvlərinə ünvanladığı təbrik məktubunda qeyd etmişdir ki, Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü il dekabrın 8-də keçirilən müşavirədə çıxış edərkən demişdi: “Respublikamız ağır bir dövr keçirir, iqtisadiyyat böhran vəziyyətindədir. Maliyyə bizim üçün əsaslı bir sahədir. Əgər bu sahədə işləyən şəxslər ayrı-ayrı kooperativlərin, assosiasiyaların, şirkətlərin mənafeyini, yaxud da onlarla əlaqəli olaraq öz şəxsi mənafelərini ölkənin, xalqın, dövlətin mənafeyindən üstün tutursa və cürbəcür qeyri-qanuni yollarla gedirlərsə, bütün bunlar dəhşət doğurur və bir daha sübut edir ki, son illərdə respublika iqtisadiyyatının, çox mühüm sahə olan maliyyənin dağılmasının, böhran halına düşməsinin səbəbləri də birinci növbədə buradadır”.

Şükürlər olsun ki, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz hətta son illərdə dünyada hökm sürən maliyyə-iqtisadi böhran şəraitində durmadan inkişaf etmək əzmindədir və ölkə Prezidentinin qeyd etdiyi kimi: “İslahatlar daha da dərinləşməlidir. İqtisadi islahatlar nəticəsində artıq böyük işlər görülüb. Bunu beynəlxalq qurumlar da qeyd edir. Davos Dünya İqtisadi Forumu Azərbaycanı yenə də çox yüksək pilləyə layiq gördü. Ölkələrin iqtisadiyyatlarının rəqabət qabiliyyətliliyinə görə Azərbaycan 40-cı yerdədir. MDB məkanında yenə də birinci yerdədir və bu, əslində, görülən işlərin bariz nümunəsidir. Biz çalışmalıyıq ki, iqtisadi islahatları daha da dərinləşdirək və iqtisadiyyatı liberallaşdırmaq üçün əlavə tədbirlər görək.

“Fitch” reytinq agentliyinin də yüksək qiyməti bizi sevindirir. Bu, ədalətli yanaşmadır. Azərbaycanda görülən işlərin nəticəsidir ki, “Fitch, - baxmayaraq, bölgədə iqtisadi-maliyyə böhranı davam edir və dərinləşir, - Azərbaycana iqtisadi sahədə 3B investisiya reytinqini vermişdir. 3M reytinqi çox yüksək nəticədir. Ancaq biz çalışmalıyıq ki, daha da yüksək reytinqlərə nail olaq. Hesab edirəm ki, görüləcək əlavə tədbirlər nəticəsində biz buna da nail olacağıq”.

Fikrimizcə, görüləcək tədbirlər sırasında şəffaflığın artırılması və korrupsiyaya qarşı sistemli mübarizə öz mövqeyini daha da gücləndirəcək və Azərbaycanın şərəfli inkişaf yolu möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam edəcəkdir.

***Vahid NOVRUZOV,***
***Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor***




## Tarix olduğu kimi

# Zəngəzur dağlarında

*"...İkimərtəbəli evin qabağında böyük bir izdiham vardı. Öz aralarında kədərli-kədərli danışan, cır-cındalı adamlar nə isə bir xəbər gözləyirdilər. Bir xeyli keçəndən sonra 58-60 yaşlarında, orta boylu, rus generalı paltarında bir adam içəridən balkona çıxdı. Onu görən kimi hamı: - Andronik paşa! Andronik paşa! - deyə əl çaldı. Andronik əlini qaldırıb onların sakit olmalarına işarə etdi. Hamı sakit olub, gözünü ona dikdi. Andronik dedi: - Qaxdaqanlar! Elindən, kəndindən ayrı düşmüş ermənilər! Mən sizin dərdinizi bilirəm. Yaşamağa eviniz, əkməyə torpağınız, yeməyə çörəyiniz yoxdur. Siz onları Ərdəhanda, Qarsda, Sarıqamışda qoydunuz. Burda isə sizin dərdinizə ağlayan, qeydinizə qalan yoxdur. İndi məndən kömək istəməyə gəlmisiniz. Mən əlimdən gələni edəcəyəm. Mən türklərdən Türkiyədə intiqam ala bilmədimsə, Qafqazda, bax, bu Zəngəzurda alacağam. Gözləyin, o günü gözləyin!..."*

Bu sətirlər vaxtilə Zəngəzurda baş verən o qanlı hadisələrin canlı şahidi olan yazıçı Əyyub Abbasovun ötən əsrin 50-ci illərində qələmə aldığı məşhur "Zəngəzur" romanındandır. Faktlara əsaslansaq, Ararat hökumətinin tapşırığı ilə günahsız əhalinin qanını tökən və bununla "məşhur"laşan Andronik hələ 1917-ci il dekabrın 19-da erməni milli şurasının iclasında bildirirdi ki, *"Əgər siz məni Ermənistanın oğlu sayırsınızsa, mən günü sabah Ərzuruma yola düşərəm... türkləri və azərbaycanlıları, kürdləri və yəhudiləri qırmaq üçün öz rəşadətli dəstəmlə gedərəm və məni heç kəs dayandıra bilməz"*.

Üzeyir bəy Hacıbəyli 17 oktyabr 1919-cu ildə qələmə aldığı "Ermənistan və Azərbaycan münasibəti" məqaləsində Zəngəzur faciələrinə gətirib çıxaran səbəblərdən danışaraq qeyd edirdi ki, "Qarabağ erməni camaatinin Azərbaycan torpağında yaşarkən təbii Azərbaycan hökumətinə və qanunlarına tabe olmaq lazımdır deyə, məqül və müvafiqi-məntiq qərarından sonra erməni üsyançıları, daşnak agentləri Zəngəzur tərəfə qaçıb orada fəsadlar törətmək və şeytanətlər icra etmək üçün müsaid bir zəmin tapdılar. Şübhəsiz, Ararat barmağilə idarə olunan və daşnak rəhbərliyi ilə iş görən bu müfsid güruhun təqib etdiyi məqsəd ortaya "Zəngəzur məsələsi" çıxarmaq idi".

Üzeyir bəy ermənilərin bitib-tükənməyən "arzuları"nın davamı olan bu məsələyə "ermənilər tərəfindən ortaya çıxarılmış "Qarabağ məsələsi"nin mabədi" kimi baxır və qeyd edir ki, "Zəngəzur Qarabağın bir hissəsi və Qarabağı təşkil edən dörd uyezdən biridir".

Üzeyir bəy "Zəngəzursuz Qarabağ-Qarabağ ola bilməz" deyərkən bu regionun tarixən formalaşan iqtisadi-mədəni əlaqələrinin qırılmazlığını nəzərdə tuturdu: "Zəngəzurun vəziyyəti-sövqəlceyşiyəsi və köçərilərimiz üçün yaylaq olması bunu isbata kafidir. Bunu hər kəs bilir və yüz il bundan əqdəm Pənah xan dəxi bildirmiş ki, Qarabağ xanlığını təşkil edərkən Zəngəzuru dəxi o xanlığın mühüm bir hissəsi həsbilə yədi-idarəsinə almışdı".

Zəngəzura olan iddialarına haqq qazandırmaq üçün orda ermənilərin 80 faizdən çox olduğunu bildirənlərin "məntiq"i ilə ölçülsə idi, gərək Ermənistanın nəzarətində olan və yalnız azərbaycanlıların yaşadıqları bütün ərazilər Azərbaycana veriləydi və o vaxtlar ermənilərin Naxçıvana iddialarının nəyə əsaslandığını anlamaq mümkün deyildi. Bir də elə həmin dövrdə dünyaya erməni haqlarından dəm vuranların 1918-ci ilin yazında və yayında Zəngəzurda azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər dəhşət doğurur. Həmin vaxtlar Zəngəzur torpaqlarında əhali yalnız azərbaycanlı, yaxud müsəlman olduqlarına görə məhv edilir və öldürülənlərin böyük əksəriyyəti də qadınlar, qocalar və uşaqlar idi. Andronikin quldur dəstələrinin hücumları nəticəsində Zəngəzurun Azərbaycan kəndləri ağır vəziyyətdə idi. Azərbaycan Fövqəladə İstintaq Komissiyasının üzvü Mixaylovun məlumatlarına görə, Andronik Azərbaycan hüdudlarına soxulduqdan sonra müsəlman əhalisinə ultimatum verərək onlardan erməni hökumətinə tabe olmağı, yaxud da qəza ərazisini tərk etməyi tələb etmişdir. Qəza müsəlmanları bu göstərişə tabe olmadıqları üçün ermənilər belə bir qəddarlığa əl atmışdılar. Bu vəhşiliklər nəticəsində 1918-ci ilin yalnız yay və payızında Zəngəzurda 115 Azərbaycan kəndi məhv edilərək dağıdılmışdı. Tam olmayan məlumatlara görə, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdı. Beləliklə, qəzada ölənlərin, yaralananların və şikəst olanların sayı 10 068 nəfərə çatmışdır.

O vaxtlar milli münaqişələrdən, insan tələfatlarından bəhs edəndə ümumi rəqəmlər açıqlansa da, N.Nərimanovun haqlı olaraq göstərdiyi kimi, hər dəfə ölənlərin 99 faizini yalnız müəyyən millətin, yəni, azərbaycanlıların nümayəndələri təşkil edirdi.

1918-ci ilin yayından başlayaraq Zəngəzurda baş verən qanlı hadisələr erməni cəlladların belə qeyri-insani əməllərdə nə qədər səriştəli olduqlarını bir daha dünyaya nümayiş etdirdi. Ermənilərin Göyçə mahalında törətdiyi cinayətlər Andronikin yaxın silahdaşı, mayor Vahramın "xatirələr"ində daha aydın görünür: "Mən heç nəyə fərq qoymadan Basarkeçərin turk əhalisini məhv etdim. Lakin bəzən gülləyə heyfim gəlirdi. Bu itləri qırmaq üçün ən yaxşı vasitə odur ki, döyüşdən sonra sağ qalanların hamısını yığıb quyulara doldurasan və üstündən ağır daşlar qoyasan ki, onlar bu dünyada qalmasınlar. Mən belə də etdim: bütün kişiləri, qadınları və uşaqları yığıb quyulara tökdüm, quyuların ağzını daşlarla bağlayaraq onların işini bitirdim". (A.Lalayan-Kontrevolyutsionnıy daşnaksutyun i imperialastiçeskaya voyna 1914-1918 q.Azərb. EA Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1989, 14 səh. 50).

"Azərbaycan" qəzetinin 1919-cu il 14 yanvar tarixli sayında qeyd edildiyi kimi, məhz bu məqsədlə "...Ermənilər minlərlə müsəlmanı doğrayır, qanımız sel kimi dağlara, səhralara axıdılır, yüzlərlə kənd yerlə-yeksan edilir, ermənilərin ayaqları altında namusumuz tapdalanır. Hara baxırsansa, bax, hər yerdə müsəlman qaçqınlarıdır, hər yerdə qadınların, qızların ağlaşması eşidilir. Ermənilər bu torpaqları müsəlmanlardan təmizlədikdən sonra bizim xalqdan artıq burada bir iz də qalmayacaq..."

Zəngəzur torpaqlarında daşnakların 1918-ci ildə törətdiyi qanlı cinayətlərin mərkəzində yenə də qəddar cani və qatil, bu gün isə rəsmi Ermənistan, erməni lobbisi və diasporu tərəfindən "erməni xalqının milli qəhrəmanı" kimi dünya ictimaiyyətinə təqdim edilən tayqulaq general Andronik durur. Bu cinayətlərin başlanğıcı Ərzurumda qoyulmuş, Naxçıvanda, Göyçə mahalında, İrəvanda daha amansızlıqla davam etdirilmiş, Zəngəzur və Qarabağda əsl mənada vəhşilik səviyyəsinə çatdırılmışdı. Nəticədə on minlərlə azərbaycanlı, kürd əhalisi dəhşətli əziyyətlərə, məhrumiyyətlərə məruz qalmış, həlak olmuş və yaralanmışdı. Həlak olanların əksəriyyəti yalnız azərbaycanlı, yaxud müsəlman olduqlarına görə qətlə yetirilmişdilər. Bu da məlumdur ki, ölənlərin böyük əksəriyyətini qadınlar, qocalar və uşaqlar təşkil etmişdi. Bəli, yaxın tariximizin acı təcrübəsi və həqiqətləri belədir.

O dövrdə erməni xislətini gözəl bilən Üzeyir bəy Tiflisdə nəşr olunan erməni qəzeti "Slovo"nun Zəngəzurla bağlı Azərbaycan və Ermənistan arasında gedən diplomatik notalardan danışarkən erməni tərəfin daha "yumşaq" tonda danışdığını bildirməsini belə şərh edirdi: "Erməni notasının hüzur və etidalə riayətlə yazıldığını biz də inkar etməyirik. Lakin bu "pişiyim-pişiyim" ilə bizim torpağımızın ən mühüm bir qitəsini əlimizdən almaq istəyənlərə acıq tutmamaq və hiddət etməmək qabildirmi? Əgər Azərbaycan Ermənistanın torpağından bir parçasını ən mülayim. ən şirin, hətta "mən ölüm və qurban olum" təbirləri istemalinə varıncaya qədər yumşaq bir dil ilə istəsə və bunda da israr etsə, Ermənistan böylə bir həqsiz tələbdən hiddət etməzmi? Bundan başqa, bir var ki dildir, bir də var ki əməl. Zəngəzur haqqında" mülayim dil ilə bizə nota verən Ermənistan, Zəngəzur müsəlmanlarının başına nasıl dürüşt zalimanə və birəhmanə oyunlar gətirir... Qafqaz cümhuriyyətləri arasında "ixtilaflı məsələlər"də birinci qılınc çəkən, birinci olaraq qardaş qanı tökən erməni cümhuriyyəti oldu ki, sülh və saziş təriqindən imtina edib gürcü üzərinə hücum etdi. Özgənin malına və torpağına təmə edən yenə birinci Ermənistan oldu ki, Naxçıvan üzərinə hücum edib özgənin yerinə sahibləndi və bugünkü eyni Ermənistandır ki, məqsədi Azərbaycan torpağına dəstdirazlıq etməkdir. Azərbaycan öz torpaqlarını qorumaq üçün qılınc çəkməyə məcbur olacaqsa və arada qan töküləcəksə, hamısının məsuliyyəti Ermənistan üzərinə aid olacaqdır. Bunu bir Azərbaycan deyil, bəlkə hər kəs və hətta Qafqazla əlaqə peyda etmiş Avropa hökumətlərinin nümayəndələri də iqrar edirlər".

Xalq şairi Rəsul Rza "Ömürdən səhifələr" şeirində erməni quduzluğunun simvoluna çevrilən Andronik haqqında yazırdı:

*Bəs o kimdir at üstündə,*
*özündən razı .*
*Kimə oxşayır. Allah,*
*kimə?*
*Elə bil ki, qaba bir əl toxunur*
*incə simə.*
*Gözlərimdə canlanır*
*Naxçıvanın Arazı.*
*Söndürülmüş ocaqlar,*
*Əbədi susdurulmuş uşaqlar.*
*Qanlı üzlər keçir gözlərimdən,*
*min-min azı.*
*Bağırmaq istəyirəm:*
*-Hardan gəldi bura*
*bu dələduz!*
*Daşa dönmüş daşürəkli quduz!*

**_Bəxtiyar QARACA,_**
**_"Azərbaycan"_**

# Kanadanın SSL şirkəti "Azerspace-2" peykinin istehsalçısı seçilib

Qərargahı Kaliforniyanın Palo Alto şəhərində yerləşən və Kanadanın MDA korporasiyasına məxsus, kommersiya peyklərinin aparıcı təchizatçısı olan "Space Systems/Loral" (SSL) şirkəti "Azərkosmos" ASC tərəfindən Azərbaycanın sayca üçüncü, təyinatına görə isə ikinci telekommunikasiya peykinin istehsalçısı seçilib. Məlumatı AZƏRTAC-a "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətindən bildiriblər.

SSL şirkətinin prezidenti Con Çelli "peyk operatorları ilə əməkdaşlıq sahəsində SSL-in böyük təcrübəsi var", - deyə qeyd edib. "Biz "Azərkosmos"la "İntelsat"ın inkişaf hədəflərini dəstəkləyəcək bir peyk istehsal etməklə bu şirkətlərin birgə əməkdaşlıq layihəsinə öz töhfəmizi verməyi səbirsizliklə gözləyirik".

Dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan "İntelsat" ilə "Azərkosmos" ASC-nin uzunmüddətli razılaşmasına əsasən, 45° şərq uzunluğu orbital mövqeyində yerləşəcək "Azerspace-2" Afrika, Avropa, Asiya və Yaxın Şərq regionlarını əhatə edəcək.

"Azerspace-2" "Azərkosmos"un sayca ikinci telekommunikasiya peyki olmaqla yanaşı, "Azerspace-1"in əhatə zonasını genişləndirməklə Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Afrikada Böyük Səhranın cənub regionlarında ödənişli televiziya, hökumət strukturları üçün rabitə xidmətləri və şəbəkə xidmətlərinə artan tələbatı qarşılayacaq. "Azerspace-2", həmçinin Afrikada korporativ şəbəkə və dövlət qurumlarını peyk xidmətləri ilə təmin edəcək.

"Yeni peyk "Azərkosmos"u regionda peyk tutumlarına artan tələbatı qarşılamaq üçün əlavə tutumla təmin edəcək və müştərilərimizə daha yüksək keyfiyyətli radio, televiziya və rabitə xidmətləri göstərməyimizə imkan yaradacaq. Biz dünyanın peyk sənayesinin aparıcı şirkətləri olan "İntelsat" və SSL ilə əməkdaşlıq etməyimizlə məmnunuq", - deyə "Azərkosmos"un sədri Rəşad Nəbiyev bildirib.

"Bu layihə hazırda peyk sənayesində operatorlar arasında əməkdaşlığın bariz nümunəsidir. Bu peyk, həmçinin Afrikadakı korporativ şəbəkələri biznesin qurulması və genişləndirilməsi üçün lazım olan genişzolaqlı rabitə ilə təmin edəcək", - deyə "İntelsat"ın baş texniki direktoru Tyeri Qulemin (Thierry Guillemin) bildirib.

"Azerspace-2" SSL şirkəti tərəfindən dizayn və istehsal ediləcək. Müqavilə çərçivəsində Kanadanın Riçmond şəhərində yerləşən, qlobal kommunikasiya və informasiya şirkəti olan MDA korporasiyası "Azərkosmos"a Yer səthinin radarla müşahidəsinə dair bilik və təcrübənin ötürülməsini də təmin edəcək. Peykin dizaynı yüksək etibarlı SSL 1300 peyk platformasına əsaslanacaq ki, bu da öz növbəsində, çoxsaylı tətbiqlərdən və yüksək texnologiyalardan istifadə imkanları yaradır.

"Azerspace-2" peyk layihəsi Kanadanın "Export Development Canada" ("EDC") ixrac-kredit agentliyi tərəfindən uzunmüddətli və güzəştli kredit xətti vasitəsilə maliyyələşdiriləcək. Peykin 2017-ci ildə orbitə buraxılması planlaşdırılır.

# *"Exportiamo" portalı:* Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminində mühüm rola malikdir

İtaliyanın "Exportiamo" portalında "Bakı: Nağıllar və meqa investisiyalar əhatəsində Qafqazın mərkəzi" sərlövhəli məqalə yerləşdirilib. Məqalədə əsasən Bakının önəmli tədbirlərə evsahibliyi etməsindən, mühüm mövzuların müzakirə olunduğu bir məkana çevrilməsindən, Azərbaycanın dünyada artan nüfuzundan bəhs olunur.

Yazıda Bakıda ənənəvi olaraq keçirilən "BakuBuild-2015", "CIPS Caspain-2015" və "Aqua-Therm Baku 2015" sərgiləri barədə ətraflı məlumat verilir. Bildirilir ki, Xəzər regionunun ən önəmli tədbirlərindən hesab edilən sərgilərdə bir sıra ölkələrin nüfuzlu şirkətləri təmsil olunur.

Müəllif oxucuların diqqətinə çatdırır ki, zəngin enerji ehtiyatlarına malik Azərbaycanda sürətli iqtisadi inkişaf müşahidə olunur. Hazırda bu ölkə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında fundamental rola malikdir. Eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanda qeyri-neft sektorunun inkişafı da sürətlənib. Bu sırada tikinti sektoru xüsusi çəkiyə malikdir.

**_Maqsud DADAŞOV,_**
**_AZƏRTAC-ın xüsusi müxbiri_**

*Roma*

# Vətənin müdafiəsinə hər zaman hazırıq





Bərdədə "Vətənin müdafiəsinə hazıram!" devizi altında tədbir keçirilmişdir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşəbbüsü ilə gerçəkləşən tədbirə qonşu Ağdam, Yevlax və Tərtər rayonlarından da nümayəndələr dəvət edilmişdi. Tədbir iştirakçıları sırasında hər rayondan şəhid ailəsi, dərs əlaçısı olmaqla yanaşı hərbi idman oyunlarında fəal iştirak edən şagird hərbi hazırlıq müəllimi və sözügedən rayonların səfərbərlik və hərbi xidmətə çağırış üzrə dövlət xidməti idarələrinin rəisləri və zabitləri yer almışdı.

Tədbirdə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Xidmət rəisinin müavini, general-mayor Orucəli Novruzov çıxış edərək respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Milli Ordu quruculuğu istiqamətində həyata keçirdiyi möhtəşəm tədbirlərdən ətraflı danışdı. Natiq qeyd etdi ki, Azərbaycan Ordusu bu gün regionun ən güclü ordusudur və işğal altındakı torpaqlarımızı istənilən an azad etməyə qadirdir. Bu yenilməz gücün göstəricisidir ki, atəşkəs rejimini pozub cəbhə xəttində təxribatlar törədən Ermənistan silahlı qüvvələri hər dəfə artıqlamasilə cavabını alıb susdurulur. Ordunu güclü, qüdrətli edənisə vətənini canından artıq sevən, cəsur və qorxmaz əsgərlərdir. Bu gün ordu sıralarında Mübariz İbrahimovun tarixi qəhrəmanlığını təkrarlamağa qadir minlərlə əsgər qulluq edir. Qürurvericidir ki, onların sıraları vətənpərvər yeni nəsillər hesabına hər il daha da sıxlaşır. Orta məktəbləri yeni bitirən məzunlar arasında hərb peşəsinə maraq ildən-ilə artmaqdadır. Bu amil ordumuzun qarşısıalınmaz gücə malik olacağına inamı artırır, xoş ümidlər doğurur.

Tədbirdə Şəmistan Əlizamanlının ifa etdiyi mahnılar iştirakçılarda kövrək duyğular oyatdı, hər kəsi vətənin müdafiəsinə hazır olmağa, düşməndən layiqli qisas almağa ruhlandırırdı. Səslənən müxtəlif çıxışlar, vurğulanan fikirlər hər könüldə yüksək olan vətənpərvərlik ruhundan qaynaqlanırdı.

Sonda məktəblilərin hərbi idman oyunlarında fərqlənmiş şagirdlərə mükafatlar təqdim olundu. Çox maraqlı keçən tədbirin ruhu hər kəsdə qəti bir əminlik hissi yaratdı ki, vətənimizin müdafiəsinə hər zaman hazırıq.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Vartan Sirmakesin cinayət məsuliyyətinə cəlb olunması üçün İsveçrə Baş Prokurorluğuna müraciət edib

İsveçrə Konfederasiyasının vətəndaşı, "Franck Muller Group" şirkətinin həmtəsisçisi və baş icraçı direktoru Vartan Sirmakesin Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının işğal etdiyi ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyətlə bağlı Azərbaycan Respublikasının Xarici İşlər, İqtisadiyyat və Sənaye nazirliklərindən daxil olmuş materiallarda göstərilən xüsusatlar Baş Prokurorluqda araşdırılıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, araşdırmalar zamanı V.Sirmakesin Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistanın yaratdığı qanunsuz rejimi beynəlxalq səviyyədə tanıtdırmaq və təbliğ etmək məqsədilə qabaqcadan əlbir olan bir qrup şəxslə bu ərazilərdə qanunsuz iqtisadi fəaliyyətlə məşğul olması, Azərbaycan Respublikasının müvafiq dövlət qurumlarının razılığı olmadan icazəsiz Zəngilan rayonunun Vejnəli kəndində yerləşən qızıl mədəninin açılış mərasimində iştirak etməklə dövlət sərhədini qanunsuz keçməsi, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini şübhə altına alan qərəzli hərəkətlər etməsində şübhələr üçün kifayət qədər əsaslar müəyyən edilib.

Göstərilən faktlarla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Cinayət Məcəlləsinin 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə), 281.2-ci (bir qrup şəxs tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etmə) və 192.2.2-ci (külli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq) maddələri ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

V.Sirmakesin cinayət məsuliyyətinə cəlb edilməsi üçün İsveçrə Konfederasiyası Baş Prokurorluğuna müvafiq qaydada hüquqi yardım göstərilməsi barədə vəsatət göndərilib.


Azercell

## abunəçilərinin nəzərinə

21.11.2015 tarixindən GəncOL5 və GəncOL8 tarif paketlərinin istifadəçiləri tərəfindən edilən beynəlxalq zənglər üzrə 1 dəqiqəlik hesablama intervalı tətbiq olunacaq.


Yeni nəşrlər

# Qapı arxasında...




Hər yeni əsər bir ədəbi hadisədir. Azərbaycan Yazıçılar Birliyinin üzvü Camal Zeynaloğlunun yeni çapdan buraxılan "Qəfil döyülən qapı"sı da bu qəbildən sayıla bilər, çünki geniş oxucu marağına səbəb olub.

"Xəyallardakı ağ yalanlar"ın təsirindən çıxmamış "Qəfil döyülən qapı"nın arxasında nələrin baş verdiyinin oxucuya maraqlı formada çatdırılması üçün hər iki əsərə seçilmiş ad olduqca uğurlu hesab edilir.

Sayca on yeddinci kitabı ilə oxucu görüşünə gələn müəllifin, bu əsərlərindən də göründüyü kimi, mövzu dairəsi olduqca genişdir. Haqsızlığa qarşı mübarizə, qanunun aliliyini qoruyub saxlayan hüquq-mühafizə orqanları işçilərinin peşələrinə sədaqəti buradakı hekayə və povestlərin mövzusudur.

"Qəfil döyülən qapı"nın arxasında nələr baş verir? Bunu öyrənmək üçün, əlbəttə, o "qapı açılmalı" - kitab vərəqlənib oxunmalıdır. Oxucular biləcəklər ki, müəllif bu qapının arxasında cərəyan edən hadisələri cəmiyyətdə antipodlara qarşı mübarizənin bir forması kimi təqdim edir. Oxucu intizarı, hiss və həyəcan əsərin bədii dəyərini bir qədər də artırır. Bu da onu göstərir ki, C.Zeynaloğlu cəmiyyətdə baş verən hadisələri ən kiçik detalına, ümumi mahiyyət daşıyan epizoduna qədər diqqətlə izləyir və onu qiymətləndirməyi oxucularının ixtiyarına verir ki, bu da onun peşəkarlığını bir daha təsdiqləyir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***



## Beynəlxalq aləm: HADİSƏLƏR, FAKTLAR

# Putin Əsədlə görüşdü



Rusiya Prezidenti Vladimir Putin suriyalı həmkarı Bəşşar Əsədlə görüş keçirmişdir. Bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov məlumat vermişdir.

Görüş Moskvada baş tutmuşdur. Prezidentlər Rusiyanın Suriyada hərbi əməliyyatının davam etməsinə aid məsələləri müzakirə etmişlər.

Bundan əlavə, görüş zamanı Əsəd Rusiya liderini Suriyada vəziyyət və hökumət qoşunlarının hərəkət planları barədə məlumatlandırmışdır. Suriya Prezidenti terrorçuluğa qarşı mübarizədə göstərdiyi yardıma görə Rusiya liderinə minnətdarlıq etmişdir.

Öz növbəsində Putin ölkədəki böhranın siyasi yolla tənzimlənməsində Dəməşqə kömək etməyə hazır olduğunu bildirmişdir: "Döyüş əməliyyatlarının gedişində müsbət dinamika əsasında siyasi qüvvələrin, etnik və dini qrupların iştirakı ilə uzunmüddətli sülhə nail olmaq mümkündür. Şübhəsiz, son sözü Suriya xalqı deməlidir".

# Kanada İŞİD-ə qarşı əməliyyatdan çıxmaq niyyətindədir




Kanada Suriya və İraqda İŞİD terrorçu qruplaşmasına qarşı hərbi əməliyyatda iştirakını başa çatdıracaq. Bu barədə Liberal Partiyanın lideri və ölkənin müvəqqəti Baş naziri Castin Trüdo məlumat vermişdir.

TASS agentliyinin xəbərinə görə, seçkiqabağı kampaniyası zamanı Trüdo qələbə qazanacağı təqdirdə Kanada hərbi kontingentini Yaxın Şərqdən çıxaracağına söz vermişdi. O, ABŞ Prezidenti Barak Obama ilə telefon danışığında bu niyyətini təsdiqləmişdir.

Xatırladaq ki, bir il əvvəl Kanadanın o vaxtki hökuməti ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiyaya qoşulduğunu bildirmiş və Yaxın Şərqə 6 ədəd F-18 qırıcısı, 2 ədəd "CP-140 Aurora" kəşfiyyat təyyarəsi və 1 ədəd "Airbus CC-150" yanacaqdoldurma təyyarəsi göndərmişdir.

Bundan əlavə, hava hücumuna dəstək üçün regiona 600 kanadalı hərbi qulluqçu ezam olunmuşdur.

Kanadalılar ilk dəfə bu il aprelin 9-da hərbi əməliyyatlarda iştirak etmişlər. Kontingent Küveytdəki aviabazada yerləşdirilmişdir. Kanada parlamentinin qərarına əsasən, hərbi qulluqçular gələn ilin martınadək koalisiyanın tərkibində olacaqlar.

# İranın Ali Rəhbəri nüvə razılaşması ilə bağlı öhdəliklərin yerinə yetirilməsinə razılıq verib

Oktyabrın 21-də İran İslam Respublikasının Ali Rəhbəri ayətullah Əli Xamneyi ölkə Prezidenti Həsən Ruhaniyə məktub ünvanlayıb.

Ali Rəhbərin dəftərxanasının açıqlamasında deyilir ki, Əli Xamneyi məktubda İranın Qərb dövlətləri ilə əldə etdiyi nüvə proqramına dair razılaşmanı bəyəndiyini bildirib və öhdəliklərin yerinə yetirilməsi prosesinin başlaması haqqında göstəriş verib. Lakin yerli mətbuat yazır ki, ABŞ və danışıqlarda iştirak edən digər dövlətlər insan hüquqlarını qorumaq bəhanəsi ilə İrana qarşı hər hansı bir sanksiya tətbiq etməyə çalışsalar razılaşmaya əsasən öhdəliklərin yerinə yetirilməsi dayandırılacaq və İran nüvə proqramını həyata keçirməyə davam edəcək.

# BMT Baş Assambleyasının sabiq sədri rüşvətxorluqda ittiham olundu



Manhetten federal məhkəməsi BMT Baş Assambleyasının keçmiş sədri Con Eşə, daşınmaz əmlak sahəsində çinli maqnat Nq Lap Senqə və daha üç şübhəli şəxsə korrupsiya ittihamı irəli sürmüşdür. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Məlumata görə, diplomat Nq Lap Senqdən 1,3 milyon dollar məbləğində rüşvət almaqda ittiham edilir. Bunun müqabilində Eş Makaoda BMT-nin konfrans mərkəzinin tikintisi üçün kömək etməyi vəd vermişdir. Digər biznesmenlərdən də pul alınması faktları təsdiqini tapmışdır.

Məhkəmənin mülahizəsinə görə, Eş 2013-2014-cü illərdə Antiqua və Barbudanın BMT-dəki nümayəndəsi və Baş Assambleyanın sədri vəzifəsində olarkən maliyyə fırıldaqçılığı sxemlərində iştirak etmişdir.

# ABŞ ilk dəfə Avropada RƏM dəniz sistemini sınaqdan keçirdi



ABŞ və onun NATO üzrə müttəfiqləri Avropada ilk dəfə olaraq raket hücumundan müdafiə dəniz sisteminin sınağını keçirmişlər. Təlimlər Şotlandiya sahillərinin yaxınlığında təşkil olunmuşdur. Bu barədə BBC xəbər verir.

Təlimlərdə amerikalı hərbçilərdən başqa, daha 9 ölkənin - Avstraliya, Kanada, Fransa, Almaniya, İtaliya, Niderland, Norveç, İspaniya və Böyük Britaniyanın ordu və donanma nümayəndələri iştirak etmişlər.

ABŞ hərbi hava qüvvələrinin məlumatına görə, Gebrid adalarındakı poliqondan "Terrier Orion" kiçikmənzilli raketi atılmışdır. Onun koordinatlarını müşahidə edən hollandiyalı hərbi dənizçilər məlumatları Amerikanın "Ross" gəmisinə ötürmüşlər. Gəmidən atılan "SM-3" zenit raketi hədəfi vurmuşdur. Beləliklə, müttəfiqlərin hərbi donanması Avropanın hava məkanında ilk dəfə uğurlu sınaq keçirmişlər.

Amerikanın Avropa və Afrikadakı hərbi dəniz qruplaşmasının komandanı, admiral Mark Fergüson bildirmişdir ki, təlimlər ABŞ-ın gəmidə yerləşdirilən "Aegis" məlumat idarəetmə sistemi və Rumıniyadakı RƏM bazası vasitəsilə Avropanı müdafiə etməyə hazır olduğunu nümayiş etdirmişdir. Amerikalı admiral həmçinin sınaq zamanı müttəfiqlərin yüksək peşəkarlığını qeyd etmişdir.

# Vaşinqton Pxenyanla sülh sazişindən imtina etdi

ABŞ KXDR ilə sülh sazişi hazırlamaqdan imtina etmişdir. Bu barədə Amerika Konqresi Senatının xarici işlər komitəsində dinləmələr zamanı ABŞ-ın KXDR üzrə xüsusi nümayəndəsi Son Kim məlumat vermişdir.

"Bizim belə bir müzakirələrə qoşulmaqda marağımız yoxdur. Şimali Koreya ilə münasibətlərdə prioritet Koreya yarımadasının nüvə tərksilahıdır. Pxenyanın sülh sazişi imzalamaq təklifi indiyədək adət etdiyimiz güzəşt almaq oyununa bənzəyir. Bunun əvəzində KXDR nüvə problemi, raket problemi və insan hüquqlarının yaxşılaşdırılması ilə bağlı tərəqqi nümayiş etdirməlidir" deyə Dövlət Departamentinin əməkdaşı vurğulamışdır. Son Kimin dediyinə görə, ABŞ KXDR-ə qarşı birtərəfli sanksiyaları sərtləşdirmək barədə düşünür.

Xatırladaq ki, oktyabrın 2-də Pxenyan BMT tribunasından ABŞ-a sülh sazişi imzalamağı təklif etmişdi.

# Atəşkəs rejimi yenə pozulmuşdur

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 102 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Paravakar kəndində yerləşən mövqelərdən Azərbaycan Ordusunun Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Ağstafa rayonunun Köhnəqışlaq kəndində yerləşən mövqeləri atəşə tutulub.

Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə məruz qalıb.

Goranboy rayonunun Tap Qaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Göyarx, Yarımca, Çaylı, Ağdam rayonunun Kəngərli, Sarıcalı, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub. Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 105 dəfə atəş zərbəsi endirib.

# İndoneziyanın İnsan Hüquqları üzrə Milli Komissiyasının sədri Xocalı soyqırımı haqqında kitab yazacaq

İndoneziya Respublikasının İnsan Hüquqları üzrə Milli Komissiyasının sədri Nur Xolis ölkəmizə səfəri çərçivəsində oktyabrın 21-də "Xocalıya Ədalət Beynəlxalq Kampaniyası" Beynəlxalq İctimai Birliyinin ofisində olub.

AZƏRTAC xəbər verir ki, ictimai birliyin icraçı direktoru Yusif Məmmədəliyev qonağa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətləri, xüsusilə Xocalı qətliamı barədə məlumat verib. O, Azərbaycan tarixində ən qanlı hadisələrdən olan bu cinayət hadisəsi zamanı dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirildiyini, əsir götürülənlərin dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qaldıqlarını söyləyib. İcraçı direktor Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün görülən işlərdən də danışıb.

Görüşdə qonağa 2008-ci il mayın 8-də Şuşanın işğalının ildönümü günündə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın irəli sürdüyü təşəbbüs əsasında həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası haqqında məlumat verilib. Bildirilib ki, kampaniya hazırda 80-dən artıq ölkədə yüzlərlə könüllünün iştirakı ilə davam etdirilir. Məqsəd dünya ictimaiyyətinin Xocalı faciəsi ilə bağlı məlumatlandırılması, faciəyə beynəlxalq aləmdə siyasi-hüquqi və mənəvi qiymət verilməsidir. Aparılan məqsədyönlü iş nəticəsində Pakistan, Meksika, Kolumbiya, Rumıniya, Çexiya, Bosniya və Herseqovina, Peru, İordaniya parlamentləri, ABŞ-ın 17 ştatı Xocalı faciəsini soyqırımı kimi tanıyıb.

İndoneziyanın İnsan Hüquqları üzrə Milli Komissiyasının sədri Nur Xolis XX əsrdə Xocalı soyqırımı kimi dəhşətli bir faciənin törədilməsinin qəbuledilməz olduğunu bildirib. O, İndoneziyada Xocalı soyqırımının tanıdılması istiqamətində iş görəcəklərini diqqətə çatdırıb. Nur Xolis araşdırdığı və topladığı məlumatlar əsasında Xocalı soyqırımı ilə bağlı kitab yazacağını deyib.

Görüşdə Xocalı soyqırımından bəhs edən videoçarx nümayiş etdirilib, qonağın sualları cavablandırılıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi Ehtiram Kərimova əzizi

**FİKRƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Rüfət Aslanlıya əzizi

**MİRZƏ RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Sosial Müdafiə Fondunun kollektivi Maliyyə Nazirliyinin İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri Vüqar Məcidliyə atası

**SABİR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Rüfət Aslanlıya əzizi

**MİRZƏ ŞIXƏLİ OĞLU RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti ali məktəbin ümumi işlər üzrə prorektoru Rəşad Həsənova atası

**FƏYAZ HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin kollektivi iş yoldaşları Səidə Abaszadəyə qardaşı

**AZƏR ABASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunun kollektivi AMEA-nın işlər müdiri Fətəli Abdullayevə qayınatası

**RAFİQ BAYRAMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Təmiz Şəhər" ASC-nin rəhbərliyi və kollektivi Maliyyə Nazirliyinin İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri Vüqar Məcidliyə atası

**SABİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Maliyyə Nazirliyinin İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri Vüqar Məcidliyə atası

**SABİR MƏCİDLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTORUN I MÜAVİNİ
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9985
Sifariş 3311